**ELŞƏN MİSİR OĞLU NƏSİBOV**

# İNKİŞAF VƏ SÜLH

# İDEYALARI

**V KİTAB**

**BAKI-2014**

**Elmi redaktoru:** **Cavid Cabbaroğlu**
***tarix üzrə fəlsəfə doktoru***

**Rəyçiləri:** **Zamiq Aslanov**
***hüquq üzrə fəlsəfə doktoru*;**

**Tərlan Yusifov**
***təcrübəli hüquqşünas*;**

**Valeh İsmayılov**
***tədqiqatçı jurnalist***

**E.M.Nəsibov. İnkişaf və sülh ideyaları. V kitab. Bakı, "Elm və Təhsil" nəşriyyatı 2014, 170 səh.**

Kitab sabitlik, sülh və inkişafa aid olmaqla müxtəlif sahələri əhatə edən, fərqli predmetləri özündə əks etdirən müqayisəli ideyalardan ibarətdir. Burada aidiyyatı sahələr üzrə ideyaların nəzəri istiqamətləri ümumiləşdirilir, nəticələr şəkilində analizlər aparılır. Mətndə multikulturalizmin əhəmiyyəti ideallığın tərkibi kimi xüsusi olaraq əsaslandırılır. Kitabda həmçinin azərbaycanlılıarın bəzi mənfi xarakterik xüsusiyətləri açılır və mənfi cəhətlər tənqidə məruz qalır. Belə nəticələrə gəlinir ki, mental dəyərlərin müstəvisi stereotiplərdən azad olunmalıdır. Dövlət və hakimiyyət rəhbərlərinin fəaliyyətlərinin tənqid olunması üsulları işıqlandırılır. Respublika quruluşunun tənqidi aspektində Azərbaycanın gələcəkdə yeni bir quruluş modelinə keçməsinin zəruri əsasları qeyd olunur. Eləcə də yeni ideyaların tərkibi olaraq bunlar göstərilir: Azərbaycanın regionda beynəlxalq bitərəf statusunun formalaşması; təhlükəsizliyin yeni təminat istiqamətləri; iqtisadiyyatın inkişaf etdirilməsinin yeni ideya məzmunu, bu baxımdan iqtisadiyyatda "bank idarəetməsinin" əsasları; neftdən asılılığın azaldılması yolları; dini aylarda Afrika qitəsinə yardım günlərinin təsis olunması. Əlavə olaraq strateji-konseptual sənədlərin təsnifatı şərh olunur.

Kitab ideya məzmunludur və elm dairələri, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulur.

**ISBN: 978-9952-8142-6-2**

$\frac{3701000000-209}{N098-2014}$ ***qrifli nəşr***

**© Nəsibov E.M., 2014**
**© «Elm və təhsil», 2014**

## MÜNDƏRİCAT:

**GİRİŞ ............................................................................ 5**

**I HİSSƏ:**

**Multikulturalizm və onun əhəmiyyəti .............................. 15**

**Mental dəyərlərimizin dəyərsizlikləri**
**(bəzi mənfi xüsusiyyətlərin tənqidi kontekstindən yanaşma) ........................................................................ 25**

**II HİSSƏ:**

**Sabitliyə aparan ideal yollar ............................................ 50**

**III HİSSƏ:**

**İnkişafa aparan ideal yollar .............................................. 64**

**IV HİSSƏ:**
**Sülhə aparan ideal yollar və şəraitlər ................................ 70**

**V HİSSƏ:**

**Dövlət və hakimiyyət rəhbərlərinin fəaliyyətinin tənqid olunmasının əsasları........................................................... 76**

**Gələcəkdə Azərbaycanda yeni formalı dövlət quruluşunun yaradılması və əhəmiyyəti *("Respublika" adlanan dövlət quruluşunun tənqidi aspektində)*............................. 85**

**Azərbaycanın beynəlxalq bitərəf statusunun müəyyən olunması və əhəmiyyəti...................................99**

**Təhlükəsizliyin təmin olunması üçün yeni ideyalar........104**

**İqtisadiyyatın inkişaf etdirilməsinin əsasları (yeni ideyalar) ..................................................................112**

**Neftdən asılılığın azaldılması və dövlət büdcəsinin alternativ vasitələrlə formalaşdırılması ...........................116**

**Dini aylarda, bayramlarda, digər əlamətdar günlərdə "Afrika qitəsinə beynəlxalq yardım aylığı"nın keçirilməsi. "Afrika qitəsinə beynəlxalq yardım günləri"nin təsis olunması...................................................................122**

**Əlavə: Hüquqi aktların təsnifatı:** ***dövlət konsepsiyası, dövlət proqramı, dövlət strategiyası, dövlət doktrinası, dövlətin fəaliyyət planları*** **adlanan hüquqi aktların əsasları......................................................128**

**Qrafiklər bölməsi ...........................................................155**

**NƏTİCƏ.........................................................................162**

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT.....163**

# GİRİŞ:

**Sabitlik** *(müəyyən hədlərdə, düşüncələrdə müəyyən xəyali müstəvidəki koordinat birləşmələrində olan nisbi sakit və bərabər vəziyyət, tarazlı əsaslarla davam edən və qarşılıqlı olaraq eyni vəziyyətdə olan nöqtələrdən yerlərini təqribən bərabər sürətlə dəyişən elementlərin əlaqələr və təmas vəziyyəti, ardıcıl qaydada sabit sürətlə cərəyan edən dinamik vəziyyət),* **inkişaf** *(elementlərin müəyyən istiqamətlər üzrə yerdəyişmələrlə xarakterizə olunması vəziyyətləri, ardıcıl proseslər axınında kəmiyyətin və keyfiyyətin artması, forma və məzmunun dəyişməsi və yeni vəziyyətlərin müəyyən edilməsi ilə xassələnən dinamik şərait, mühit, vəziyyət)* və **sülh** *(müəyyən məkanlarda mövcud olan tərəflər arasında qeyri-münaqişə, qeyri-müharibə vəziyyətləri, qeyri-xaotik, yəni başqa nizamlı, vərdiş olunmamış, eləcə də əvvəlki nizamı kəskin şəkildə dəyişməyə doğru yönələn, sakitləşdirici vəziyyətlər)* bir-birilərini şərtləndirən hadisələrdir, proseslərdir, kriteriyalardır, ölçülər və dəyərlərdir, aşkar olunmalardır və vəziyyətlərdir. Üç kriteriya mərkəzləşdirici və mərkəzlərdən qaçıcı funksiya kəsb edir. Hər üç kriteriya dəyərlər (dəyərlərdir ona görə ki, pozitivliyin, faydalılığın əsaslarında dayanır, cəmiyyəti, dövləti, fərdləri pozitiv əsaslarla hərəkət vəziyyətində saxlayır, reallıqları aşkarlayır, həmçinin reallıqları ideallıqlara çevirir) olaraq bir-biri üçün mütləq və nisbi başlanğıc, eləcə də mütləq və nisbi sonluq rolunu oynayır. Hər üç kriteriyanın müəyyən bir məkanda və müstəvidə vəhdətdə tətbiqi, bu vəhdətdən meydana gələn ümumi və konkret şərait şaxələnmə prinsipi ilə kəmiyyətin və keyfiyyətin artmasını, elementlərin hərəkətlər səhnəsinin şaquli və üfiqi olaraq genişlənməsini təmin edir. Kəmiyyət və keyfiyyət artımı, iştirakçıların və istifadə olunanların üfiqi və şaquli trayektoriya üzrə genişlənən hərəkəti isə sabitlik üçün lazım olan resursların əldə olunmasını şərtləndirir, resursların ayrı-ayrı məkanlar üzrə mərkəzləşməsi

prosesləri yaşanır. Buradan da dəyərlərin (keyfiyyətli vasitələrin) dəyərli əsaslarla istifadəsi amili meydana gəlir. **(Qeyd: əslində hər bir element dəyərdir və keyfiyyətdir. Onun keyfiyyət vasitəsi kimi aktivləşməsinin əsası və zamanı mövcud olur. İmkanlar çərçivəsində dəyərlər kimi ortaya çıxır**). Dəyərlərin qeyri-müəyyənlikdən müəyyənliyə keçməsi üçün mühit formalaşır. **(Qeyd: əslində yaradıcılıq, quruculuq, bu baxımdan da meydana gələn ixtiralar və kəşflər də dəyərlərdən ibarətdir. Dəyər qeyri-müəyyənlikdən müəyyənliyə çevrilir və çoxalır. Eləcə də müəyyən olunmuş dəyərlər yeni dəyərlərin fonunda təkrar olaraq qeyri-müəyyənliyə çevrilir. Burada zamanla gerçəkləşmə və yoxolma prosesləri yaşanır**). Sistemin daxili zənginləşir və zənginlikdən də sakitlik və mülayimlik meydana gəlir. **(Qeyd: müəyyən bir məkanda bizim hesab etdiyimiz "boşluq", element çatışmazlığı digər məkandan elementlərin "çatışmayan məkan"a doğru "sürüşməsini" meydana gətirir. Bu anda məkanda və məkanlararası yerlərdə təbii olaraq xaotik, qeyri-sistemli vəziyyətlər ortaya çıxır. Qeyri-sistemli vəziyyətlərə keçidlər yeni sistemli vəziyyətlərin yaranmasını şərtləndirir. İnkişaf proseslərində mərkəzləşmə haradasa qeyri-nizamlılığa xidmət edir. Meqapolislər ətrafında mərkəzləşmə məkanlar nisbətində qeyri-tarazlığı yaradır**). Sabitlik, sülh, inkişaf enerji axınlarını özündə cəmləşdirən dəyərli kriteriyalardır. Şaxələndirmənin zəruriliyindən irəli gələrək sabitliyin müəyyən şərti başlanğıcından müəyyən inkişaf və sülh vəziyyətləri yaranır. İnkişaf və sülh sabitliyi qeyri-müəyyənlikdən müəyyənliyə çevirir. Sabitlik digər kriteriyalar (məsələn, onlara "budaqlar" demək olar) üçün "kök" rolunu oynayır. **(Qeyd: radikal formalı qeyri-sabit vəziyyət ümumən iqtisadi və sosial, eləcə də siyasi sistemin qeyri-tarazlığını meydana gətirir. Radikal (burada kəmiyyəti çox olan) qeyri-tarazlıq enerjinin mübadilə proseslərini korlayır. Bu anda enerji prosesləri üçün lazımi hərəkətlər**

**yerinə yetirilmir. Qeyri-sabit şəraitdə cəmiyyətin sosial tələblərinə cavab verən siyasi sistemlər öz lazımi, zəruri kəmiyyətini və keyfiyyətini itirir. Ümumiyyətlə, lazımi kəmiyyət sistemin lazımi tərkibini formalaşdırır. Qeyri-sabit vəziyyətlərdə nəzarət üçün lazımi resurslar çatışmır. Məkan üzrə artan bir neçə elementin təminatı məqsədilə digər elementlərin çatışmazlığı meydana gəlir. Resurslar tələbata cavab vermir. Elementlərin zənginliyi sistemin təkmilləşməsinə səbəb olur).** Elementlərin tarazlı qaydada axın kütləsi inkişafı şərtləndirir. İnkişaf və sülh də eyni (oxşar) funksiyanı yerinə yetirir. Bir xəttin içərisində sülh və inkişaf bir-birini şərtləndirici rolunu oynayır. Sülhün də başlanğıcından və davamediciliyindən sabitlik və inkişaf meydana gəlir və inkişafın dinamik xətti "qalınlaşır" və "uzanır".

Ədalətli inkişaf tarazlı inkişafdan (hər bir tərəfin öz iştirak payına müvafiq olaraq iştirakından meydana gələn inkişafdan) ortaya çıxır. **(Qeyd: *məlumdur ki, cəmiyyətdəki sosial münasibətlərdə, əlaqələrdə, cəmiyyətə və insanlar, təbiətə baxışlarda, mövqelərdə tam bərabərlik, mütləq bərabərlik ola bilməz; çünki hər kəs eyni potensiala sahib olmaq iqtidarında deyil. Təbiətlə təmasları və aldıqları və buraxdıqları enerjinin kütləsi də eyni miqdarda deyil. Bu minvalla, gedişatla, təbii quruluşla həyat yalnız rəngarənglikləri tələb edir və rəngarəngliklərdən də ibarət olur. İnkişaf müxtəlif elementlərin qarşılıqlı vəhdətindən və mübarizəsindən – məkan uğrunda həyata keçirilən mübarizədən – meydana gəlir. Bu anda inkişafın müxtəlif tərkibli əsası formalaşmış olur. O da məlumdur ki, kommunistlər cəmiyyətdə süni bərabərlik yaratmaq istəyirdilər. Bu bərabərlik ideyaları memarlıqda, şəhərsalma arxitekturasında, çoxmənzilli binalarda, obyektlərdə əks olunurdu. Ancaq öz real təsdiqini tapa bilmirdi. İnzibati bərabərlik təbii şəkildə mövcud olan uyğunluq bərabərliyini kölgədə qoymağa çalışırdır. Əslində isə uyğunluq üzərində formalaşan bərəbarlik tam real bərabərlik*

*hesab oluna bilər. Mütləq bərabərlikləri proseslər korlayır və sistem tutub saxlaya bilmir. Məsələn, 1960-cı ilin aprel ayının 21-də Braziliyanın mərkəzi şəhəri Rio-de-Janeyrodan yeni salınmış Braziliya (ölkənin coğrafi mərkəzinin yaxınlığında 1957-1960-cı illər arasında, ən proqressiv layihə əsasında və ən müasir memarlıq üslubunda salınmış yeni şəhər) şəhərinə köçürüldü. Şəhər həmin zaman bir planla tikilmişdi və UNESCO bu şəhəri 1986-cı ildə "bəşəriyyətin sərvəti" adlandırmışdı. Şəhər insanların arzularının gerçəkləşdiyi ideal bir mərkəz idi. Şəhər təyyarə formasında planlaşdırılıb. "Füzelyaj"ın mərkəzində məşhur memar Oskar Nimeyeranın layihəsi əsasında inşa olunmuş hakimiyyətin üç qolunun meydanı (Praca dos Tres Poderes) yerləşir. Təyyarənin "qanad" hissələrində isə yaşayış mənzilləri salınıb.[1] Braziliya şəhərinin baş memarı olmuş Oskar Nimeyer Suaris Filyu (Niemeyer Soares Filho Oscar) – 1907-2012-ci illərdə yaşayıb – ideyaca kommunist olub. Dünyada bir çox layihələrin müəllifi olan bu memar Braziliya şəhərinin salınmasında beynəlmiləlçilik stili əsasında tarixi barokko reallığı ilə[2] ideal bərəbarlik ideyasını reallaşdırmağa çalışıb və naticə etibarilə arzuların real məkanını yaradıb. Lakin sonrakı inkişaf Braziliya şəhərindəki ideal bərəbarliyi korlayıb. Şəhər kasıb və varlılar məhəlləsinə bölünüb. İnkişaf və müxtəliflik, yəni qeyri-bərabərlik bu sistemi pozurdu. Bu süni bərabərlik çox şeylərin fərqliliyində itib-batırdı. Sonda saxta bərabərlik məhv oldu.*

*İnkişaf proseslərində isə təbii bərabərlik meydana gəlir. Bu bərabərlik elə müxtəlifliklərdən ortaya çıxır. Bərabərlik tələbatın ödənilməsini əsaslandıran bir çox həyat meyar-larında özünü göstərir. Cəmiyyətdə hər kəs üçün bərabər*

---

[1] Столица Бразилии-город Бразилиа. 21.04.2010. www.ria.ru/spravka/20100421/224586380.html

[2] Биография Оскара Нимейера. www.ria.ru/spravka/20121206/913608568.html

***imkanlar şəxslərin istedad və qabiliyyətlərinə müvafiq olaraq yaradılır. Ümumiyyətlə, liberal prosesli inkişafın yaratdığı mütləq və nisbi bərabərlik reallığı əks etdirir və uzunömürlü olur).*** Ölkənin tarazlı inkişafı dövlətin və cəmiyyətin daxili və beynəlxalq müstəvidə sülh şəraitində fəaliyyətindən meydana gəlir. Sabit əlaqələr sistemi məhz inkişaf üçün elementlərin sabit qaydada istifadəsini şərtləndirir. Sabitlik zamanı elementlər sistemdə üfiqi və şaquli olaraq düzülüş və nizamlı, sistemli fəaliyyət mexanizmisinə malik olur. Sabitlik sülh üzərində yaranır, inkişafdan və tələbatların ödənilməsindən meydana gəlir, müəyyən məkanlarda mövcud olan maraqların nisbi olaraq müəyyən hədlərdə, ölçülərdə ödənilməsindən ortaya çıxır. Sülh də sabitliyi və dinamik və ardıcıl inkişafı, elementlərin artan vəziyyətini şərtləndirir. Dövlətlər arasında sülhün mövcudluğu qarşılıqlı inkişafa rəvac verir. Beynəlxalq əlaqələrin sistemli formasının rəvan məzmunu, liberal məzmunu meydana gəlir. Belə ki, hər bir dövlət üçün resurslardan faydalanmalar iqtisadiyyatın inkişafı üçün səmərəli istifadələr amilini zəruri edir. Məsələn, regionda sabitlik regionun beynəlxalq münasibətlərinin rəvan qaydada formalaşmasını ortaya çıxarır. Regionun resursları nisbi olaraq yüksək səviyyədə istifadə olunur. Regiona daxil olan və regiondan çıxan resursların da hərəkətində sabitlik və rəvan axıcılıq meydana gəlmiş olur. Eyni zamanda regionda sabitlik və sülhdən meydana gələn inteqrasiya şəraitləri bir tərəfdən inkişafı şərtləndirir, digər tərəfdən isə sülh və sabitliyin möhkəmlənməsini təmin edir. Deməli, sülh rəvan inkişafın bazasında dayanır, inkişafa arxayınlıq, rahatlıq verir və sistemli qaydada inkişaf prosesləri üçün lazım olan resursların təminatını həyata keçirir.

Hər bir istənilən şey və ona nail olmaq fikri ideyadır. İdeya nəticələri istənilən vəziyyətlər də ola bilər. Sülh, sabitlik və inkişaf istənilən, arzu olunan fikirlərdən ibarətdir. Bu baxımdan da sözügedən hər üç kriteriya ideyalardır,

ideyalardan ibarət olan konseptual anlayışlar və ifadələrdir. İdeyalar olduğundan da insanlar bu kimi vəziyyətlərin yaranmasına çalışırlar. Bu ideyalar dallarınca real addımları aparır, real addımların atılmasını zəruri edir. İdeyaların yerinə yetirilməsi, arzuların gerçəkləşməsi öz ardınca ideyaların qorunmasını tələb edir. İdeyaların tərkibini təşkil edən elementlərin qorunması zərurəti meydana gəlmiş olur. İdeyaların reallaşması kəmiyyətin və keyfiyyətin artmasına xidmət edir. İdeyalar eləcə də yerinə yetiriləsi və nəticələrə gəlinəsi reallıqlardır. Real vəziyyətlərdir, görünüşlərdir, əlamətlərdir. İdeyalar da bu baxımdan əlamətlərdir. Xəyallaş-dırılan əlamətlərdir. İdeyalar xoş olan əlamətləri özlərində cəmləşdirir. Hər üç söz anlayış olduğundan konseptual məzmuna malikdir. Hər üç ideya özündə digər tərkib ideyalarını cəmləşdirir. Hər üç anlayışın şaxələnməsində və tərkiblərinin formalaşmasında hər birindən istifadə olunur. Üç istiqamət konseptual şəxalənmiş forma olaraq vahid trayektoriyanı formalaşdırır. Sözügedən hər bir anlayış digərinin daxilində olur. Tərkib rolunu oynayır. Buna görə də qarışıq trayektoriyalar kimi əhəmiyyət kəsb edir. İçərisindən çoxlu xətlərin keçməsini özündə əks etdirən vahid naqil və naqillər şəbəkəsi rolunu oynayır. Sülh, sabitlik və inkişaf ideyaları vahid xətlərdə və paralel xətlərdə qərarlaşır. Hər üç anlayışın tətbiqi və mövcudluğu rahat, sosial baxımdan təmin olunmuş həyatın əldə edilməsinə xidmət edir. Hər üç anlayışın mövcudluğu və vəhdətdə tətbiqi və istifadəsi dövlətdə və cəmiyyətdə güclülüyü meydana gətirir. Hər üç anlayışın nəzəri əsasları norma və qaydalarda öz əksini tapır. İdeyalar bu aspketdə hüquqiləşir, hüquq normalarının tərkibini təşkil edir. Hüquq normalarına çevrildikdə isə reallıqları meydana gətirir. Bu norma və qaydalar da nizamlama prosesləri, həm də daha çox tarazlı və ədalətli nizamlama prosesləri üçün faydalı elementlər rolunu oynayır. İdeyaların fikirlərdə öz əksini tapması ideyaların etik və estetik məzmununu meydana gətirir.

Bu baxımdan da ideya düşüncələrdə və dərketmə prosesində nəzəri olur, obyekti və predmeti müəyyənləşir və fikirlərin əsaslarını formalaşdırır. İdeya özündə mütləqliyi və nisbiliyi, dəyişkənliyi meydana gətirir. Məsələn, inkişafla bağlı ideyalar inkişaf prosesinin ardıcıllığından irəli gələrək əvəzləyici olur, dəyişkən əsasları özündə cəmləşdirir.

Sabitlik, sülh və inkişaf mahiyyətdən, hərəkətlərdən irəli gələrək forma və məzmun etibarilə **hadisələr** və **proseslərdən** ibarətdir. Eləcə də nümunələr olaraq mühüm əhəmiyyət kəsb edir. Bir məkanda olan sabitlik və inkişaf model şəkilində digər məkanlara da tətbiq oluna bilir. Sabitlik və rəvan inkişaf, sülh şəraitində yaşamaq enerji olduğundan digər məkanlarda olan xaotik, yəni nizamsız vəziyyətlərə də müsbət təsir göstərə bilir. Bu baxımdan da sabitlik və inkişaf enerji mənbəyi, təsiredici faktor rolunda çıxış edir. Sabitlik öz daxilində müəyyən hədlərdə bir-birini əvəz edən inkişafı, dəyişiklikləri yaradır, yenilikləri şərtləndirir.

Hadisələr müəyyən məkanda müəyyən ölçülərdə və tutumda meydana gələn sürətli əlamətlərdir. Hadisələr obrazlanmış əlamətlərdən ibarətdir. Hər bir hadisənin öz məkanı və elementlər hərəkəti sferası mövcuddur. Dəyişmə prosesində müəyyən trayektoriya üzrə elementlər bir-birilərini əvəz edir və bu anda əlamətlərin dəyişməsi halları yaşanır. Hadisələrdə dəyişikliklər baş verir, bir forma və məzmun digərini əvəzləyir. Daxili və xarici dəyişiklik baş verir. Bu anda məkan dəyişir.

Sülh, sabitlik və inkişaf hadisələrin mahiyyətidir. Mahiyyət obrazlanan, əks olunan və dərk edilən formadır, duyğu orqanları ilə qəbul olunandır. Hər üç vəziyyət ictimai-siyasi-mədəni-iqtisadi və sosial təzahürdür. Həmçinin təzahürlərin tərkibi olmaqla onlara başlanğıclar verir. Hadislərin nəticələri bir-birini doğurur və vəziyyətləri meydana gətirir. Məsələn, sülh şəraitində inkişaf meydana gəlir. Çünki sistem dağılmır, müəyyən məkanlara sərbəst və dinc şəraitdə toplaşma

prosesləri yaşanır və müvafiq nəticələrə nail olunur. Sabit nizam yaranır. Sabit nizam isə nəticələrin əldə olunması üçün şəraitləri doğurur. Sabitliyə əsaslanan nizamlı proseslər və sabitlik şəraitində yaranan nizamlı proseslər əsasən inkişafın dinamikasını təmin edir. İnkişaf da öz növbəsində sülhü şərtləndirir. Sülh burada bir vəziyyətə çevrilir.

Sülh, sabitlik və inkişaf sabit sistemlərin (sosial, siyasi, mədəni) əsaslarında meydana gəlir. Sabit sistemlər isə müəyyən olunmuş sərhədlər çərçivəsində və sərhədlər daxilindəki məkanlar arasında və məkanlar daxilində mövcud olur. Bu, o deməkdir ki, regionda və regionlar arasında, dövlətlər arasında olan sabit inkişaf, sülh və dinamik əlaqələr əsasən dövlətlərin daxilində olan sabitlikdən və inkişaf sistemlərindən və sabit mexanizmlərdən çox asılıdır. Hər üç vəziyyətin meydana gəlməsi isə mövcud resursların səmərəli istifadəsindən və məkana yeni resursların daxil edilməsindən asıldır. Deməli, resurslardan faydalı istifadə əslində nəticələr etibarilə sülhü, sabitliyi və inkişafı zəruri edir.

Hadisələr yaxın və uzaq məkanlarda, yəni ayrı-ayrı (nisbətən yaxın – yanaşı və uzaq) məkanlarda baş verən aktlardır. Bu aktlar müxtəlif məkanlarda və zamanlarda müxtəlif kəmiyyətlər tərkibində həyata keçirilir. Bir hadisə kəmiyyətcə tamamilə bir-biri ilə eynilik təşkil etmir. Hər şeydən öncə məkan fərqləri mövcud olmuş olur. Proseslər və hadisələr yollardan, istiqamətlərdən ibarətdir. Proseslərin və hadisələrin yollarının və istiqamətlərinin cəmləşməsi təbii ki, sistemliliyi meydana gətirir. Deməli, hadisələr və proseslər cəmi məhz sistemlilikdən və nizamlamadan ibarətdir. Burada ideyalar və onların yerinə yetirilməsi də sistemliliyi zəruri edir. Nizamlama da müəyyən məsafələrdə, məkanlarda və məqamlarda hadisələrin baş verməsinin kəmiyyətidir. Hadisələr tərkibinin nizamlı əsasları məhz nizamlı sistemləri formalaşdırır.

İdeal yollar daha çox zövqlülüyü, əlçatmaz arzuları və istəkləri özündə cəmləşdirir. İdeal yollar istənilləndir, gələcək təminata doğru imkanları qabaqlayır. Bu baxımdan da az dərəcədə reallaşandır. İdeal yollar daha çox nəzəridir. İdeal yollar təxəyyüllərdə, fikirlərdə, düşüncələrdə kəmiyyət etibarilə real (əməli, praktik) yolları üstələyir və əksər hallarda qabaqlayır. Fikir burada əməldən öndə dayanır. Bu baxımdan da idealizm daha çox estetikliyi zəruri edir. Praktiki əməllər isə real potensiala söykənir. Bu nöqteyi-nəzərdən də **real-idealizm (indiki zamanın mütləq reallığı)** meydana gəlmiş olur. Mövcudluq **ideallıq üzərində idealizmin (gələcək reallıqlar və onların əks etdirəcəyi ideallıqlar)** yaranmasına səbəb ola bilir. İdeyalar bir çox hallarda real görünüşləri qabaqlamış olur. Bu baxımdan da ideyalar daha çox sürətə malik olur. Sürətin çoxluğu ideyaların tərkib baxımından (kəmiyyət etibarilə) enerjili olmalarının əsasında dayanır.

İnkişafa mane olan stereotiplər mövcuddur. Stereotiplər başlıca olaraq dinamik inkişaf prosesinin bir çox tərkib hissələri ilə ayaqlaşa bilməməkdən ibarətdir. Elementlərin radikal bərabərsizlikləri sistemdə inkişaf proseslərini, yəni müəyyən istiqamətlər üzrə sürətli axın proseslərini ləngidir. Bu şablonlar inkişaf üçün zəruri olan elementlərin qarşılıqlı hərəkət sürətinin tempini yavaşıtmaq və elementləri lazım olmayan istiqamətlərə yönəltmək funksiyasını yerinə yetirir. Stereotiplər əsasən fərqli inkişaf məkanları arasındakı vəziyyətlərdə meydana gəlir. İnkişafa qədəm qoymuş məkanın qabağını digər məkan almağa çalışır. Cəmiyyətin sabit inkişaf trayektoriyasında müəyyən tıxaclayıcı vasitələr vardır və bu vasitələr bir-birini ardıcıl qaydada əvəzləyir. Tıxaclar ya maraqlardan, əsasən kəsişən maraqlardan meydana gəlir, ya da müəyyən bir qrupun yüksələn səviyyəsi ilə digər qrupun səviyyəsi arasında ifrat dərəcədə mövcud olan fərqlərdən üzərə çıxır. Cəmiyyəti radikal rejimdə saxlayanda rejimdən çıxanlarla çıxmayanlar arasında olan fərqlər problemləri,

uyğunsuzluqları meydana gətirir. Çəkişmələr güclərin desentralizasiyasını zəruri edir. Tıxaclar bir-birinə vurulan kundələr zənciri ilə əlaqəlidir. Tıxaclar təbii olaraq insan davranışlarından, bunları şərtləndirən fərqli maraqlardan meydana gəlir. İnsan xarakteri, fərqli düşüncə səviyyəsi, maddi-mənəvi aləm vəhdətinin fərqliliyi, xalqın milli mental dəyərləri məhz cəmiyyətin sabit və dinamik inkişafının, eləcə də cəmiyyətin destrukturuzasiyasının əsasında durur. Sabitlik, dinamik inkişaf və sülh cəmiyyətin, dövlətin və dövlətin qoşulduğu beynəlxalq münasibətlərin xarakterini, dövlətin özünün beynəlxalq münasibətlərdə davranış xüsusiyyətlərini formalaşdırır.

Azərbaycan xalqının mental dəyərləri vardır və bu dəyərlər nəsillərdən-nəsillərə keçməklə tanıtım rolunu oynayır. Hər bir xalqın inkişafında onun mental dəyərləri mühüm rol oynayır, belə ki, resurslardan istifadə zamanı fərdi və milli xarakter istifadəedici təsirə malik olur. Xalqın şüur səviyyəsinin aşağı olması onun ətraf aləmə və resurslara olan münasibətinin də əsaslarını formalaşdırmış olur.

Əsərdə ideyalar fərqli sahələri əhatə edir. Yeni ideyaların reallaşması fonunda zəruri dəyişikliklərin yaranacağı ehtimalları və qəti fikirləri, əminlikləri öz əksini tapır.

# I HİSSƏ:

## Multikulturalizm və onun əhəmiyyəti

Hər bir xalqın mədəniyyəti həm bioloji aspektlərdən, yəni insan məxluquna xas olan ümumi aspektlərdən, həm də coğrafi-landşaft və digər təbitə aspektlərindən formalaşır. Bu prinsip etibarilə xalqların universal mədəniyyətləri meydana gəlir. Mədəniyyət universal olur, universal dəyərləri özündə cəmləşdirir, ona görə ki, orada insani keyfiyyətlərə xas olan vərdişlər, adətlər, məşğuliyyət öz əksini tapır. Universallıq oxşarlıqlardan və müəyyən məkanda olan cəmləşmələrdən yaranır. Mədəniyyət həm də məxsusi olur, ona görə ki, insanlar ayrı-ayrı regionlarda yaşayırlar və fərqli dillərə malikdirlər, fərqli və vəhdətin tərkib hissəsi olan tarixi həyat yaşayıblar. Fərqli məkan fərqli həyat tərzini yaradır ki, bu fərqlilik də normaların fərqliliyini zəruri edir. Bu baxımdan da dünya xalqlarının cəm halda mədəni bütövlüyü rəngarənglikdən ibarət olur.

Mədəniyyət özündə dil, din, adət-ənənə, musiqi, ədəbiyyat, sənət vərdişləri, əxlaqi dəyərlər, ümumiyyətlə, yaradıcılığı və quruculuğu əks etdirən və davranış normalarını, əxlaqi dəyərləri özündə ehtiva edən mənəvi dəyərləri cəmləşdirməklə, norma olmaqla hər bir xalqın etnik, milli, sivil, ictimai və siyasi inkişaf tarixinin göstəricisidir. Mədəniyyət xalqın ətraf mühitlə bağlayıcı normasıdır. Bu bağlayıcılığın xassələri elə mədəniyyətin tərkibini yaradır. Mədəniyyət normaları nəsillərdən-nəsillərə keçir. Mədəniyyət xalqın həyat tərzinin nə dərəcədə olmasını və tarixən sürdüyü həyat tərzinin əsaslarını sübuta yetirən kriteriyaların, elementlərin vəhdətidir. Mədəniyyət tarixin tərkibidir, eyni zamanda tarixdə meydana gələn normalardan ibarətdir. Mədəniyyət insan maraqlarını mənalı edən, insanın mənəvi dünyasını onun maddi dünyasına bağlayan və insan duyğularını nəcibləşdirən mənəvi nemətlərin

məcmusundan ibarətdir. Mədəniyyət özündə əxlaqi dəyərləri, eləcə də insan arzu və istəklərini, ümumilikdə isə insan xarakterini ehtiva edən bir dəyərdir. Mədəniyyət mənəvi norma olmaqla insanlar arasında münasibətlərdə və əlaqələrdə əxlaqi dəyərlərin formalaşmasını zəruri edən bir kriteriya rolunu oynayır. Mədəniyyət xalqın mental dəyərlərinin identifikasiya nümunəsidir. Mədəniyyət insanın şüurlu fəaliyyətinin həmin fəaliyyətin nəticəsi ilə çulğaşmasını yaradan və normalardan ibarət olan bir müstəvidir. Mədəniyyət həmçinin xalqın milli intellektual səviyyəsi ilə bağlı olan ümumi və universal, həm də mənəvi-məxsusi kriteriyadır. Mədəniyyətin reallaşması, özünütəsdiq və əksolunma səviyyəsi, normaların vərdişlərdə, adətlərdə əksini tapması xalqın və ayrı-ayrı şəxslərin şüur və münasibətlər, əlaqələr göstəricisidir. Məsələn, ailədə ər və arvad arasında olan əlaqələr bir mədəniyyətdir və davranışın əsasıdır. Mədəniyyət sosial davranışların (şəxsin ətraf mühitlə kollektiv münasibətlərə və əlaqələrə daxil olması sosial davranış modelini və strukturunu meydana gətirir) və cəmiyyətin sosial əxlaqının əsaslarını özndə daşıyan vasitədir.

Mədəniyyət, digər tərəfdən xalqın iqtisadi-ticari və texniki tərəqqi tarixini də əks etdirən etalondur, dəyərdir və normadır. Mədəniyyət nümunələri xalqın yaşadığı ictimai-siyasi proseslərin məğzini əks etdirir. Mədəniyyət nümunələri xalqların yaşamış olduqları tarixi mühitin əsaslarını meydana gətirmiş olur, buradan da tarixi bağlılığın əsas meyarları üzərə çıxır. Mədəniyyət xalqın mənşəyinin coğrafi amil ilə vəhdətini əks etdirən bir nümunədir. Mədəniyyət hər bir xalqın mənsubiyyətinin identifikasiyasını təmin edən əsas vasitədir ki, burada etno-milli kimliyin bütün göstəriciləri və elementləri qabarıq şəkildə öz əksini tapır. Mədəniyyət xalqın nümayəndələri arasında münasibətlərin və əlaqələrin məğzini, tərzini ifadə edir. Xalqın milli təfəkkürünün təbiətlə təmaslarını tarixi aspektlərdə sübuta yetirmiş olur. Bununla yanaşı, xalqın regionda digər xalqlarla olan əlaqələrinin və münasibətlərinin

əsaslarını təşkil edir. Mədəniyyət bu nöqteyi-nəzərdən xalqın kimliyini aşkarlayan, onu büruzə etdirən bir dəyərdir və xalqın özü ilə birlikdə mənəvi həyatının tərkibini təşkil edir. Xalq mənəvi kriteriyaları və bu kriteriyaların maddi aləmlə vəhdətindən öz mədəniyyətini meydana gətirir. Mədəniyyət inancları, təbiətə olan baxışları, ilahi qüvvəyə olan inamı özündə ehtiva edir və xalqın yaradıcılığında, bu baxımdan ədəbiyyatında, musiqisində, incəsənətində, dövlətçilik tarixində, ictimai-siyasi həyatının yaradıcılıq nümunələrində və s. kimi vasitələrdə özünü təsdiq etmiş olur. Ümumiyyətlə, mədəniyyət xalqın tarixini trayektorik əsaslarla cızan bir xətt rolunu oynayır. Ayrıca olaraq həm də mədəniyyət tarixi meydana gəlmiş olur. Mədəniyyət hadisələrdən ibarət olan bütövdür və öz tarixini zamana uyğun şəkildə formalaşdırır.

Tarixən xalqlar arasında mədəni bağlılıq mövcud olmuşdur. Mədəniyyət elementlərinin transferi yaşanmışdır və bu gün də bu tendensiyaların mövcudluğu davam etməkdədir. Xalq milli kimliyini öz mədəni xüsusiyyətləri vasitəsilə zamandan-zamana ötürür. Xalqın bir növ mədəni genetikası formalaşır və irsi davranışların əsasında dayanır. Genetika mədəniyyət normalarının əsas xassələrini elə nəsillərdən-nəsillərə ötürür. Mədəniyyəti təşkil edən normalar, qaydalar şəkilində icra olunan adətlər və ənənələr tarixən regionlarda xalqlar arasında yayılmışdır. Coğrafi regionlarda mədəniyyət arealları formalaşmışdır. Bu nöqteyi-nəzərdən də eyni regionda, yaxın regionlarda yaşayan xalqların həyat vərdişlərinə təsir edən universal vasitələr (burada oxşar və universal mədəniyyət vasitələri) formalaşmışdır və universal vasitələr də oxşar vərdişləri və həyata oxşar baxışları meydana gətirmişdir. Xalqlar mədəni göstəricilərinin regionlardan-regionlara yayılmasını təmin etmişlər. Bu baxımdan da çoxçalarlı elementlərdən ibarət **regional mədəniyyət (xalqların sintez olunmuş mədəniyyəti)** formalaşmışdır. Regional mədəniyyət region xalqlarının cəmiyyətləri arasında harmonik bağlılığın

(burada çoxtərkibli vahid strukturdan söhbət gedir) təşəkkül tapmasına səbəb olmuşdur. Məsələn, Qafqaz mədəniyyəti Qafqaz xalqlarının etno-mədəni bütövlüyünü təcəsüm etdirir. Afromədəniyyət Afrika qitəsi xalqlarının sosial davranış bütövlüyünü yaradır. Məkanlar arasında keçidlər də mövcud olur. Məsələn, Avro-Asiya mədəniyyəti, Afroasiya mədəniyyəti, Afro-Amerika mədəniyyəti və s. kimi qitələrarası mədəniyyət də mövcuddur.

O da məlumdur ki, xalqların mütəşəkkil inkişaf tarixində çoxmədəniyyətlilik, çoxmillətlilik və etnoçalarlılıq mühüm rol oynamışdır. Mədəniyyətlərin qarışması və qovuşması xalqların imperiya tarixlərini yaratmış və geomədəni arenaları, arealları (məsələn, slavyan mədəniyyəti arealı, türk xalqları mədəniyyəti arealı) meydana gətirmişdir. Böyük xalqlar (məsələn, ruslar, tarixdə romalılar) öz imperiya siyasətlərində mədəni "işğal" amilindən də istifadə etmişlər və digər xalqların dillərinə, əlifbalarına, adlarına, soyadlarına, ədəbiyyatlarına, musiqilərinə, adət-ənənələrinə təsirlər etmişlər. Burada mədəniyyətin zorla yayılması prinsipləri (məsələn, assimilyasiya və yad mədəniyyətə adaptasiya) formalaşmışdır. Mədəniyyətlərin yumşaq formada və iradələrə uyğun şəkildə yayılması isə mülayim əsaslı qovuşmanı meydana gətirmişdir. Burada artıq assimilyasiya əvəzinə mədəni inteqrasiya xüsusi əhəmiyyət kəsb etmişdir. Məsələn, Azərbaycan öz mədəniyyətini Avropya inetqrasiya etdirməkdə maraqlıdır və mədəni zənginliyi xalqlararası mədəni bağlılıqda axtarır. Avropa mədəniyyəti ilə inteqrasiya milli maraqların tərkibini təşkil edir. Mədəniyyət xalqların qəlblərini də bir-birilərinə yaxınlaşdırmışdır. Mədəniyyət amili strateji məsələlərdə (məsələn, Avropa mədəniyyəti region dövlətlərinin əksəriyyətinin vahid və oxşar mövqedən çıxış etmələrini şərtləndirir, eləcə də də slavyan mədəniyyətində yer alan Belorus Rusiya ilə, Azərbaycan Türkiyə ilə, Böyük Britaniya ABŞ, Kanada və Avstraliya ilə oxşar strateji mövqe nümayiş etdirir) oxşar mövqe nümayiş

etdirmək kimi halları da yaratmışdır. Burada yayılma prosesləri məkanın mədəni baxımdan qida ilə təminatında böyük rol oynamışdır. Xüsusilə, aralıq coğrafi-mədəni məkanlarda mədəniyyətlərin qovuşması və bu prosesdən yaranan etno-çalarlılıq bir tərəfdən məkana, cəmiyyətlərə zəngin çalar qatmış, digər tərəfdən də dövlətlərin bütövləşməsinə, cəmiyyətlərin mədəni baxımdan vəhdətləşməsinə xidmət etmişdir. Multikulturalizm (çoxçalarlı mədəniyyəti olan ölkə zəngindir. Belə ölkənin cəmiyyətində boşluqlar az ola bilir; çünki xalqlar kənardan enerji alırlar və ötürürlər, daxillərini zəngin edirlər. Məsələn, opera musiqisinin təsiri ilə azərbaycan xalqının nümayəndələrinin bir çox mənəvi-ruhlanma qazanırlar) xalqların sivil bütövlüyünün bazasında dayanmış və dövlətlərin və cəmiyyətlərin rəngarəngli əsaslarla möhkəmlənməsinə və bu nöqteyi-nəzərdən də sabitləşməsinə xidmət etmişdir. Rəngarənglik dözümlülüyü və qəbuledilənlilik kimi xassələri formalaşdırır. Bu da tərəflərdə "həzm" proseslərini meydana gətirir. Obrazların həzm olunması prosesləri baş verir. Bu gün də qarışıq mədəniyyətləri olan cəmiyyətlər dövlətlərini monoetniklik bazasında yox, çoxetniklik bazasına malik olan **vahid vətəndaşlıq** (məsələn, ABŞ, Kanada kimi ölkələrdə dövlətin əsas diqqəti vətəndaşa yönəlir) nümunəsində formalaşdırırlar. Bu amil də müxtəlif mədəniyyətə malik olan xalqların istedadlı nümayəndələrinin yaşayış məkanları, ölkələr və şəhərlər üzrə sabit və rəvan şəkildə yerdəyişmələrinə səbəb olur ki, mütəxəssislərin cəmləşməsi sayəsində dövlətlər daha da tez inkişaf edirlər. Multikultural cəmiyyətlərdə rəvan inkişaf halları yaşanır və dövlətin beynəlxalq aləmdə təhlükəsizliyi yüksək səviyyədə təmin oluna bilir. Çoxmədəniyyətli mərkəzə çevrilmə mədəniyyətlərin qarşılıqlı şəkildə qovuşmasına və hər bir mədəniyyət tərəfində islah olunmasına səbəb olur. Mədəniyyətlərin qarışması zamanı xalqların nümayəndələri müsbət dəyərləri, üstün cəhətləri qəbul etməklə əksər hallarda öz mədəniyyət stereotiplərindən azad olurlar və islah olunurlar.

Çoxmədəniyyətlilik həm də dövlətlər ətrafında möhkəm əsaslı sərhədləri, sanki, arxayın sərhədləri (təhlükəsiz sədləri) meydana gətirir. Xalqların qarışması nəticə etibarilə dövlətlər arasında məcburi barışıqları yaradır və qarşılıqlı güzəştləri meydana gətirir. Böyük dövlətlərin xalqlarının kiçik dövlətlərdə məskunlaşmaları həmin dövlətlərin təhlükəsizliklərinin təmin olunmasına şərait yaradır. Lakin təhlükələr də ola bilir və dövlətlərdaxili etnik münaqişələrin yaranmasına zəmin hazırlanır. Məsələn, 2014-cü ildə Ukraynada yaşanan siyasi böhran və vətəndaş müharibəsi bunu sübut edir. Ancaq sivil münasibətlərdə və əlaqələrdə olan regionlarda bu hallar yaşanmır, əksinə, qarışma prosesi gedir və bu baxımdan da dövlətlərin siyasətinin baza xəttini **insanlar** (milliyətindən asılı olmayaraq insan və onun hüquqlarının təmin olunması) təşkil edirlər. İnsanlar və onların hüquqlarının dövlətdə və cəmiyyətdə yüksələn xətlə təmin olunması dövlətin siyasətinin baza istiqamətinə çevrilir. Qarışma proseslərində müasir zamanın sülh miqrasiyası da böyük rol oynayır. Dünyada informasiya bolluğu **sülh miqrasiyasının (sabit və inkişaf etmiş ölkələrə insanların axını və bundan yaranan qitələrarası sülh vəziyyətlərinin)** artan tempini yaradır.

Çoxlarımıza məlumdur ki, o dövlətlər daha çox güclü və möhkəm olurlar ki, onlarda millətlər etnoçalarlılıq əsasında formalaşmış olur. Siyasi və ictimai təşkilatlanma özü ilə mədəni elementlərin birləşməsini əks etdirmişdir. O da aydındır ki, monoetnik dövlətlərdə yaşayan xalqlar digərinə qarşı ifrat eqoizmi nümayiş etdirir, çünki o xalq daha çox "mənlik, mənəmlik" şüuruna qapanır və özünü öz məkanında ali hesab edir. Həmin cəmiyyətlərdə tolerantlığın, sərhədlərdən digər mədəniyyətlərin yaxın buraxılmaması halları yaşanır. Monoetnik xalqın özünüdərki heç də fəlsəfi məzmun kəsb edə bilmir və mədəni təcridlilik cəmiyyətin kövrəkliyinə, təhlükəsizliyinə səbəb olur. Bu kövrəklik daxilə qapanmadan və bərklikdən meydana gəlir. Monoetnikliyin ifrat eqoizmi

işğalçılığa gətirib çıxara bilir. Çoxmədəniyyətlilik müsbət bir hadisə və fenomen olmaqla, həmçinin özündə mürəkkəbliyi (burada zənginliyi) əks etdirməklə, mədəniyyəti və inkişafı təmin edən çoxlu sayda pozitiv dəyərləri formalaşdırır. Zənginlik bol siqnalların formalaşmasına səbəb olur. O cəmiyyətlər sürətlə tərəqqi dövrünə qədəm qoyur ki, həmin cəmiyyətlərdə mədəni aspektlərdə qarışma və qovuşma yaşanır. Məsələn, Azərbaycana son onilikdə müxtəlif xalqların nümayəndələrinin axın etməsi ölkənin imkanlarını artırmaqla yanaşı, regiondakı beynəlxalq təhlükəsizliyini də yaratmışdır. Köç sayəsində xalqlar özləri ilə birlikdə öz adət-ənənələrini, etnoistedadlarını, bilik və bacarıqlarını mübadilə etmiş olurlar. Bu mübadilə sayəsində bir tərəfdən zənginlik, digər tərəfdən isə yumşaq möhkəmlik yaşanır. Məsələn, XIX əsrdə yahudi xalqının ABŞ-a köç etməsi bu ölkənin sürətli inkişafının təminatında mühüm rol oynamışdır. Çoxmillətli xalqlar daha çox inkişaf dövrünü yaşayır, çünki onların yaşadıqları məkanlar çoxistiqamətli pozitiv cərəyanlar mənbəyinə çevrilir. İstiqamətlərin çoxluğu elementlərin məkanda zənginləşməsini və qarşılıqlı zəngin proseslərdən ibarət olmasını təmin edir.

O da məlumdur ki, mədəniyyət insanlara xas olur. Bu baxımdan da insanlar subyektiv qaydada, həm də fərdi olaraq mədəniyyətlərin yaranmasını təmin edirlər. Ayrı-ayrı şəxslərin, istedadlı şəxslərin yaradıcılıq və quruculuq nümunələri məhz mədəniyyətin zəngin tərkiblə formalaşmasının bazasında dayanır. Məsələn, zəngin xalça nümunələri onları toxuyan şəxslərin əl və zehni əməyinin məhsulu olur. Rəssamlıq istedadı və bacarığı incəsənəti inkişaf etdirir, baza nümunələri meydana gətirir.

**Multikulturalizmin xalqlar üçün qarşılıqlı əhəmiyyətini aşağıdakı şəkildə nəzəri baxımdan ümumiləşdirmək olar:**

***-ilk növbədə mədəniyyətin tərkib elementlərini təşkil edən ünsürlərin, elementlərin qarşılıqlı keçidinin təmin olunması və pozitiv dəyərlərin mübadiləsinin həyata keçirilməsi;***

***-mədəniyyət məkanın zənginləşməsi və bunun hesabına ayrı-ayrı xalqların pozitiv dəyərlərinin vahid məkanda toplaşması, eləcə də xalqların mədəniyyət elementlərinin məkanlarının artması və bununla da mədəniyyətin dünyəviləşməsi;***

***-milli mədəniyyətin ətraf xalqların mədəniyyəti hesabına zənginləşməsi, təkmilləşməsi və daxili stereotiplərdən azad olunması;***

***-müxtəlif mədəniyyətə xas olan olan xalqların bir mərkəzə toplaşması və mərkəzləşmə sayəsində cəmiyyətin və dövlətin imkanlarının artması, güclü dövlətin formalaşması;***

***-dövlətin xarici təhlükələrdən qorunması, beynəlxalq təhdidlərin qarşısının alınması və təhdidlərin azalması, mədəniyyət təhlükəsizlik şitini yaradır;***

***-milli mədəniyyətə yeni çalarların əlavə edilməsi və beynəlmiləlləşməsi, ölkənin və xalqın beynəlxalq statusunun artması;***

***-regional mədəniyyət məkanlarının yaradılması;***

***-regional sabitliyin yaradılması və "arxayın sərhədlər" prinsipinin formalaşdırılması, o cümlədən,***

***-ölkənin təhlükəsizliyinin təmin olunması və açıq qapı rolunu oynaması;***

***-ölkələrdə "mədəniyyət sabitliyinin" (burada etnik dözümlülük nəzərdə tutulur) formalaşdırılması;***

***-ölkəyə başqa xalqlara məxsus olan mütəxəssislərin və digər nümayəndələrin axınının təmin olunması, bununla da potensialın sürətlə artması;***

***-başqa xalqların istedadlı nümayəndələrinin qabiliyyətlərinin, bilik və bacarıqlarının mənimsənilməsi;***

*-iqtisadi və siyasi inteqrasiyanın təmin olunması və mədəniyyətlərin qarışması;*

*-mədəniyyət və incəsənət obyektlərinin artması və iqtisadi gəlirlərin çoxalması;*

*-iqtisadi, elmi və texniki inteqrasiyanın güclənməsi və kapital və resurs axınlarının təmin olunması;*

*-insan şüurunun təzələnməsi və "dünyaya açıqlığın" yaranması, xalqlarda "özünüdərk" şüurunun inkişafı (burada ətraf xalqlar hesabına özünüdərk yaranır və müqayisəli mədəniyyət meydana gəlir);*

*-daima öz-özünü təmizləyən mədəniyyətin meydana gəlməsi və mühafizəkarlığın ifrat dərəcəsinin qarşısının alınması;*

*-dünyaya açıqlıq prinsipi ilə milli mədəniyyətin digər xalqların mədəniyyəti ilə sintez olunmasının təmin edilməsi və vahid mədəni inteqrasiya məkanının formalaşdırılması;*

*-mədəniyyət nümunələrinin yerdəyişmə məkanlarının böyüməsi;*

*-tolerantlığın formalaşdırılması;*

*-vicdanın saflaşdırılması – dini tolerantlıq hesabına;*

*-dini etiqad məsələlərində istehkamların ləğv olunması;*

*-milli eqoizmin ifrat formasının qarşısının alınması;*

*-intellektual potensialın artması, rasional təfəkkürün genişlənməsi;*

*-qarışma sayəsində əxlaqın saflaşdırılması, müsbət keyfiyyətlərin artması;*

*-danışıq dillərinin çoxvasitəli olması və ədəbiyyatların zənginləşdirilməsi;*

*-xalqların qarşılıqlı asılılıq və təsir prinsiplərinin formalaşdırılması;*

*-bioloji-mədəni amil olaraq müxtəlif xalqların qarışığından yeni nəsilin meydana gəlməsi və s.*

Azərbaycan tarixən çoxmillətli bir məmləkət olmuşdur. Əsrlər boyu Azərbaycanda 80-dən çox etnosun nümayəndəsi

yerli etnos olan azəri türkləri ilə yanaşı yaşayır.[3] Azərbaycan əhalisinin əsas hissəsi azərbaycanlılardan (əhalinin 90 faizi) və ölkənin müxtəlif guşələrində yaşayan 30 adda millət və etnik qruplardan ibarətdir. Onlar Azərbaycanın eynihüquqlu vətəndaşlarıdır. Onlar arasında Altay ailəsinin türk qoluna məxsus olan azərbaycanlılar, tatarlar, ahısqa türkləri, həmçinin hind-avropa (tatlar, talışlar, dağ yahudiləri, kürdlər), qafqaz (ləzgilər, avarlar, saxurlar, buduqlular, ingiloylar, qrızlar, xınalıqlar), slavyan (ruslar, malakanlar, ukraynalılar) dil qruplarının təmsilçiləri vardır.[4] Qədim Azərbaycanın siyasi və etno-milli mədəni xəritəsi çoxtayfalılığı (məsələn, Albaniya ərazisində yaşamış tayfalar) və çoxetnikliyi ilə seçilir. Ölkəmiz bu gün də özünün daxili və xarici inkişaf xüsusiyyətlərini məhz həmin siyasətin möhkəmləndirilməsində görür. Azərbaycanın yerləşdiyi coğrafi aralıq məkan, onun daxili və xarici siyasəti ilə assosiativliyi və assambleyanı meydana gətirir. Buradan da mədəniyyətlərin (azərilərin, azsaylı xalqların, etnik qrup və milli azlıqların mədəniyyətlərinin) və dinlərin harmonik sistemli birləşməsi üzə çıxmış olur. Azərbaycan həm də mədəniyyətlər üçün transməkan rolunu oynayır. Avropa mədəniyyətini öz məkanına daxil edir, Asiya mədəniyyətini isə öz milli mədəniyyəti nümunələri timsalında Avropda nümayiş etdirir. Azərbaycanın tarixən olduğu kimi, bugünkü mədəni fonu da çoxstrukturludur. Ölkədə coğrafi-mədəni məkanın xüsusiyyətləri dövlət siyasəti ilə tamamlanır və dövlət çalarlılığın qorunması və inkişafını başlıca strateji siyasi kurs kimi görür.

---

[3] Azərbaycanda yaşayan azsaylı xalqların adət və ənənələrinin təbliğində kitabxanaların rolu: metodik vəsait/tərt.ed.S.Quliyeva; itis.red. və bur.məs.K.Tahirov; red.G.Səfərəliyeva; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.-Bakı, 2012.-45.s. səh.12. www.anl.az/down/Azsayli_xalqlar.pdf
[4] Yenə orada.

Multikultural dəyərlərin qorunması, etnoçalarlığın, çox-dinli mərkəzlərin təmin edilməsi indiki zamanda hər bir dövlətin sivil funksiyası, vəzifə və öhdəliyidir. İndiki zamanda bəşəri inkişaf tendensiyaları məhz bunları tələb edir. Heç bir xalq təkbaşına, mədəni baxımdan təcrid olunmuş vəziyyətdə yaşaya bilməz. Bu hal həmin xalqın özünüdərkində deqradasiyanı (tənəzzülü) meydana gətirə bilər. Azərbaycanda multikuturalizm dövlətin daxili və beynəlxalq münasibətlərinin ana xəttini təşkil etməkdədir.

Azərbaycan xalqının mədəniyyətində, sosial davranış qaydalarında, ictimai-siyasi və məişət münasibətlərində bir çox münasibət və davranış nöqsanları da mövcuddur ki, bu nöqsanlar qüsurlar olaraq mədəniyyətin ardıcıl və dinamik inkişafına, müasir dünya mədəniyyəti ilə ayaqlaşmasına mane olur. Azərbaycanlıların bir çoxu öz təfəkkürlərindən bəzi nöqsanlı düşüncələri, eləcə də əməllərində olan zərərli vərdişləri təmizləyə bilmirlər.

## Mental dəyərlərimizin dəyərsizlikləri
### *(bəzi mənfi xüsusiyyətlərin tənqidi kontekstindən yanaşma)*

Mənəvi kimlik ünsürlərdən, kriteriyalardan meydana gəlir. Mənəvi kimliyi təşkil edən elementlər mövcuddur. Mənəvi kimlikdə əxlaq, tərbiyə, o cümlədən ətrafa, bu baxımdan bir-birilərinə olan münasibət, birtərəfli və qarşılıqlı mövqe əsas rol oynayır. Hər bir fərdin və toplumun mənəvi kimliyi onun davranışında öz əksini tapır, təcəssüm olunur. Mənəvi kimliyi davranış tərzi və onun faydalılıq səviyyəsi meydana gətirir. Mövcud olan resurslardan (burada maddi-mənəvi resurslar) istifadə qaydaları mənəvi kimliyin formalaşmasında mühüm baza rolunu oynayır. Mənəvi-əxlaqi vərdişlər cəmiyyətlərdə irsən ötürülür. Mənəvi kimliyə fərdin və mənsub olduğu xalqın şüur səviyyəsi də təsir edir. Çünki şüur səviyyəsi elementlərlə

davranışın əsaslarını meydana gətirmiş olur. Bu baxımdan rasional və qeyri-rasional cəmiyyətlər formalaşmış olur. Xalqın bir-birinə sıx bağlı olan və həssas cəmiyyətlərə, refleksiyalı və qıcıqlı cəmiyyətlərə (burada hər bir xırda məsələyə bayağı reaksiya göstərən cəmiyyətlər) xas olan ünsürləri məhz ifrat eqoizmə gətirib çıxarır. Resursların qeyri-bərabər paylanması və ədalətsizlik təbii olaraq cəmiyyətdə insanlar arasında xainliyi, xudbinliyi, ifrat paxıllığı şərtləndirir. Resurslar və onlara qarşı olan münasibət xarakteri açan, mahiyyətini aşkarlayan amillər rolunu oynayır. Xarakter resurslar üzərində realizə olunur. Xarakterin əsaslarını formalaşdıran amillər insan davranışının bazasında dayanır. Xarakter davranışa, davranış da xarakterə təsir edir. Bu baxımdan da insanlar, tərəflər arasında əlaqələr resurslara və onların istifadə qaydasına söykənir.

**Xalqın xisləti (xarakteri, təbiəti) onun genetik ötürülən qan xarakteri və davranışı ilə bağlı olur. Belə qəbul etmək olar ki, davranış üsulları xalqın bioloji xarakterinə keçə bilər və gələcək nəsillərdə özünü göstərə bilər. Bu baxımdan da çox ehtimal ki, genetik ötürücülərin bioloji fəaliyyət xüsusiyyətləri insanların xarakterindən də formalaşır. Vərdişlər bioloji xarakterə öz təsirlərini göstərir; çünki insan mənəviyyatı onun maddi dünyası ilə qarşılıqlı təsirdədir. Ailə tərbiyəsi, cəmiyyətin tərbiyəsi yaddaşlara ötürülür, şüura və əxlaqa təsir edir. Belə qəbul etmək olar ki, valideyn davranışları genetik kodlaşmada mühüm rol oynaya bilir.**

Məsumluq, paklıq saflıq idealdır. Qarışmış münasibətlər və rəngarəng cəmiyyətlərdə, əlaqələr fonunda çox zaman nümunəlikdir. Məsumluq, saflıq, paklıq və pozitiv dəyərlərin yüksək kəmiyyəti enerji olmaqla əxlaqın, mənəvi aləmin, müdrikliyin yüksək həddidir. Vicdan məsumluğun lokomotividir, həm də özüdür. Məsumluq, saflıq və paklıq sinonim ifadələrdir, sözlərdir və müəyyən mərtəbələrdən

ibarətdir. Hər üç ifadə, söz təmizliyi möhkəmləndirmək, şəffaflığı artırmaq üçündür. Təmizlik (burada nəfsin təmizlənməsi, əməllərin təmizlənməsi) insanın daxili və xarici aləmi ilə düzgün formalı və məzmunlu vəhdət yaradır. Əməli salehliyi meydana gətirir. Paklıq həm də nizamlı olmağın və xeyirxahlığın, qəlbyumşaqlığının əsasıdır. Həmçinin uzaqgörənliyin və ağlın nəticəsidir. Əsasən, müqayisədə yüksək ağıllı, geniş dərrakəli insanlar xeyirxah olurlar. Çünki düzlük belə xarakterdən ortaya çıxır. Rəhmli olmaq da geniş və dərrakəli ağlın məhsuludur. Paklıq münasibətlərdə və əlaqələrdə ən yüksək səmimiyyətin əsasıdır. Paklıq əlaqələrdə və ünsiyyətdə mücərrəd mənaya malikdir. Həm də mütləq reallıqda təcəssüm olunandır. Münasibətlərdə saflıq, paklıq arzu olunandır, istənilləndir. Eləcə də müxtəlif bucaqlardan meydana gələndir. Buna görə əslində məsumluq şərtidir və kəmiyyətini hər zaman dəyişəndir. Çünki enerji ilə bağlıdır. Kəmiyyət dəyişməsi rənagərəng müstəvidə olan hərəkətlərdən meydana gəlir. Enerji çatışmzalığı saflığın korlanmasına səbəb ola bilər. Saflıq, paklıq ədalətin, haqqın, ədəb-ərkanın, mərifət və qanacağın bazasında dayanır. Təmiz insanlar mərifətli, qanacaqlı, ədəb-ərkanlı olurlar. Ədalət təbiidir, pozitivdir və haqq olduğuna görə fövqəltəbiətdən insanlara verilən nemətdir. Ədalətlilik həm də insanların cəmiyyətdə, məişətdə rastlaşdıqları ünsürlərlə əlaqəli olaraq meydana gəlir. Paklıq daxili mənəvi aləmin müdriklik nümunəsidir. Çünki paklıq həm də əqlin inkişafından, bu baxımdan ehtiyatlı olmalardan, korlanmamaq istəklərindən meydana gəlir. Paklığın əməllərdə tətbiqi düzgün əlaqələrin mütləq və nisbi, həm də şərti formasını meydana gətirir. **(Qeyd: Allaha yaxınlaşmaq üçün tarazlığa çox tabe olmaq lazımdır. Tarazlıq isə özündə saflığı, paklığı, rəhmliliyi və digər pozitiv kriteriyaları cəmləşdirən ədalətdir. Deməli, ədaləti əldə çox rəhbər tutmaq lazımdır. Ədalətlilik, düzgünlük, xeyirxahlıq, yaxşılıq enerji ilə bağlıdır və yüksək sürətli hərəkətin, güclü**

**siqnal axınlarının əsasıdır, nəticəsidir. Nizama tabe olmaq Allahı daha yaxından duymaq deməkdir).**

Onu da nəzərə almaq lazımdır ki, bir anlayış digər uyğun anlayışlardan ibarət olan sistemi yaradır. Hər bir anlayış tərkib və bütöv olur. Məsələn, saflıq özündə ədaləti, düzgünlüyü, bərabərliyi cəmləşdirir və strukturu formalaşdırır. Ədalət də özündə safığı, bərabərliyi, düzgünlüyü harmonik olaraq uyğunlaşdırır. Burada hər bir anlayış digər üçün tərkib və bütövə çevrilir. Yaxşı insan adı altında insanların demək olar ki, bütün pozitiv cəhətləri cəmləşir.

Məlumdur ki, insan xüsusiyyətlərinin universal olaraq hər bir məqamda bir-birini dəyişən iki fərqli cəhəti (müsbətdən mənfiyə və ya da əksinə doğru dəyişən) vardır. Bu fərqli cəhətlər əslində insanın daxili enerjisinin artıb-azalma trayektoriyasında baş verən dəyişikliklərlə əlaqəlidir. Fərq kəmiyyətdən və hərəkət dəyişmələrindən yaranır. Burada məkanın yaxınlığı və uzaqlığı amili mühüm rol oynayır. Fərqli cəhətlər dəyişən enerji miqdarı (kəmiyyəti, ölçüsü) ilə əlaqədar olaraq meydana gəlir. Bir trayektoriyada kəmiyyətin azalması həmin trayektoriyada mənfiliklərin (azlıqların) meydana gəlməsinə səbəb olur. Deməli, mənfiliklər azalan enerjilərdir. Mənfi tərəflərin nisbi son həddi, mənfi xarakterin artması, kəmiyyətinin çoxalması (mənfinin kəmiyyəti çoxalanda enerji azalır, boşalma miqdarı artır) aqressivliyin artmasına səbəb olur. Çünki tarazlıq pozulur, sistemdə çatışmazlıq meydana gəlir. Mənfi xarakter münasibətlərdə və əlaqələrdə enerjisizliyin (azalan enerjinin) əsaslarını meydana gətirir. Mənfi xarakter qeyri-düzgün, həm də ədalətsiz əməllərdə özünü büruzə verir. Enerji azaldan informasiyaların qəbulu insanların daxillərində, xüsusiyyətlərində boşluqları meydana gətirir. Reaksiyalarda da mənfiliklər meydana gəlir. Bu əməllər maddi və mənəvi, psixi-ruhi ziyanlarda özünü göstərir. Xarakter cəhətləri əslində müəyyən bucaqlarda müsbətdir. Lakin ümumi prinsiplərdə isə mənfidir. Xarakterin mənfi olması fərdin özü

üçün müsbətdir. Lakin bəzi hərəkətlər, hərəkətlərin büruzə verməsi əlaqələr və təsirlər, ünsiyyət və münasibətlər fonunda digər tərəflər üçün məqbul deyil, qəbul olunan deyil. Xalqın içərisində olan mənfi xüsusiyyətli insanların çoxluğu amili bir tərəfdən genetik faktorlardan asılıdırsa, digər tərəfdən xalqın yetişməsində, formalaşmasında rol oynayan daxili və kənar faktorlardan meydana gəlir. Qüsurlu cəmiyyətlər, yetişməyən infantil cəmiyyətlər *(infantil cəmiyyətlər o cəmiyyətlərə deyilə bilər ki, forma olaraq çoxdan mövcuddur, lakin qüsurların ucbatından öz orqanizmisini, elementlərin əlaqələr müstəvisini sağlam edə bilmir. Strukturun zamanı keçmişdən olsa da tarazlı sistem üçün resursları çatışmır. Çatışmayan resurslar cəmiyyətlərin ətraf cəmiyyətlərdən təcrid olunmuş vəziyyətlərdə yaşamalarından da irəli gəlir. Resursların transferi və qəbulu prosesləri baş vermir. Sistemin sağlam fəaliyyəti üçün sistemdaxili və sistemlərarası əlaqələr və elementlər axını, enerji mübadiləsi zəif olur. Belə cəmiyyətlər zəif "immunitetli" olduğundan daxildən meydana gələn və xaricdən daxil olan "viruslardan", "infeksiyalardan" qorunmaq imkanlarına malik ola bilmirlər)* öz mənfi xüsusiyyətlərini ötürə-ötürə bir-birilərini əvəz edirlər. Müəyyən kəskin dəyişikliklər məhz cəmiyyətlərin yeniləşməsinin – elementlər transferinin və məkanlararası mübadiləsinin – bazasında dayanır. İnsanların xarakterlərinin formalaşmasına maddi tələbatların ödənilməsi və ödənilməməsi öz təsirlərini göstərir. Maddi tələbatların ödənilməməsi daxili narahatlığı yaradır və tarazlığın pozulması hallarında insanlar aqressiv olurlar. Maddi aləmin kasadlığı, maddi aləmin istifadəsində qeyri-nizamlı vəziyyətlər, ətraf sistemlərlə əlaqəli vəziyyətlərdə disharmoniyanın, yəni, uyğunsuzluğun meydana gəlməsi, qonşu sistemlərdən mənfi təsir edən ünsürlərin mövcudluğu, axını təbii ki, xalqın milli əsaslarla xüsusiyyətlərinin (total xarakterin) meydana gəlməsinə təsir edir. Xalqın yaşadığı məkanda məkan mədəniyyəti-coğrafi mədəniyyət formalaşmış olur. Cəmiyyətin enerjisiz,

qüsurlu vərdişləri və bu vərdişlər içərisində olan zərərverici amillər nəsillərdən-nəsillərə ötürülür və şablonlar şəkilində transfer olunur. Buna görə də “xəstə cəmiyyətlər” tarixi bir xalqın həyatını silsilə olaraq əks etdirir.

Hər bir xalqın dil, adət-ənənə, irq və s. atributlar baxımından göstəricisi kimi, etnik xarakteri də mövcuddur. Hansı ki, həmin göstəricilər ümumi və xüsusi qaydada elə etnik xarakterin bazasında dayanır. Etnik xarakterin formalaşmasında **“məkan qapısı”**nın rolu danılmazdır. Ticarət karvanları və ticarət yolları, karvansaralar etnik xüsusiyyət üçün xaricən ünsürlərin daxil olduğu yer hesab olunur. Bu baxımdan da ticarət yolları üzərində məskunlaşan xalqların (tayfaların) oxşar xarakterik xüsusiyyətləri mövcud olur, ticarət cəmiyyətin çox zaman xaotik nizamlanmasına öz təsirlərini göstərir. Çünki insanlar daha çox maddi aləmlər üzərində xarakterlərini formalaşdırırlar. Ticarət mənəvi tarazlığı pozur və onunla məşğul olan əksər insanların nəfsi üçün təhlükələri meydana gətirir. Bu baxımdan da maddi aləmi özündə ehtiva edən yalançılıq, fırıldaqçılıq, xainlik, ikiüzlülük, riyakarlıq kimi mənfi xüsusiyyətlər meydana gəlir. Ticarətin qeyri-xaotik forması də eyni formalı nizamı meydana gətirmiş olur. Ticarət daha çox məişət davranışlarını məkanlardan-məkanlara, xalqlardan-xalqlara ötürür.

Etnik xarakter xalqın yaşam tərzinə immanentdir. Yaşam tərzinin irsən keçməsində mühüm rol oynayır. Etnik xarakterin formalaşmasında həyat vərdişləri böyük rol oynayır. Bu etnik xarakter onun tarixindən, coğrafiyasından, regionundan, qonşuluqda hansı xalqların olmasından, digər xalqlarla qarışmasından, münasibətlər tarixindən və xalqın mədəni, iqtisadi, siyasi inteqrasiya tarixindən asılıdır. Bir xalqın digər xalqlarla əlaqələr forması *(burada imperiya dövlətlərini qurmuş böyük xalqların içərisində yaşamaq əsasları, məsələn, assimilyasiyaya məruz qalmaları, yad elementləri daha çox qəbul etmələri, qonşu xalqlarla siyasi inteqrasiya formasında*

*yaşamaq formaları, məsələn, adət-ənənələrin regionlarda, bölgələrdə xalqlar arasında "yumşaq yayım" formaları və s. nəzərdə tutulur)* xalqların etnik xüsusiyyətlərini təşkil edən elementlərin əsaslarını yaratmaqdadır. Bu baxımdan Qərbi Avropa etno-region xarakteri, Asiya etno-region xarakteri, Qafqaz və digər regionlar üzrə etno-region xarakteri formalaşmış olur. Xalqın yetişməsində (burada dərrakələrinin təkmilləşməsində), milli təfəkkürünün formalaşmasında, əməllərində, davranışında mütləq qaydada daxili və xarici elementlər mühüm rol oynayır. Şüuru oyanmış, dərrakəsi məhdud olmayan xalqın bir çox müsbət xüsusiyyətləri vardır. Onlar etnoxarakterik sistem üçün meydana gələn zərərverici ünsürləri müəyyən vasitələrlə öz daxillərindən kənarlaşdıra bilirlər. Dərrakənin aydın və açıq olması təbii ki, insanların müsbət davranışlarına və əməllərinə səbəb olur. Rasionalizm, bir çox şeylərə açıq təfəkkürlə, soyuq ağılla yanaşmaq dəyərləndirmənin əsaslarını təşkil edir.

Azərbaycan xalqının dəyərləri çoxdur. Məhz zəngin dəyərlər sayəsində bəşər tarixinə dahi şəxiyyətlər və dühalar bəxş etmişdir. Xalqın dəyərləri bizim milli mental tərkibimizin, mental bütövlüyümüzün əsaslarını təşkil edir. Vərdiş olunmuş normalar ənənəvi olaraq davam edir, nəsillərdən-nəsillərə keçir. Azərbaycan xalqı da öz pozitiv xüsusiyyətlərini irsən ötürə bilir və dahi şəxsiyyətlərin, faydalı insanların yetişməsində ənənəvi zəncirlilik qırılmır. Ardıcıl proseslər sayəsində stereotiplər meydana gəlir və bu mənfiliklər davranış normalarına, genetik yaddaşa oturur. İctimai əxlaqın, ictimai tərbiyənin pozulmasında şablonlar pozucu funksiya rolunu oynayır.

Hər bir xalqın formalaşmasında **coğrafiya amili,** hətta kainat (makrotəbiət) amili də mühüm rol oynayır. Məsələn, belə hesab etmək olar ki, landşaft, iqlim, torpaq və ondan əldə olunan məhsullar və istifadə qaydaları elə davranışların əsaslarını meydana gətirir. Bu baxımdan bol günəşli təbiətlə

günəşi az olan təbiətdə yaşayan xalqların xarakterlərində fərqlərin olması mümkündür. Təbiət insan psixikasına öz təsirlərini göstərir. Təbiət insan psixikası üçün lazımi olan enerjini verir və enerjini ondan alır. Təbiət xüsusiyyətləri davranışlarda, münasibətlərdə böyük rol oynayan inancların da formalaşmasına təsir edir. Çünki insan xarakteri siqnallarla formalaşır. Təbiətin forma və məzmunu insan şüurlarının formalaşmasında mühüm rol oynayır. Bu baxımdan da əlverişli iqlim şəraiti, gözəl təbiət insan xüsusiyyətlərinin bazasında dayanır. Çünki belə təbiətlərdə enerji bolluğu, zəngin mineral maddələr insanların bioloji xarakterlərinin zəngin əsaslarla formalaşmasında böyük rol oynayır.

Yüksək, yəni müqayisədə mədəniyyəti yüksək olan, cəmiyyətdə yaşamaq hər bir normal düşüncəli, düzgün (burada ədalətin hökm sürdüyü cəmiyyətlər nəzərdə tutulur) yollarla yaşamaq yolunu tutmaq istəyən şəxsin istək və arzusudur. Çünki belə cəmiyyətlərdə həm rəvanlıq var, həm də sabitlik və sistemli inkişaf dinamikası hökm sürür. Rahat həyat rəvan sosial sistemlərdən meydana gəlir. Rəvan və sabit davamlı inkişaf prosesləri elementlərin trayektoriyalar üzrə sistemlərdə müvafiq tələblərə cavab verə biləcək düzülüşünü meydana gətirir. Tarazlılıq rahat insan həyatının (burada sakit və rəvan vəziyyətdə davam edən insan həyatı nəzərdə tutulur) formalaşmasına öz müsbət təsirlərini göstərir. Həyat özü pozitiv elementlərlə (burada hadisələr və onların meydana gətirdikləri təzahür) zəngin olduqda yaşamaq mənası da artır və universal qaydada həmrəylik meydana gəlir. Universal həmrəylik universal dəyərlərin qorunmasına xidmət edir. Bu baxımdan da pozitiv cəhətlər cəmiyyətlərin müdafiə qabiliyyətini artırır. Müdafiə qabiliyyəti isə dinamik inkişafı şərtləndirir. Məsələn, rəngarənglik ABŞ və Kanadanın sürətlə inkişaf etmələrinə səbəb olmaqdadır. Bu ölkələrdə etnoçalarlığın zəngin olması inkişaf üçün lazımi resurs potensialını artırır.

Şablonlar irəliyə doğru addımların qarşısını almaqla bərabər, cəmiyyətdə həm də aşınmaların kəmiyyətini də artırır. Aşınmalar itkilərdir ki, bu itkilər də sistemdaxili çatışmazlıqların əsaslarını ortaya çıxarır. Çatışmazlıqlar sistemlərin kövrəkləşməsi üçün əsasları meydana gətirmiş olur, sistemlər zəifləyir və şablonlarla, "hərəkət təkərlərinə" taxılan manedici ünsürlərlə dolur.

Cəmiyyətin yüksək səviyyəsinin təmin olunması onu quran xalqın milli şüurundan çox asılıdır. Mən, Elşən Nəsibov, əsərin müəllifi kimi, həm də bir azərbaycanlı olaraq (özümü həm də bir dünya vətəndaşı hesab edirəm) həmişə öz xalqımı ucada, ali mövqelərdə görmək istəyirəm. Hesab edirəm ki, yaşadığımız cəmiyyət Şərq-Qərb mədəniyyət transferi məkanında süzgəc rolunu oynaya bilər və ən yaxşı xüsusiyyətləri özündə cəmləşdirməyə qadir ola bilər. Təbii ki, bu da daha çox istəklər və xəyallara, arzulara bağlıdır. Ancaq xəyallar və istəklərə doğru addımların yönəlməsinin özü də arzulara bu və ya da digər formada çatmaq mənasını verir. Arzulara, xəyallara doğru addımlamaq reallıqların bu və ya da digər səviyyədə üzərə çıxmasına gətirib çıxara bilər. Gözəlliyin, yaxşılığın ən son həddi, tükənən həddi yoxdur, son hədd gözəl olmayan şeylərə gətirib çıxarır. Gözəllik də firavanlıqdan və təmizlikdən ortaya çıxır.

Belə hesab edirəm ki, şablonlardan təmizlənmək üçün nəzəri fikirlərin irəli sürülməsi şablonların daha çox ifşa olunmasına gətirib çıxara bilər. Şablonlardan çıxarılan nəticələr isə onların dəf olmasına şərait yarada bilər.

Xoşbəxt cəmiyyətdə yaşamaq hər birimizin istək və arzusudur. Təbii ki, bu, əksər hallarda xəyallığa çevrilir. Xoşbəxt həyat istəkləri idealizmin əsaslarını meydana gətirir. Bəzən reallıqlarda xoşbəxt anları yaşayırıq, lakin haqsızlıqlarla rastlaşanda bu xoşbəxt həyatın anları yoxa çıxır. Buna görə də tez-tez xoşbəxtlik anları dəyişir. **(Qeyd:** *xoşbəxtlik ümumi həyat trayektoriyasında, ömür yolunda rastlaşılan pozitiv*

*məqamların məcmuəsi kimi başa düşülməlidir. Ümumi həyat vəziyyətinin tərkibidir. Xoşbəxtlik anlarının azlığı və çoxluğu – kəmiyyəti mövcuddur. Xoşbəxtlik mənəvi-mücərrəd anlayışdır, burada həm maddiyyat, həm də mənəviyyat rol oynayır. Mənəviyyata toxunan, onu zərərli etməyə yönələn maddi və mənəvi amillər xoşbəxtliyi pozur*). Sistemli və rasional, maarifpərvər, sülhü və sabitliyi sevər, elmə, təhsilə, sistemli həyata yüksək dəyər verən və öz həyatını bu istiqamətdə quran xalqın nümayəndəsi olmaq istəyirəm. Məqsədim mədəniyyətin yüksək olduğu, mərifətin (elmin, maarifçiliyin, intellektuallığın) müqayisədə yüksək olduğu cəmiyyətdə yaşamaqdan ibarətdir. Bu baxımdan da hesab edirəm ki, özüm də qarışıq, çoxlarımızın qüsurlu baxışları, həyata münasibətləri, əlaqələri və bunlardan meydana gələn mənfi davranışları, ucalığa, aliliyə zərbə vuran fəaliyyəti mövcuddur. Cəmiyyətin, insan həyatının rəvan inkişafına kundələr vuran həmin qüsurların qismən də olsa aradan qaldırılması üçün hər bir şəxs öz vicdanı və imkanları daxilində çalışmalıdır. Həyat tərzində, həyat müstəvisində mövcud olan çoxlu sayda mənfi xüsusiyyətlər də xalqımızın mədəni-etno-sosial şablonlarıdır. Təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, cəmiyyətimizdə riyakarlıq əksəriyyət insanların **"əsas pasportudur, tanıtım kimliyidir".** Maddi problemlərin çoxluğu insanın şəxsiyyətli davranışının mühərriki olan mənəvi tərkiblərin dəyişməsinə, azalmasına və kasadlaşmasına səbəb olur. Olduqca çoxlu sayda qüsurlarımız, yüksək mədəni tələblərə cavab vermədiyimiz kriteriyalar vardır və bu cəhətləri nəsillərdən-nəsillərə ötürürük. Təbii ki, biz azərbaycanlılar da dünyada yaşayan digər insanlar toplumunun tərkibiyik. Hər bir insana xas olan xarakterik cəhətlər bizdə də toplaşıbdır. İnsanların universal müsbət və mənfi xüsusiyyətlərini öz üzərimizdə gəzdirirk və təbii bir tərkibə çeviririk. Müsbət və mənfi xüsusiyyətlərin dildə ifadəsini meydana gətiririk.

Biz kimik deyəndə, – daha çox mental dəyərlərimiz, xüsusiyyətlərimiz nəzərə alınmalıdır, – düşüncəsini başa düşməliyik. Özünüdərk fəlsəfəsi tarixə, məkana, regiona və mədəniyyətə sıx bağlıdır. Özünüdərkin tərkibi olaraq özümüzü narahat edən problemlərin aşkarlanması ilə məşğul ola bilərik və düşünə bilərik ki, saflıq, paklıq, təmizlik kimi insanı kriteriyaları korlayan hansı xüsusiyyətlərimiz vardır. Qeyd olunduğu kimi, təmizlik və paklıq kriteriyaları mənəviyyatın əsaslarını təşkil edir. Bu baxımdan da öz-özümüzə qarşı belə bir sual meydana gəlir: – mənəviyyatımızı korlayan, müsbət keyfiyyətlərimizə kölgələr salan hansı xüsusiyyətləri özümüzdə cəmləşdiririk. Təbii ki, insan öz xüsusiyyətlərini bioloji genetik amillərlə yanaşı, cəmiyyətin davranış normalarından götürür. Haqsızlıqlarla dolu olan cəmiyyətdə (maddi aləmin yaratdığı yarışmalardan meydana gələn haqsızlıqlar) özünə yer tapa bilməmək insanların bəzi müsbət xüsusiyyətlərini əllərindən alır və ən aşağı səviyyəli əməllərə əl atmağa sövq edir. Korlanmış cəmiyyətlər müdriklik üçün ziddiyyətləri meydana gətirir. İnsanlarn müsbət keyfiyyət panelini, müstəvisini mənfi kriteriyalar zənginləşdirir. Əslində isə düzgünlükləri korlayan yeni "düzgünlüklər"lə sistem dolur. Yəni, əyilmələr hesabına enerji azalır. Bu baxımdan da orta tələbat mütləq lazımdır ki, insanlar kasıbçılıqdan öz saflıq və mənəviyyatlarının digər ünsürlərini qoruya bilsinlər. Kasıb cəmiyyətlərdə bütün yalan hərəkətlər, neqativ hərəkətlər onları edənlər tərəfindən haqq olaraq qəbul olunur. Onu da qəbul etmək lazımdır ki, heç kəs bu keşməkeşli həyat axarında öz mənəviyyatını tam şəkildə sabit olaraq yüksəkdə saxlaya bilmir. Həyat yolunda olan maneələr insanların xarakter dəyişmələrinə, əməllərini dəyişmələrinə gətirib çıxarır.

Xüsusiyyətlər milli kimliyimizin əsaslarını formalaşdırır. Bir də nöqsanlarımızı, xarakterik qüsurlarımızı dilimizlə ifadə etməyimiz məhz müəyyən qədər mənfiliklərdən azad olmağımıza, islah olunmağımıza səbəb ola bilər. Mənfilik

insan təbiətində olduğundan hər bir insanda və onu təmsil edən xalqda var. Xalqın mənfi xüsusiyyətləri (xalqın xisləti, yəni sifəti, siması, təbiəti) onun üzvlərinin mənfi xüsusiyyətlərindən, mənfi xislətindən meydana gəlir.

Xüsusiyyətlərimizə belə bir şərti dəyər verməkdən (burada qiymətləndirmədən) çıxış etməyə çalışacam və əksəriyyətimizə xas olan keyfiyyətlərin nə dərəcədə düzgün olduğunu öz nəzərimdə şərti olaraq ifadə edəcəm. Onu da nəzərə almaq lazımdır ki, mənfi xüsusiyyətləri ifşa etmək və onunla barışmamaq hər bir şəxsin daxili insanı və milli, eləcə də vətəndaş, həmçinin bəşəri borcudur. Bu baxımdan hər bir şəxsin çiynində etnik, mədəni, siyasi və ictimai bir məsuliyyət dayanır. Vətəndaş borcu, insanlıq borcu nöqsanları aşkar etməkdən ibarətdir. Çünki insanlar sosial məxluqlardır. Eyni zamanda nöqsanların aradan qalxmasına şərait yaratmağə və buna çalışmağı əhatə edir.

**Biz kimik, nə dərəcədə mənfi keyfiyyətlərə malikik. Yüksək insani keyfiyyətlərin qarşısını alan hansı aşağılayıcı xüsusiyyətlərimiz vardır:**

İlk növbədə başlayaq daha çox öyündüyümüz **qonaqpərvərlik** xüsusiyyətlərimizin əsaslarından:

***Mənfiliklərin tənqidi aspektindən şərh etmək:***

**-Əslində çox da qonaqpərvər deyilik (yalnız qeyri-səmimi olanlara aiddir) –** qonaqpərvərliyimiz ya özümüzü başqalarına göstərməkdən, var-dövlətimizi nümayiş etdirməkdən (gələn qonaqlara və ətrafdakılara, yaxın və ya da uzaq qohumlara) ibarət olur, ya da adət-ənənələrə sıxılıb məcburən qonaqları qəbul edirik, üzlərə heç nə deyə bilmirik, əksər hallarda narazılığımız daxilimizdə boğularaq sıxılıb qalır.

Qonaq qarşılamağımızı çox zaman ürəyimiz istəmir, lakin abır-həyanı gözləməyə çalışırıq və məcburən qarşılamanı tətbiq edirik. Qonaqpərvərliyimiz mədəniyyətə, mənəviyyata yox, əksər hallarda maddiyyatımıza və özümüzün nümayişinə xidmət edir. Qeyd olunduğu kimi, qonaqlıq əksər hallarda ürəkdən olmur. Çox zaman paxıllıq hisslərindən, başqasına “yanıqlar vermək üçün” də qonaqlıqlar da təşkil edirik. Paxıllıq cılızlıq, zəiflik əlamətidir, deməli, biz daha çox “**cılız qonaqlığı”** həyata keçiririk. Çox zaman dilimizdə, - qonaq gələrsən-, deyirik, əslində, isə ürəyimiz istəmir. Buradan da qpnaqlıq məsələsində riyakarlığımız, yalançılığımız üzərə çıxır. Qonaqlığımız həm də varlı və vəzifəli şəxslərin evlərə, restoranlara (qonaq) çağrılmasından ibarət olur ki, onun hörmətini qazanaq və ondan istifadə edək. Buradan da qonaqpərvərliyimizin **yaltaqlığımız** üzərində, maddi aləmə xidmət niyyəti üzərində qurulduğunun şahidi oluruq. Deməli, daha çox maddi maraqlara, korporativ mənafeyə söykənən qonaqpərvərliyimiz vardır. Həm də qonağa qarşı çox da səmimi olmuruq. Zaman keçdikcə evimizdəki qonaqlara nifrətimizi artırırıq. Hörmətdən düşmüş hesab edirik. Narazlıqlar başlayır. Qonağın tez yola salınma mərasimini gözləyirik. Getdikdən sonra isə yaxşı qiybətlər qırırıq, qonağın arxasınca deyinirk. Narazılıqlardan ehtiyat edən qonaqlar da yola salınma mərasimini ürəkdən və səbirsizliklə gözləyirlər. Evi tərk edən qonaqlar da bir addımdan sonra olduqları evləri daha çox pisləməyə başlayırlar. Onlara “ürəkdən” və ya da “ürəksiz” qonaqlıq verənlərin əməlləri, yaxşılıqları pislənilir. Deməli, çoxlarımız yaxşılıq bilən deyil, yaxşılıqlar hər zaman enerji çatışmazlığı ucbatından pislənilə bilir. Əksər hallarda məlumatsız, qəfil gedən qonaq da getdiyi ünvanın imkanlarını və şəraitini nəzərə almır. Qonaq gedib narahat etməyə və həmin ünvanda arzu olunmayan şəxsə çevrilməyə başlayır. Bu baxımdan da **“üzlü qonaqlar”** ifadəsi geniş yayılır. Deməli, qonaqpərvərliyimiz əslində münasibətlərimizin daha çox

ucuzlaşmasına, qeyri-səmimiliyə çevrilməyə gətirib çıxarır. Bu baxımdan da biz müsbət mənada qonaqpərvər deyilik, qonaq gedə və qonağı qarşılaya bilmirik. Kor-koranə adətləri yerinə yetiririk. Bu baxımdan da münasibətlərin qurulmasında çoxlarımız zaman, məkan, şərait və imkanlar amilini dəyərləndirə bilmir.

**-Nümayişkarcasına həyat tərzi sürən nümayəndələrimiz çoxdur –** büsat (toy, nişan və digər) məclislərimiz, eləcə də yas mərasimlərimiz büna əyani sübutdur. Yaxşı süfrələr açmaq uğrunda yarışırıq. Az tərkibli nemətə, təamlara malik olan süfrələrdə özümüzü təhqir olunmuş hesab edirik. Digər tərəfdən kasıbçılığın "gizləndiyi" dəbdəbələrə malikik. Borclu həyat sürə-sürə bahalı avtomobilləri əldə etməyi sevirik. Benzinləri (digər yanacaqları) borcla alsaq da, əsas məsələ görünüş üçün bahalı avtomobillərdə otrurmaqdan ibarət olur. Bir çox qadınlar geyimlərlə və zinət əşyaları ilə öyünürlər, bayağı nümayişə üstünlük verirlər. Arabeskalar əksər xanımların özünü nümayiş etdirmək vasitələrinə çevrilir

**-"Yaxın" qohumluğa malikik –** burada yaxın qohumluq dedikdə, qohumlararası yaxın münasibətlərin vəziyyəti nəzərdə tutulur. Əksər hallarda qohumlararası yaxın münasibətlər nifrətə və uzaqlaşmaq istəyinə gətirib çıxarır. **"Qohumsan, deməli, xidmət etməyə borclusan"** şüuru qohumların qarşılıqlı yüklənməsinə səbəb olur. "Yaxın" qohumluq azadlığı, sərbəst yaşamanı məhdudlaşdırır və asılılığa gətirib çıxarır. Yaxın qohumluq münasibətləri (məişət-sosial münasibətlər) maddiyyat üzərində qurulur. Maddi sərvətlərin yaxın qohumlara yiyələnməsi amili **("özümünkünə qismət olsun", "yaddan bir şey çıxmaz", "hər halda özümüzünküdür", "ətini yesə də sümüyünü çölə atmaz" ifadələri)** gənclərin ailə bədbəxtliklərinin əsaslarını qoyur. Bizdə daha çox endoqam ailələrə üstünlük verilir. Gənc evladlar daha da yaxınlaşdırılmanın, yaxın olmaq istəklərinin qurbanlarına çevrilirlər. Endoqam ailələr irsi xəstəliklərin

nəsillərdən-nəsillərə ötürülməsinə xidmət edir. Yaxın qohumla evlilik həm də nəsli qisaslığın əsaslarına çevrilir və münaqişələr üçün istifadə obyektləri rolunda çıxış edir.

**-Qonşuluq münasibətlərimiz bir o qədər səmimi deyil –** "qonşuların qapıları döyüləndə bizimkilər açılır" prinsipləri və qaydaları ilə yaşayan qonşularımız çoxdur. Qonşularla bəhsə girmək, qonşunu güdmək, qonşunun üstün olmamasına çalışmaq, sərvət toplamaq yarışına girmək milli xüsusiyyətimizdir. Qonşuları pisləmək gündəlik vərdişlərimizdir.

**-Ailədə kişilərimizin və qadınlarımızın əksəriyyəti evlad cəlladlarıdır –** uşaqlar üzərində sərt nəzarət etmək, onlara qorxutmaq, fiziki işgəncələr vermək, fiziki güc tətbiq etmək çoxlarımızın tərbiyə vermək yoludur. Çoxlarımız öz valideyn statuslarını evladlarını döyməklə sübut etməyə, möhkəmləndirməyə çalışır. Əksəriyyətimiz qız uşaqlarına mətbəx əşyaları ilə davranmalı olan vasitə kimi baxır. Küçədə kiçik yaşlı evladları – uşaqları döymək öyünməyimizin əsaslarından biridir. Deməli, əksəriyyətimiz cılız ailə münasibətlərinə malikdir. Buradan yenə də gücü nümayiş etdirmək kimi mənfi xüsusiyyətlərimizin mövcudluğu bəlli olur.

**-Xain, paxıl, ifrat dərəcədə qısqanc qəlbləri olanlarımız çoxdur –** bu da ondan irəli gəlir ki, əslində qeyri-rasionalıq, zəifik və cəmiyyətdə təbəqələşmə güclü gedir, eləcə də daha çox öz işlərimizlə yox, başqasının işləri ilə məşğul olmaq istəklərimiz və müdaxilə əməllərimiz mövcuddur. Bağlılığımızdan güclünü qəbul edə bilmirik, acizlik nümayiş etdiririk. Xudbinlik, naqislik də ifrat dərəcədədir. Çünki müdrikləri eşitmirik, ağıllı olanları saya almırıq, onların fikirlərini qəbul edə bilmirik, onları ifrat dərəcədə qısqanırıq. Bu baxımdan da həddən artıq dərəcədə daxili eqoistliyimiz (**hər kəsə aid deyil**) vardır.

**-İctimai eqoistliyimiz ifrat dərəcədədir, cəmiyyətə çox etinasızıq, "mənəm-mənəmliyimiz" çoxdur.** Bunun nəticəsi

olaraq kollektiv idmanları inkişaf etdirə bilmirik. Küçələri, parkları, meydanları təmiz olan cəmiyyətlər qura bilmirik. Küçələr, parklar, məişət yerləri elə bizim məişət “təmizliyimizin” nümunəsidir. Abad, estetik yolun mədəniyyət nümunəsi olmasını çoxdan unutmuşuq. Zibilliklərdə olan iyrənc və xaotik vəziyyət, küçələrdə üfunət elə bizim çoxlarının məişət təmizliyinin göstəricisidir. Rasional təfəkkürə malik olmadığımızdan, çoxlarımız ərincək və tənbəldir. İctimai yerlər, həyət-bacalar zibilliklərlə, məişət tullantıları ilə doludur. Adicə qaydada biz zibil yeşiklərinə tullantıları düz ata bilmirik. Küçələr isə siqaret kötükləri və tumlarla doludur. Zibil əşyaları **“uçan kəpənəklər”** rolunu oynayır. İnsanlara tez-tez “qonur”. Xüsusilə, küləkli havalarda onların sayı daha çox artır. Biz bununla özümüzün ictimai eqoizmimizi, kollektivi saymamazlığımızı, sosial-məişət ögeyliyimizi **(“ev mənim, küçə başqasının”** prinsipləri ilə) sübuta yetiririk. Qəsəbələrdə olan küçələrin natəmizliyi və bərbad vəziyyətdə olması da bunu sübut edir. Avtomobilimizin, avtobuslarımızın, qatarlarımızın, gəmilərimizin və digər minik vasitələrimizin sərnişinləri küçələri, yolları, trasları, dənizləri, çayları, gölləri məişət tullantıları ilə doldurur. Küçələr və yollar məişət tullantılarının (xüsusilə, banan qabıqlarının və siqaret kötüklərinin) **utilizasiyası məkanı** rolunu oynayır. Binalarda yuxarı mərtəbədə yaşayanlar üçün aşağı mərtəbələr zibil kisələri, utilizasiya məkanları üçündür. Deməli, maarifçilikdən geri qalmağımız (təbii ki, bu yanaşma hər kəs üçün deyil) şüurlarımızı aşağı endirib. Bu da ümumən yaxşı keyfiyyətli xalq olmadığımızı sübuta yetirir. Bizim “bağlılığımız”, “həmrəyliyimiz” əslində eqoistliyimizə xidmət edir. Bağlılıq əslində ayrılıq yaratmaq, həmrəyliyi parçalamaq məqsədini güdür. Bu baxımdan da belə qərara gəlmək olar ki, cəmiyyətə kor baxan, laqeyid yanaşan, “mənəmliyimiz” çox olan və ictimai mühitə qarşı etinasız yanaşan nümayəndələrimiz çoxdur;

**-Çox lovğalanmağı sevirik (aiddiyyatı şəxslər üçündür) –** özümüzü nümayiş etdirmənin tərkibi olaraq, qabiliyyətimiz, istedadımız, bilik və bacarığımız, digər imkanlarımız yetdi-yetmədi çoxlarımız başqasının yanında öyünməklə məşğul olur. Bu da ondan irəli gəlir ki, cəmiyyətdə avamlıq çoxdur. Öyünən, lovğalanan şəxs elə başa düşür ki, diqqəti ona yönəldir, həsəd aparır, əks tərəf onu alqışlayır, ona yüksək şəxs kimi baxır. Öyünməklə özümüzün "çürük statusumuzu" (lovğalananlara aiddir) nümayiş etdiririk. Özümüzü ələ salırıq, gülünc mənbəyinə çeviririk, yüksək səviyyəli xalqların rişxənd mənbəyinə döndəririk. Lovğalanma da maddi vasitələrə və maddi fərqlərə söykənir. Sosial kasıbçılıq imkan verir ki, bir qədər "fərqlənənlər" özlərini lovğa hiss etsinlər. Lovğalananlar (xüsusilə, məclislərdə) da düşüncələrin, dərk etmənin tələb etdiyi dərin məsələlərdə acizləşirlər. Lovğalıqla çoxlarımız öz acizliyini nümayiş etdirir. Deməli, ümumən (faiz nisbəti ilə) səviyyəsi bir o qədər yüksək olmayan aciz nümayəndələri bol olan bir xalqıq. Öyünməyimizin, özümüzü göstərməyimizin tərkibi olaraq **"ciblərimiz də üzəriyimiz kimi açılır".**

**-Əksəriyyətimiz yalançı xeyirxahdır.** Məlumdur ki, xeyirxahlıq, maddi kömək, humantar yardımlar (əl tutmaq) daha çox gizli olmalıdır. Necə deyərlər, "sağ əlin verdiyindən sol əlin xəbəri olmamalıdır". Həm də xeyirxahlıq humanizmin ən yüksək zirvəsindən biridir. Lakin bizim bəzi imkanlı adamlarımız populizm (şöhrətpərəstlik), cəmiyyətdə, qohumlar arasında tanıtım və "status" qazanmaq naminə imkanlarının bir qismini nümayişkəranə olaraq başqalarına verirlər, "bağışlayırlar" və belə addımlarla lovğalıqla məşğul olurlar. Bir də hədiyyələrin ünvanları da düz seçilmir. Həm də xeyirxahlıq heç də ürəkdən olmur. Onu edənlərin "gözləri etdiklərində qalır".

**-Davranış normaları və qaydalarında çoxlarımız heç də səmimi deyil –** çoxlarımız yalançıdır. Maraq və mənafelərimiz uğrunda yaxşı aldatmaqları, fənd işlətmələri, hiyləgərliyi

bacarırıq. Fikirləşirik ki, aldatdığımız şəxslər avamdırlar. Bununla da insanlığımız yoxa çıxır. Dövlət hakimiyyətində saxtakarlıq çoxdur. Xalqı, cəmiyyəti avam hesab etməklə aldatmaq yolu ilə **"hüquqların bazarlamasını"** yaxşı etməyi bacarırıq. (Edənlərə aiddir). Əks tərəfə **hüquqların alıcısı** gözü ilə baxırıq. Burada mənəviyyatımız maddi aləm tərəfindən satın alınır.

**-Saxtakarlıqlarımız çoxdur –** rüşvət alıb və rüşvət verib saxta mütəxəssislər, saxta alimlər (alimoidlər), "peşəkarlar" yetişdiririk. Saxta rütbələr alanlarımız da boldur. Saxta məhsulların (standartlara və keyfiyyət tələblərinə uyğun olmayan məhsulların) istehsalı ilə də məşğul oluruq. Deməli, saf və təmiz, pak cəmiyyətimiz yoxdur. (Saf insanlara aid deyil). İnsanlar arasında münasibəti təmiz saxlayan vasitələrin düzgün realizəsi yoxdur. Çox acınacaqlıdır ki, kənd yerlərində "özüm üçün keyfiyyətli, bazar üçün keyfiyyətsiz" məhsullar yetişdiririk.

**-Oğurluq halları çoxdur –** maddi vasitələrin oğurluğunu, adam oğurluğunu, ideya oğurluğunu, elmi ixtiralar və kəşflər oğurluğunu, fikir oğurluğunu, davranış oğurluğunu çoxlarımız yaxşı bacarır. Küçədən oğurluq, qonşudan oğurluq, dövlətdən oğurluq, marketlərdən oğurluq, istehsalatdan oğurluq, nəqliyyatdan oğurluq, yollardan, parklardan oğurluq, talançılıq çoxlarımızın peşəsidir. İctimai yerlərdə "cibəgirənlik" adi haldır. Deməli, cəmiyyətimiz infantildir, saxtadır, qüsurları çoxdur, sağlam olanları əziyyət çəkir, maddi tələbatların qeyri-düzgün qaydada ödənilməsi mövcuddur. Cəmiyyətə inamın səviyyəsi çox aşağıdır. Cəmiyyətimiz əməksevər deyil. İnsanlarımız rahat yollarla pul qazanmağa vərdiş ediblər. Bu baxımdan da resursların qeyri-düzgün istismarı mövcuddur və resurslara baxışlar qeyri-rasionaldır.

**-Nizam-intizamdan uzağıq, qanunlara, qaydalara əməl etmək özünü "aşağı endirmək" sayılır –** küçədə, yollarda, parklarda və digər ictimai yerlərdə qayda-qanunlara əməl

etməyi çoxlarımız özlərinə rəva bilmir. Məsələn, düzgün qaydada avtomobil və digər nəqliyyat vasitəsini idarə etmək çoxlarımıza yaddır. İşıqforları saymamaq, digər yol hərəkət nişanlarını saymamaq (imkanlı şəxslər, cəmiyyətdə tanınan bir çox mədəniyyət adamları və əksər dövlət məmurları, dövlət idarələrinin avtomobil sürücülərinin və başqalarının hərəkəti) bizim gündəlik vərdişlərimizdir. Çoxlarımız adicə avtomobilin dönmə işıqlarını lazımi anlarda yandırmağı düzgün vərdiş və əməl hesab etmir. Deməli, qanundan kənar, qaydalardan uzaq və bununla da qeyri-rasional cəmiyyətə malikik. Anarxiya (bir çox Asiya ölkələrində olduğu kimi) etno-milli varlığımızın və fəaliyyətimizin əsası olmaqda qalır. Sistemli olmağa can atan insanlarımız isə əziyyətə düçür olurlar.

**-Çoxlarımız bir-birinə nifrət edir –** əksəriyyətimiz qeyri-səmimi və bu baxımdan da düzgün olmayan münasibətlər fonunda yaşayır. Maddi aləmin qeyri-tarazlığı nifrəti meydana gətirir. Yuxarı və aşağı vəzifələr və vəzifə hərisliyi hər ikisində təmsil olunan şəxslərin qarşılıqlı nifrətini yaradır. Yuxarı vəzifəlilər və imkanlılar aşağı vəzifəlilərə **"əl-ayağa dolaşanlar"** kimi baxır və onlara nifrət edirlər, aşağıdakılar da yuxarılara həsəd apardıqlarından onlara nifrət hissi bəsləyirlər. Bu baxımdan da təbəqələşmiş, kəskin sinfi xarakter almış ögeyliyin üstünlük təşkil etdiyi cəmiyyətə xasıq.

**-Yaltaqlıq alnımızdadır –** zəngin maddi aləmə sahib olmaq üçün vəzifələrə gəlib çatmaq məqsədilə vəzifələr verənlərə çoxlarımız yaltaqlanır. Yaltaqlananlar guya həmin şəxslərə hüsnü-rəğbət nümayiş etdirir. Maddi aləm çoxlarımızın şəxsiyyətini aşağılayır.

**-Əzablarsız yüksəkliklərə qalxmağı, var-dövlət toplamağı sevirik –** yaltaqlıq və rüşvətlər vermək yolu ilə vəzifələr əldə etməyə çalışırıq. Ona görə ki, vəzifə cəmiyyətdə digəri üzərində nüfuz etmək və şan-şöhrət üçün, var-dövlət yığmaq yolunda əsas vasitədir.

**-Başqalarının hesabına yaşamağı sevirik və buna haqq qazandırırıq –** bu o deməkdir ki, “qazananın əməyi bölüşdürülməlidir”, qazancı bölüşdürülməlidir prinsipi əsasdır. Bu da istismarın bir növüdür. Hüquq mühafizə orqanlarının əksər nümayəndələri başqalarının əməyi hesabına yaşayır.

**-Başqalarının əməyini istismar etməyi xoşlayırıq –** istehsal müəssisələrində əksər idarəçilər fəhlələrin əməyi hesabına əldə olunan qazancları mənimsəyirlər. “Ağa-qul” münasibətləri və təzim etdirmək (boyun əydirmək) istəkləri şüurlarımızda geniş yayılıb. Biznes nümayəndələrinin gəlirləri dövlət məmurları tərəfindən güc tətbiq etmək yolu ilə bölüşdürülür. Bu da biznesdə yalançılığı, vergidən yayınmanı formalaşdırır.

**-Hökm etməni, başqaları üzərində nüfuz əldə etməni nümayişkarənə həyata keçirməni sevirik –** vəzifələrdə əyləşənlərimiz əmr etməyi, tapşırıqlar verməyi çox xoşlayırlar və yerinə yetirilməsi üçün nümayişkərana “hesabatlar” tələb edirlər. Bir də ki, qəbul otaqlarında qəbula gələnləri saatlarla gözlətməyi özlərinin hökm vasitələri və nüfuzları üçün lovğalıq üsulları hesab edirlər. Öyünmək əsas vərdişlərimizdəndir. Hakimlər, istintaqçılar, prokurorlar və s. kimi şəxslər əksə hallarda saxtakarlıq edib ədaləti unudurlar. Eyni zamanda küçələrdə **“beş fəhlə dörd müdir”** prinsipi mövcuddur. Əlləri belində olan bəylər önündə yaşlı insanların əzab çəkməkləri səhnələri adi bir hal-halıbdır. Küçələrdə, parklarda **“kamikadze (ağızları, üzləri bağlı) xadimələr”** sanki təcrid olunmuş təbəqənin nümayəndələrini xatırladırlar.

**-Başqaları üçün “cəllad olmağı” sevirik və bundan fəxarət hissi duyuruq –** hüquq-mühafizə orqanlarının əməkdaşları həbslərdən, “dama basmalardan” fəxarətlə danışırlar. Kimlərinsə həyat yoldaşlarının yalvarmalarından ürəkdolusu söhbət açırlar. Rüşvətlər hesabına insan taleyini həll etməyi özlərinin əsas borcları hesab edirlər. Eyni zamanda

vəzifəlilərimiz kimlərəsə əziyyətlər vermək üçün qəbul otaqlarında gözlətmələrdən fəxr hissi duyurlar.

**-Çoxlarımız dindən, imandan uzaqdır –** çoxlarımızın adı müsəlmandır. Məlumdur ki, müsəlman dini dəyərlər dinidir və elm öyrənməyi tələb kimi qoyur. Lakin çoxlarımız bunu yerinə yetirməkdən imtina edirik. Müxtəlif bəhanələr axtarırıq. Dini əməldən uzaqda hesab edirik. Yaxşı dini nəzəriyyəçilərimiz var. Sadəcə olaraq ayrı-ayrı mənbələlərdən sitatlar gətirməklə məşğuldurlar və məclislərdə özlərini ağıllı üləma kimi təqdim edrilər. Lakin reallıqda isə dinin köklərini uşaqlara, qadınlara zülm etməkdə, işgəncələr verməkdə axtarırıq (Ədalətli, saf inanclı və əməlisaleh insanlara aid deyil). Ədalətli davranış əksəriyyətimiz üçün "stop" işarəsinə çevrilib. Vəzifəlilərimiz televizorda həcc ziyarətinə baxıb razılıq bildirirlər, müqəddəslikdən danışırlar, ancaq həmin anda rəflərdəki paket arasındakı rüşvətlərin toplanmış məbləğini sayırlar. Əksəriyyətimiz hesab edirik ki, dini aylar olan "Məhərrəmlik" və "Ramazan"-da, "Qurbanlıq" bayramlarında spirtli içkilərdən uzaq olmaqla, zəncirlər döydürməklə, baş yarıb qan çıxarmaqla, kimlərəsə müəyyən məbləğdə sədəqə (izahlı lüğətə əsasən, -yoxsula, dilnçiyə verilən şey, pul) verməklə, evdən fitrə (islamiyyətdə ailə üzvlərinin sayına görə orucluq ayında yoxsullara, yetimlərə verilməli olan pay) çıxarmaqla, "zəkat verməklə" (izahlı lüğətə əsasən, zəkat əldə edilmiş mal və pulun halallığını təmin etməkdən ötrü onun dini ehtiyaclar və fəqir-füqəraya verilmək üçün ayrılan hissəsi mənasını bildirir), "xüms verməklə" (varlı adamın gəlirinin beşdə bir hissəsinin kasıba verilməsi) Allah tərəfindən bağışlanırıq. İlin digər aylarında isə günah işlərlə məşğul oluruq (içkilər içirik, narkotik vasitələr qəbul edirik, cinayətlər törədirik və s.-məşğul olanlara aiddir), hesab edirik ki, dini aylarda və günlərdə müəyyən hərəkətləri (yalançı ibadətlər) etməklə Allah bizi bağışlayır. Vəzifəlilərimiz (dövlət hakimiyyəti postunu tutanlar) rüşvətlər hesabına ailə üzvlərini Həcc ziyarətinə

göndərməklə, guya savab iş gördüklərini zənn edirlər. Ölkəmizdə, cəmiyyətimizdə din çox aşağı səviyyədədir. İnanclar demək olar ki, ürəkdən deyil. Bayağı məzmun kəsb edir.

**-Siyasətimiz vəzifələr uğrunda mübarizələrdən ibarətdir** – burada vəzifə dedikdə, şəxsi maraqlara xidmət edən dövlət postları nəzərdə tutulur. Həmçinin **"vəzifə müxalifətçiləri"** mövcuddur. İnsanlarımız vəzifə tutanda cəmiyyəti sevir, vəzifədən kənarlaşanda cəmiyyəti, dövləti sevmirlər. Ətrafa kin bəsləyirlər. Korrupsiya oyunlarında iştirak dövlətə sevgi gətirir, kənarlaşma isə nifrətlə qarşılanır. İş o yerə çatır ki, həmin şəxslər azərbaycanlı olmaqdan belə utanırlar. Siyasi müxalifətimizin əsaa bazası riyakarlardan, ucuz şəxsi maraq güdənlərdən ibarətdir. Təbii ki, bu fikir sağlam əqidəli müxalifət nümayəndələrinə ünvanı üçün deyil.

**-Daha çox maddiyatın, şöhrət və vəzifənin dostuyuq.** Dostluğumuz daha çox maddiyyat üzərində, vəzifə və şöhrət üzərində qurulur. Buna görə də lazımi anlarda maddi aləm xəyanətə yol açır. Vəzifənin itirilməsi dostluğun itirilməsinə gətirib çıxarır.

**-Münasibətlərimizdə dövlət vəzifələri mühüm rol oynayır.** Çoxlarımız qeyri-səmimidir və bir-birimizə olan davranış münasibətlərində vəzifələr amilinə üstünlük verir. Vəzifələr ucaldıqca hörmət də "böyüyür". Vəzifədən düşdükdə hörmət enir. "Müəllim" sözünü sadəcə ad əvəzləyir.

**-Yemək yediyimiz yerə çox zaman kor, xain baxırıq** – çoxlarımız qədir bilməzdir. Nemətlərin mənbəyini dəyərləndirə bilmir. Qazanclar olan yerə xor baxmaq halları çoxdur.

**-Yalançı xiffətimiz (başqasının dərdini çəkməyimiz) var –** bir o qədər qayğıkeş deyilik. Etdiklərimiz daha çox nifrətdən irəli gəlir. Üzdə qayğıkeş görünürük, ancaq daxildə kinli-küdurətliyik.

**-Evladlarda qızları sevmirik –** çoxlarımız guya analarına, həyat yoldaşlarına və bacılarına qarşı diqqətli və

qayğıkeşdir. Əslində qadına əşya kimi baxanlarımız çoxdur. İstifadə alətlərinə çevirənlər çoxdur. Məsələn, küçələrin təmizlənməsi peşələrinə ən aşağı iş yerləri kimi baxırıq, lakin həmin yerlərdə qadınları, həmçinin yaşlı qadınları işlətməyi sevirik. Qız evladına xainlik edənlərimiz və dünyaya gəlmələrini istəməyənlərimiz də çoxdur.

**-Ağsaqqallıq və ağbirçəklik institutumuz çox zəifdir –** hər bir yaşlı insan, - qabiliyyəti çatdı – çatmadı, - özünü ağsaqqal və ağbirçək hesab edir və özünə kənardan hörmət olunmasını istəyir. Yaşlılıqdan istifadə edərək gənc ailələr üzərində hökmranlığı əldən vermək istəmirlər. Gəlinlər ailələrdə böyüklərə ifrat qulluğun qurbanlarına çevrilirlər. Çoxlarımızda məcburən, adətlərdən və qınaqlardan ehtiyat edərək böyüklərə, yaşlı insanlara hörmət bəslənilir. Əksər gənclər yaşlılara, yaşlılar da gənclərə niftər edirlər. **“Böyüklərə ürəkdən qulluq”** var. Bir daha qeyd etmək yerinə düşər ki, ağsaqqallarımız və ağbirçəklərimiz küçələrin təmizliyi ilə məşğuldur.

**-İstedadlıları və qabiliyyətliləri sevmirik –** çoxlarımız avam, savadısız olduğundan üzə çıxan qabiliyyətli və istedadlı adamlara xain baxır. Onların qabağa getməsinin qarşısını almaq üçün müxtəlif ləkələyici üsullardan və digər vasitələrdən istifadə edirlər. Yaxşı şeylərə malik olmaq fərdi eqoist əsaslıdır. **“Mən olum”, “mənimki olsun”** fikirləri inkişaf və tərəqqi üçün kundələr rolunda çıxış edir. Güclülər qarşısında çoxlarımız özümüzü aciz vəziyyətdə qoyur. İstedad və qabiliyyətlərimizi üstələməyi sevirik. Öndə olmaq, birinci olmaq və bunun üçün qeyri-düzgün yollardan istifadə etmək çoxlarımızın əsas peşəsidir.

**-Qarğışlar verməyi çox sevirik –** əksər kişilər və qadınlar əks tərəfin günahı oldu-olmadı arxasınca vəya da üzünə bol-bol qarğışlar yağdırmağı sevir. Qarğışlar edənlər hesab edir ki, qarğışlar verməklə, əks tərəf ziyana düşə bilər. Qarğışlar da istəməməkdən, yaxşı yaşamanı göz götürməməkdən irəli gəlir.

**-Milli həmrəy deyilik –** daha çox regionçuyuq, doğum bölgələrini özümüzə yaxın bilirik. Həm də klançıyıq. Vəzifələrdə tayfabazlıq, regionçuluq əsas rol oynayır. Bölgələrimiz bir-birilərini bəyənmir.

**-Kasıbçılıqdan, həm də acgözlükdən çox işlərdən yapışmağı sevirik** – maddi gəlirlərə görə (burada minimum tələbatların ödənilməsi bir tərəfdən, tamahkarlıq xüsusiyyətlərimiz isə digər tərəfdən) çoxistiqamətli yarımçıq fəaliyyətimiz olur. Çoxbucaqlı və çoxistiqamətli söz vermələr çoxlarımızın xarakterindədir. Buradan da çoxistiqamətli aldatmalarla, çoxbucaqlı və mürəkkəb söz vermələrlə məşğul oluruq.

**-Çoxlarımız elm və texnologiya xalqlarını bəyənmirik, onlara kafir(qeyri-müsəlman, islam dininə etiqad etməyən, yad), düşmən kimi baxırıq –** Qərbin və Yaponiyanın texnologiyasından, bir çox Asiya ölkələrinin məhsullarından, elm və texnologiyalarından istifadə edirik. Lakin o xalqları bəyənmirik. Öz zəifliyimizi, elmi potensialımızın aşağı olmasını qəbul etmirik. Onları dinsizlikdə ittiham edirik. Lakin onları görəndə önlərində “ikiqat əyilirik”, ürəklə təzim edirik. Deməli, riyakar və cılız olan nümyəndələrimiz çoxdur.

**-Ekologiyaya hörmət qoymuruq, sağlamlığımızı düşünmürük -** şəhər küçələrində, terraslarda **dibləri betonlaşdırılmış** ağaclarımız var. Ağacların yaşıllıqların cəlladıyıq və yaşıllıqları tez bir zamanda daşlıqlara çevirməyi xoşlayırıq. Daş təbiətdə yaşamağa üstünlük veririk. Ona görə də xarakterimiz də **“daşlaşır”.** İstənilən yerlərdə alovlar yandırmaq, nəfəsimizi boğmaq əsas vərdişlərimizdəndir. Özümüzün və başqalarının qayğısına qalmağı xoşlamırıq. Bərbad təbiətdə yaşamaq bizim əsas həyat tərzimizdir. Sağlamlıq qayğısı unudulmuş tərəfimizdir.

**-Təbiətə qarşı laqeyidik və ögeyik** – heyvanları, itləri, pişikləri sevmirik. Çoxlarımız “it döyəndir”. Təpiklərimiz

heyvanlara qarşı yönəlir. Pişiklərə kömür sobasında qızarmış şişləri basırıq. Heyvanların yaşadıqları yerləri məhv edirik.

**-Guya qadınlara hörmət edirik –** bir daha sadalamaq yerinə düşər ki, yaşlı analar kamikadzelər geyimində (ağızları və gözləri bağlı olaraq) küçələrdə toz içərisində təmizlik işinə baxırlar. Bəylərimizin əlləri isə bellərində və ciblərindədir. Tarlalarımız, bostanlarımız, fermalarımız qadınların əsas iş yerləridir. Ağır işlərdə qadınları işlətmək əksər kişilərin əsas şərəfidir və lovğalıq predmetidir, qürrə mənbəyidir. Qadın hər gün kişi önündə pul hesabatı verir.

**-Əmlaklara qəsd edənlərdənik** – başqasının malına, mülkinə, var-dövlətinə göz dikmək əksəriyyətimizin xarakterindədir. Ziyan vurmaq, dağıtmaq, uçurmaq çoxlarımızın fəxarət hissidir. Deməli, heç də yaradanlardan, quranladan, yaradıb-quranlara hörmət edənlərdən deyilik.

**Qeyd:** hər birimiz xalqımızın mental dəyərlərinə zərbələr vuran dəyərsizliklərlə daima mübarizə aparmalı və özünüislah təfəkkürünü inkişaf etdirməliyik ki, həm inkişaf edək, həm enerjili olaq, həm də həmrəy olaq.

# II HİSSƏ:

## Sabitliyə aparan ideal yollar

İdeal yollar zəngin yollardır. Zənginlik tək çoxluqda deyil, eləcə də sadəlikdədir. Sadəlik mürəkkəbliyin ümumiləşmiş, cəmləşmiş kateqoriyasıdır. Sadəlik xəyali mücərrəd və real konkret təsvirlərdə mürəkkəblik romblarının ucluqlarıdır. Zənginlik, təkmillik ideallığın əsaslarını meydana gətirir. İdeallıq sistemlilikdir. Sistemlilik də gözəllikdir, etikdir. Deməli, gözəllik sistemlilikdir ki, o da özlüyündə müəyyən qədər ideallıqdır.

Müəyyən sərhədləri olan məkanda kəmiyyət artımı ideal olmaya da bilər. Kəmiyyətin çoxluğu sistemliliyin çox mürəkkəbliliyidir. Bu da qarışıqlığa səbəb olandır. **(Qeyd:** müəyyən şərti bir məkanda mürəkkəblikər cəmi sadəliklərin özündədir. Mürəkkəbliklər açıldıqca sadəliklər ümumiləşir. Sadəliklər mürəkkəblikləri əhatə edir. Lakin məkan genişləndikcə sadəliklər də ümumi həcm etibarilə artır. Burada mürəkkəbliklər hesabına genişlənən müstəvi sadəliklərin çoxalmasına xidmət edir). İdeallıq sadəlikdir və sadəlikdən meydana gələn mürəkkəblikdir. Sabitliyə aparan ideal yollar çoxistiqamətlidir və bu baxımdan da çox zəngindir. Bütün yollar isə qaneedici və sakit şəkildə cərəyan edən dalğalardan ibarətdir. Sakitlik və qanedicilik də enerji ilə kifayətlənməkdən meydana gəlir. Yollar ümumi və məxsusi standartları özündə cəmləşdirir və ümumi trayektorik vəhdəti meydana gətirir. Bu yolların hər bir məkanı, hər bir tərkib elementi şərtləndiricidir, törədicidir, bağlayıcıdır. İdeal yollar özündə real elementlərlə ideal elementlərin, yəni qeyri-müəyyən elementlərin vəhdətini ortaya çıxarır. Buradan da müəyyənliyin aşkar olunmuş məkanı genişlənir. İdeallıq təkrar və ardıcıl şəkildə genişlənməkdə olan sistemdən meydana gəlir.

İstəklər, arzular və xəyallar etika və estetikanı yaradır. İstəklərin reallaşması istəniləndən doymanı, razılığı və sakitliyi, rahatlığı meydana gətirir. Sabitlik şəraitində inkişaf, həm də daha çox sosial həyatın ödənilməsinə istiqamətlənən inkişaf arzu olunandır, reallaşanda sakitlik yaradandır. İdealizm elə bir forma və məzmundur ki, insanlar onu xəyallarında canlandırırlar. Bu anda xəyali məkan real məkanda həm də dualist məzmunlu və formalı kimi təsəvvür olunur. Elə də olur ki, real ideal məkanlar xəyali məkanların və istəklərin yerinə yetirilməsi kimi aşkarlanır, gerçəklənir.

Hər bir yol nəzəri və təcrübi olmaqla iki baza istiqamətdən ibarətdir. Yollarda fikir və əməl, yaradıcılıq və quruculuq vəhdəti mövcuddur. Yollar dualist məzmunludur. Nəzəriyyə tətbiq zamanı təcrübəni, təcrübə də nəzəriyyəni meydana gətirir. Nəzəriyyə obyektlərə olan, onlara yönəlik sintezli və analizli, deduktiv və induktiv məzmunlu fikirlərdir. Nəzəri yollar planlardır, proqramlardır, strategiyalardır, konsepsiya və doktrinalardır, proqnozlardır, hesablamalar və gümanlardır, əksini tapan digər ideyalardır, həyata keçməsi istənilən və arzu olunan ideallardır. Təcrübi yollar isə real hərəkətlərin cızdıqları trayektoriyalardır. Praktiki hərəkətlərdir. Sabitlik özündə nəzəri və təcrübi ideal yolları cəmləşdirir.

Sabitlik cəmiyyət və dövlət üçün ilkin şərtdir və həm də nəticə şərtidir. Sabitlik sistemin dözümlülüyündən və möhkəm olmasından meydana gələn vəziyyətdir. Sabitlik sülh və inkişafın əsaslarını təşkil edir. İdeal yollar elə ideyalardan ibarətdir. İdeyalar da özlüyündə yeni-yeni istiqamətləri birləşdirir.

Sabitlik nədir? -sabitlik müəyyən məkanlarda olan elementlərin mütləq və nisbi tarazlı, sabit və dəyişən vəziyyətləridir, tarazlı qaydada inkişafın əsaslarıdır. Sabitlik zamanı tərkibi təşkil edən elementlər müəyyən trayektorik xətlərdə sabit hərəkət edən, yəni vərdiş olunmuş nisbətən mülayim və sakit davam edən vəziyyətləri yaradır. Sabitlik

məhz vərdiş olunmuş sakit vəziyyətlərdir. Sakitlik isə sistemin nizamlı əsasını yaradan və qarşılıqlı olaraq müəyyən xətlər üzrə ölçülər həddində davam edən hərəkətlərdən ibarətdir. Sabitlik o halda yaranır ki, maraqlar müəyyən səviyyədə, müəyyən ölçülər çərçivəsində sakit qaydada təmin olunur. Cəmiyyətin sakit həyatı elə sabitliyin özüdür. Bu, sakit hərəkətlərdən, müəyyən istiqamətlər üzrə meydana gələn vəziyyətlərdən ortaya çıxır. Sabitlik ölçülərə tabedir. Elə ölçülər ki, insanlar üçün daima faydaları gətirir.

**Cəmiyyətdə sabitliyə aparan ideal yolların nəzəri baxımından bunlardan ibarət olması qənaətinə gəlmək olar:**

***(Qeyd: məlumdur ki, sabitliyin bərqərar olması üçün baza yollar iqtisadiyyatdan və gərginliklərin ünsürləri olan qeyri-müharibələrdən, qeyri-münaqişələrdən meydana gəlir. Kasıb olan və rahat yaşamayan cəmiyyət sabit ola bilməz)***

Sabitliyə aparan ideal yollar təcrübə və reallıqlarla bağlı olaraq, subyektlərin hərəkətlərindən və real gerçəkliklərdən asılıdır. İdeal yolların müəyyən səviyyədə təmin olunması üçün yolları gedən şəxslərin potensial səviyyələri yüksək olmalıdır. Eyni zamanda gerçəkliklər daha da səmərəli və aydın olmalıdır, ədalətin ardıcıl qaydada üzərə çıxmasına xidmətə yönəlməlidir.

**-şəxslərdə, cəmiyyət üzvlərində intellektual potensialın dolğun olması –** *ümumiyyətlə, rasional təfəkkürün formalaşmasına aydınlaşmış, işıqlanmış, maariflənmiş şəxslərin formalaşmasına elm və təhsil, tədris prosesləri, məktəblər, ictimai-siyasi institutlar təsir edir. Bu kimi vasitələrin təkmil olması sistemliliyi meydana gətirir və sistemliliyi təmin edir. Təfəkkürün məntiqi olması əqli qabiliyyətin potensialını artırır. Dərketmənin dərinliyi aydınlığın dərinliyini nümayiş etdirir.*

*İntellektual potensial intuisiyanı və qarşılıqlı şəkildə bir-birini başa düşməni təmin edir. İntellektual potensial cəmiyyətdə nisbi sakit vəziyyətlərin formalaşmasına xidmət edir. Həm də resursların əldə olunmasının rasional əsaslarını yaradır. Bu baxımdan da sabit cəmiyyətlər üçün tələb olunanları üzərə çıxarır ;*

**-insan hüquqlarının yüksək səviyyədə təmin olunması –** *burada yüksək səviyyə həm də nisbidir. Yüksəkliyin davamedicilikdə son həddi uzanır, yeni mərhələ ilə əvəz olunur. Mərhələnin əvəzlənməsi məkan dəyişməsi və kəmiyyət dəyişməsi ilə xarakterizə edilir. Elementlər müəyyən məkanlarda bir-birini trayektoriya üzrə əvəzləyir. Son hədd qurtarmır. Sistem daxilindəki proseslər fonunda daima təkmilləşmə, sadələşmə gedir. Burada koordinatların birləşik nöqtələri müxtəlif bucaqlarda mövcud olur. Hüquqların təmin olunması isə resurslardan asılı olur. Hüquqların təmin olunması resursların nisbi olaraq ədalətli paylanmasından da asılı olur. Burada hüquqların təmin olunması hər bir fərd və təbəqə üçün ümumi prinsiplər tətbiq olunmaqla, bərabər kriteriya üzrə, məsələn, azadlıq, sərbəstlik və digər kriteriyalar üzrə, olur. Hüquqların təmin olunmasında kəmiyyət amili də mühüm rol oynayır. Cəmiyyətin inkişafı fərdin ayrı-ayrılıqda da inkişafına və imkanlarının artmasına da gətirib çıxarır. Bu baxımdan da hüquqların yüksək səviyyədə təmin olunması nisbi, dəyişən bir anlayışdır;*

**-cəmiyyət üzvlərinin maraqlarına xidmət edən hüquq normalarının ardıcıl şəkildə qəbul olunması –** *bu fikrin açılmasında zaman və inkişaf tələbləri, eləcə də yeni inkişaf zərurətləri ardıcıl olaraq və sistemli, əhatəli və bu baxımdan da əlaqəli qaydada hüquq normalarının qəbul olunması nəzərdə tutulur. Hüquq normaları qəbul olunarkən cəmiyyətin maraqları və sifarişləri "zaman nəbzi"nin tələbləri nəzərə alınmalıdır. Hüquq normaları sistemində aparılan islahatlar başlıca olaraq mürəkkəblikdən, çoxmərtəbəlilikdən sadəliyə və*

*azmərtəbəliliyə keçməkdən ibarət olur. Hüquq normaları sistemi sabitlik müstəvisi üçün hərəkətləri nisbi sabit "sürətdə"saxlayır və rəvan əvəzediciliyə xidmət edir;*

**-cəmiyyət üzvlərinin (münasibətlərdə, əlaqələrdə iştirak edən tərəflərin) hüquqlarının təmin olunması, qorunması –** *cəmiyyətin inkişafı onun elementləri arasında qarşılıqlı təsirlərdən, əlaqələrdən və mübarizədən asılı olur. Bu baxımdan da mübarizədə, əlaqədə iştirak edən tərəflərin mövcudluğu və fəaliyyəti üçün hüquqlarının qorunmasını şərt və prinsip kimi qəbul etmək lazımdır. Cəmiyyət üzvləri arasında iyerarxik əlaqələr bir tərəfdən rəngarəngliyi yaradır, digər tərəfdən də potensial fərqini meydana gətirir. Sistem tərkib etibarilə artan elementlər üzrə böyüyür, vəhdətləşir. Böyük potensial mərkəzləri məkan üzrə böyüdükcə təbii olaraq paylanma prosesləri həyata keçirilir*;

**-nizamlı cəmiyyətin mövcudluğu-***bu, o deməkdir ki, insanlar elə cəmiyyətlərdə yaşamalıdırlar ki, həmin cəmiyyətlərdə çaşqınlıq, qarışıqlıq və xaos olmasın. Uzun müddətə davam edən vərdiş olunmuş vəziyyətlər formalaşsın. Qarışıqlıq təbii ki, yeni bir axarlı nizama keçməyə xidmət edə bilər. Lakin nəzarət də lazımdır. Xaosun idarə olunması xaotik sistemli vəziyyətlərin uzun müddətə formalaşmasına gətirib çıxara bilər. Cəmiyyətlərin nizamlı olmasında həm də cəmiyyətdə əlaqələrin rəvan olması da təsir edir. Əlaqələrin rəvan olmasına isə insanların yüksək şüur düşünəcləri təsir göstərir. Yüksək düşüncə maddi aləm üçün rəvan münasibətləri meydana gətirir;*

**-dövlət hakimiyyəti strukturlarının lazımi səviyyədə fəaliyyəti üçün resursların zaman-zaman kifayət etməsi –** *dövlət strukturu öz fəaliyyətini təmin etmək üçün maliyyə-maddi və sosial resursları özündə cəmləşdirir. Bu resurslar xərclər üçün tələb olunan vəsaitlərdən ibarət olur. Vəsaitlər də təbii ki, iqtisadi sistemlərdən meydana gəlir. Dövlət inkişaf etdikcə iqtisadiyyatdan resursları əldə edir. O dövlət daha*

*güclü iqtisadiyyata malik ola bilər ki, onun kənd təsərrüfatı ilə sosial-xidmət sahələri arasında yüksək koordinativ mövqe əldə edilə bilsin. Yəni, sənaye və iqtisadiyyat əsasən kənd təsərrüfatı ilə xidmətin təqribən eyni səviyyədə inkişafı ilə bağlıdır. Bir xəyali nöqtədə-mərkəzdə kənd təsərrüfatı dayanır, digərində isə xidmət sahələri durur. Sənaye bu iki sahəyə xidmətə yönəldilir. Sənaye hər iki sahə üçün "sifariş qəbuledici sahə" rolunu oynayır. Təbii ki, gəlirlər müvafiq olaraq tələbatlar üzrə, strukturlar üzrə bölünür. Ölkədaxili və xarici istehlak bazarının olması da mütləqdir;*

**-dövlətin cəmiyyət üzərində qayğısının yüksək olması –** *bir daha qeyd etmək yerinə düşər ki, dövlət xalq üçün yaradılan bir qurumdur. Dövlətin əsas funksiyası cəmiyyətə xidmətdən ibarətdir. Bu xidmət qayğı və nəzarət prinsipləri üzərində qurulur. Bir tərəfdən sistemin fəaliyyəti üçün zamanda tələb olunan resurslar ödənilir, digər tərəfdən isə sistemin dağılmamasına çalışılır və sistemli proseslərə nəzarət olunur. Nəzarət mühafizəkarlığa və inkişafa yönəldilir;*

**-dövlətin cəmiyyət üzərində mühafizəkar-liberal fəaliyyətinin təmin olunması** – *bu, o deməkdir ki, dövlət mühafizə edə-edə yumşaq yanaşmalara üstünlük verir. Dövlət cəmiyyət və xalq sifarişlərini onları qoruya-qoruya həyata keçirir. Dövlətin nizamlama siyasəti islahatçılığa söykənir. Bu anda mühafizəkarlıqla liberallıq vəhdətləşir. Ümumiyyətlə, liberallıq ümumiyyətlə, mühafizəkarlığın ziddi olan məsələ deyil. Bunları ayrı düşünmək olmaz;*

**-dövlətin cəmiyyət sifarişlərinə hazır olması və cəmiyyət-dövlət körpüsünün daimi mövcudluğu –** *bu, o deməkdir ki, cəmiyyətin sifarişi onun nəbzinin göstəricisidir. Cəmiyyətin ruhu hiss olunandır. Bu ruh həm idealizmdən yaranır, cəmiyyət özünü yüksəyə qaldırmağa çalışır, həm də reallıqdan meydana gəlir. Dövlət siyasətinin icrası onun ruhuna təsir edən faktora çevrilir. Dövlət o zaman güclü olur ki, cəmiyyətin və xalqın sifarişlərini yerinə yetirir;*

**-dövlətin humanizm siyasəti –** *dövlət öz cəmiyyətində humanist dəyərləri daima təbliğ etməlidir. Bu, dövlət-cəmiyyət vəhdəti ilə qarşılıqlı xidmət asılılığının özüdür. Sosial qayğı, səhiyyə qayğısı insanlar üzərində daima mövcud olmalıdır. Hər iki qayğı dövlətin özəyini təşkil edən insanların sosial-bioloji sağlamlığına xidmət etməlidir. İnsan günahlarının zaman və imkanlar və şəraitlər baxımından törədilməsini nəzərə almalıdır. Ümumiyyətlə, bir çox əməllər cinayətdən inzibati cərimələrə keçməlidir. Bununla yanaşı, dövlət tolerantlığın və etnoçalarlığın güclü əsaslarını formalaşdırmalıdır;*

**-iqtisadi sistemin və siyasi mühitin reaksiyalı olması –** *bu, o deməkdir ki, hər bir addım qarşılıqlı olaraq digər fəaliyyətləri də təşviq etməlidir. Sanki,* ***"ölü addımlara"*** *yol verilməməlidir. Reaksiyalar iqtisadi, sosial və siyasi reflieksləri özlərində əks etdirməlidir. Qıcıqlar sadəcə olaraq* ***"səbirli inkişafa"*** *aparmalıdır. İqtisadi sistemin depressiv vəziyyəti olmamalıdır və funksianal pozğunluqlar reaksiyalar hesabına tez aradan qalxmalıdır;*

**-iqtisadi sistemin çoxəsaslı, çoxvektorlu və çoxtərkibli (burada həm üfiqi, həm də şaquli istiqamətdə) olması –** *iqtisadi sistemin çoxtərkibliliyi özündə həm də çoxlu sayda eyniliyi və eyni məqsədliliyi, eyni təyinatlılığı cəmləşdirməlidir. Çoxtərkibli iqtisadiyyat çoxçeşidli iqtisadiyyatın əsaslarını yaratmalıdır və bol məhsul hesabına* ***"ucuzluq iqtisadiyyatı"*** *formalaşmalıdır. "Ucuzluq iqtisadiyyatı"nın məhsullarından istifadənin artması elə şaquli və üfiqi sistemlər üzrə inkişafı şərtləndirəcəkdir. Ucuz və keyfiyyətli məhsullar yeni infrastruktur, sosial və xidmət sahələrinin yaranmasını təşviq edəcəkdir. "Ucuzluq iqtisadiyyat"ı logistikaya əsaslanaraq zamanda daha çox məhsulların əldə edilməsinə yönələn bir iqtisadiyyat forması olur. Bu iqtisadiyyatın məhsullarında "kiloları" daha çox " tonlar" əvəz edir. Ədəd, say yox, kütlə, çəki iqtisadiyyatı meydana gəlir ;*

**-iqtisadi məkanın şaquli və üfiqi sahələr üzrə geniş əsaslarının formalaşdırılması** – *iqtisadi məkan dövlətdaxili və dövlətlərarası olur. Daxili iqtisadiyyatda kənd təsərrüfatında **"boş qalan torpaq"** anlayışı ləğv olunur. İqtisadiyyatın təmərküzləşməsi hesabına ticarət də təmərküzləşir. Bu, monopoliyaya çevrilmir. Sadəcə olaraq **"yumşaq birləşmə"** meydana gəlir. Potensial cəmləşir. Regionlar üzrə tarazlı iqtisadiyyat yaranır. Hətta inzibati yollarla iqtisadiyyatın meqapolislərdə çox cəmləşməsinə imkan verilmir. Məkan üzrə **"tam iqtisadiyyat"** forması təşkil olunur. Ticarət və istehsalatın "vahid obyektlərdə" birləşdirilməsi siyasəti formalaşır. Əslində böyüklük elə tərkib kiçikliyini özündə cəmləşdirir, yəni orta və kiçik sahibkarlar **"vahid dam"** altında birləşirlər. Burada hərənin öz məkanı sərbəst xüsusi fəaliyyətə xidmət edir*;

**-resursların nisbi bərabərlik prinsipi ilə paylanılması –** *bu, o mənanı verir ki, resurslar nisbi və mütləq kəmiyyətlərdən ibarət olaraq, **"hər kəsin payına uyğun", "hər kəsin qabiliyyətinə uyğun", "hər kəsin tələbatına uyğun", "hər kəsin qayğısına uyğun", "hər kəsin yardıma ehtiyacına uyğun", "hər təbəqənin ehtiyaclarına və imkanlarına uyğun"** olaraq bölünməlidir, paylanmalıdır. Resurslar həm də "tarazlı məkan iqtisadiyyatı" üzrə təşkil olunmalıdır. Burada tarazlılıq dedikdə, şəhərlərin və kəndlərin ölkə ərazisi üzrə nisbi bərabərlik, şərti bərabərlik əsasları ilə təşkil olunması nəzərdə tutulur. Şəhər-rayon iqtisadiyyat mərkəzləri başlıca olaraq ölkə sərhədlərində meydana gətirilir*;

**-resursların toplanmasında hər kəsin əməyindən istifadə olunması –** *bu, o deməkdir ki, sabitlik üçün əməklə məşğul olmaq ilkin şərtdir. Hər kəs öz əməyindən istifadə etməlidir. Dövlət çalışmalıdır ki, sosial tələbatların ödənilməsi və zənginlik üçün hər kəsin əmək qabiliyyətindən yararlansın. Bundan da dövlət və fərd zənginləşsin;*

**-infrastrukturun istehsalata, istehlaka və ticarətə yüksək səviyyədə xidmət etməsi –** *bu, o mənanı verir ki, obyektlər arasında operativ yerdəyişmə məqsədilə və rahat həyatın təmini üçün infrastruktur sahələri və obyektləri tələbata uyğun olaraq qurulmalıdır. İnfrastruktur* ***"zaman ticarətinə"*** *xidmət etməlidir. Rahat həyat, operativ və rəvan yerdəyişmə bir tərəfdən inkişafa və tələbata xidmət edir, digər tərəfdən də cəmiyyətdəki gərginliyin qarşısını alır;*

**-infrastrukturun sosial tələbatların və rahat həyatın ödənilməsinə yüksək səviyyədə xidmət etməsi –** *insanlar arasında əlaqələr, eləcə də insanlarla cəmiyyət arasında assosiativ əlaqələr məhz rahat infrastrukturdan və rəvan hərəkətlərdən asılıdır. Yüksək infrastruktur obyektlər və subyektlər arasında əlaqələrin zamanını sürətləndirir. Texniki vasitələr infrastruktura tətbiq olunmaqla zamanı qısaldır. Hərəkət artır. Beləliklə, infrastruktur həm keyfiyyət, həm də kəmiyyət baxımından sosial həyata xidmət etməlidir;*

**-istehsalatın (burada sənayenin) kənd təsərrüfatı ilə xidmət arasında aralıq mövqeyinin gücləndirilməsi –** *istehsalın kənd təsərrüfatı bölməsi ilə iqtisadiyyatın xidmətlər bölməsi qarşılıqlı tələblər əsasında işləməlidir. Sənaye bu iki sahəyə xidmət etməlidir.Ticarət istehlaka və istehsala xidmət edir. Kənd təsərrüfatı və xidmət sahələri arasında, həmçinin sənaye və bazar arasında infrastruktur birləşdirici vasitəni yerinə yetirir. Hər bir obyekt və mərkəz rəvan əlaqələrlə işləməlidir. Sənaye (burada şəhər sənayesi deyək) aralıq mövqeni tutmalıdır. Əhalinin demoqrafik cəhətdən tənzimlənməsi və resursların ödənilməsinə yönəldilməsi – resurslardan-resursların əldə olunması üçün istifadə olunması-əsas tələbə çevrilməlidir;*

**-istehsal və istehlak resurslarından səmərəli qaydada istifadə olunması –** *istehsal və istehlak resurslarından "qənaətçilik və keyfiyyətlilik, səmərəlilik" prinsipləri ilə*

*istifadə olunması zəruri amilə çevrilir. Tələbata cavab verəcək səviyyədə istehlak və istehsal resursları formalaşdırılır***;**

**-iqtisadi inkişafın tarazlı əsaslarının mövcudluğu –** *iqtisadi inkişaf dinamikasının məkan üzərində rəvan prosesləri təmin olunur. Məkan üzrə tarazlı istehlak mənbələri, obyektləri yaradılır. Həmin obyektlər yerlərdə olan tələbləri ödəyir. Həmçinin digər məkanlara da xidmət edir. Məkan üzrə yayılı olan obyektlər arasında əlaqələr şəbəkəsi təşkil olunur. Bu, tarazlı sistemə xas olan iqtisadiyyatın təşkilini təmin edir;*

**-inkişaf dinamikasının tarazlı qaydada həyata keçməsi** *– bu, o deməkdir ki, inkişaf tempi-elementlərin toplusunu meydana gətirən hadisələr – daxili şərtləndirici əsaslarla taraz olaraq bir-birini əvəzləyir. Tarazlıq daxildən keçidlə və həm də yeni tarazlığa keçidlə müşayiət olunur;*

**-gələcəyə əsaslanan iqtisadi sistemin təşkil olunması –** *bu o deməkdir ki, iqtisadi sistem gələcək üçün təxmini proqnozlaşdırma ilə müəyyən olunur. Proqnozlaşdırma gözləntilərin təxmin edilməsidir. Gözləntilər hadisələrin axarı ilə müəyyən olunur. Hadisələr gözlənilir, hiss olunur, duyulur. Nəticələrin təkrarlanması ilə hadisələr proqnozlaşdırılır. Sistem uyğunluqla qurulur. Demoqrafik vəziyyətlərin inkişafı nəzərə alınır. Yaşayış məskənlərinin inkişafı, gələcək tələbatlar və istehsal arasında uyğunluq tapılır.*

**-inkişafdan irəli gələrək cəmiyyət üzvlərinin maraqlarının müəyyən dərəcədə ödənilməsi –** *inkişaf tempinə müvafiq olaraq hər bir zamanda əldə olunan nəticələrin cəmiyyət üzvlərinin tələblərini ödəməyə yönəldilməsi prosesləri həyata keçirilir. Mövcud iqtisadi vəziyyətlə gələcək iqtisadi vəziyyət arasında üzvü bağlılıq meydana gətirilir;*

**-inkişafdan irəli gələrək cəmiyyət üzvlərinin maraqlarının zamana (burada həm də digər cəmiyyətlərlə müqayisəli zamana) uyğun şəkildə ödənilməsi –** *iqtisadiyyatda və cəmiyyətdə zaman ardıcıllığı təzahürdən və*

*dəyişikliklərdən meydana gəlir. Cəmiyyətlər fərqli inkişaf edir, təbii ki, bu da sistem və resurslar fərqindən asılı olur. İnkişaf etmiş cəmiyyətlər digər cəmiyyətlərlə müqayisədə yeni cəmiyyətlərin əsaslarını təşkil edirlər. Bu baxımdan da məkanlar üzrə zaman fərqləri meydana gəlir. Problem hər iki fərqli cəmiyyətlərin assosiasiyasında üzərə çıxır. Burada uyğunsuzluq yaranır. Uyğunsuzluq da inteqrasiyada problem yaradan ünsürləri məkanlardan-məkanlara transfer edir;*

**-cəmiyyətdə sağlam fizioloji insanların yetişdirilməsi –** *insanlar cəmiyyətin əsasını təşkil edən subyektlərdir. Subyektlər istənilən sistem və mexanizmlərdə tərkib elementlər və ünsürlərdir, komponentlərdir. Sistemin özünün sağlamlığı və möhkəmliyi başlıca olaraq komponentlərin sağlamlığından asılıdır. Sağlamlıq həm sərbəst əlaqələri meydana gətirir, həm də rəvan əlaqələr sistemini formalaşdırır. Sağlam düşüncə inkişaf elementlərini bir-birilərinə sağlam olaraq, rəvan əsaslarla transfer edir. Buna görə də sağlam əlaqələr, sağlam ünsiyyət başlıca olaraq sağlam fiziologiyadan çox asılıdır. Sağlamlıq özü elə tarazlı qaydada və bir-birinə lazımi səviyyədə cavab verəcək səviyyədə sistemin işləməsidir. Sağlam düşüncə belə sağlam fiziologiyanın əsaslarında durur. Cəmiyyətin sağlam bütövlüyü onun sağlam mexanizmisini meydana gətirir. Sağlam mexanizm isə nizamlı dinamizmə təkan verir. Sistemdaxili bütövlük bir-birini əvəzləyir;*

**-ekoiqtisadiyyatın formalaşdırılması –** *bu, iqtisadiyyatın ekoloji balans üzərində qurulması mənasını verir. Burada ətraf mühitin balansının yaradılması başlıca amilə çevrilir. Ətraf mühitdən nisbi normal qaydada istifadə amilləri prinsip olaraq mühüm əhəmiyyət kəsb edir;*

**-"tibbi iqtisadiyyatın" formalaşdırılması –** *burada insanların total qaydada xəstələnmələrinin (ərzaqlardan kütləvi zəhərlənmələrin) qarşısının alınması və digər patoloji xəstəliklərin yaranmasında ərzaqlarının rolunun aşağı endirilməsi nəzərdə tutulur. Genetik modifikasiya olunmuş*

*məhsulların qadağan olunması əsas prinsipə çevrilir. Bu məqsədlə, ərzaq istehsalında kənar qatqılardan az istifadə olunmalı və təbii üsullarla kənd təsərrüfatı inkişaf etdirilməlidir;*

**-inamlı və etiqadlı cəmiyyətin formalaşdırılması –** *bu o deməkdir ki, insanlar arasında qarşılıqlı etiqad və inamın formalaşdırılması əsas prinsip olmalıdır. Cəmiyyət riyakarlıq və yalançılıq, saxtakarlıq üzərində qurulmamalıdır. Burada televiziya və mətbuat mədəniyyət dərsi verən və vicdan amilini təbliğ edən əsas vasitələr kimi rol oynamalıdır. Məktəblər öz funksiyalarını artırmalıdırlar. İnamlı və sağlam etiqadlı cəmiyyətlərin yaradılması da nizamlı prinsiplərdən asılıdır. Belə cəmiyyətlərdə hər kəsin maddi baxımdan lazımi səviyyədə təmin olunması əsas götürülməlidir. Resursların kütləvi qaydada sistemdaxili və sistemxarici dövriyyəsi cəmiyyətin elementlərini, subyektlərini "paylayıcılıq" prinsipi ilə təmin etməlidir;*

**-etikalı cəmiyyətin formalaşdırılması –** *burada əxlaq qaydalarının hökm sürdüyü cəmiyyətlər nəzərdə tutulur. Əxlaq qaydaları insan hüquqları ilə vəhdət təşkil edir. İnsanların şərəf və ləyaqətlərinin, namus və vicdanlarının qorunması elə əxlaq qaydalarına əməl deməkdir. Hər kəsin əxlaq sərhəddi vardır. Bu sərhəd onun hüquq sərhəddi ilə eynidir. Əxlaqın qorunması elə pozitivliyin qorunmasıdır*;

**-sağlam psixikaya əsaslanan cəmiyyətin formalaşdırılması –** *sağlam düşüncə sağlam sistemin mexanizmisinin bazasında dayanır və onu inkişaf etdirən və dinamik olaraq və rəvan əsaslarla qabağa aparan əsas resurs, mənbə rolunu oynayır. Sağlam düşüncə o düşüncədir ki, hər bir prosesin baş vermə səbəblərini və qurtaracaq nəticələrini müəyyən hədlərdə dərk edə bilir. Sağlam düşüncələrin diskussiyası məhz inkişaf üçün zəruri olan hadisələri aydınlaşdırır. İntellektual səviyyəli (intuisiyalı, mərifətli) cəmiyyətin inkişafı da rəvan olur. Sağlam düşüncə öz hüquqlarını və insan kimi əhəmiyyətini və roluni*

*dərk edən düşüncədir. Sağlam düşüncə özündərki formalaşdırır və insanı şəxsiyyət kimi bioloji varlıqdan mənəvi varlığa doğru ucaldır;*

**-güzəştli və kompromisli (müəyyən problemlərin həllində dinc yollarla razılığa gəlmənin əsaslarını özündə ehtiva edən) cəmiyyətin formalaşması –** *bu o deməkdir ki, cəmiyyətin bütün üzvlərində bağışlama etikası, güzəşt etikası formalaşmalıdır. Elementlərin, tərkib kimi* ***"Gülümsəyən şəxslər"****in üzv olduğu cəmiyyətlərə ehtiyaclar duyulur;*

**-dövlət hakimiyyətinin cəmiyyətin adət-ənənələrinə qarışmaması** – *məlumdur ki, adət-ənənələr tarixən formalaşır və adət normaları və qaydaları ilə tənzim olunur. Adət-ənənələr xalqın milli kimliyini formalaşdırır və xalqın milli şüurunun münasibətlərdə və cəmiyyətdə realizəsini təmin edir. Adət-ənənələr xalqın təbiətə bağlılığının əsaslarını müəyyən edir, aşkarlayır. Adət-ənənələr sərbəstliyi və azad şəkildə yerinə yetirilmələri özündə əks etdirir. Adət-ənənələr tərəf kimi daha çox cəmiyyətə bağlıdır. Bu baxımdan rəsmi hüquq normaları və qadağalarla tənzim oluna bilməz. Həm də ona görə ki, adət-ənənələr məişət həyatının tərkib hissəsidir və insanların məişət həyatları ilə sosial həyat tərzləri arasında assosiativ bağlılıq yaradır. Qadağalar o zaman tətbiq oluna bilər ki, vərdiş olunmuş qaydalar kəskin şəkildə pozulur, ictimai-asayiş təmin oluna bilmir və onun pozulmasına müəyyən ünsürlər şərait yaradır. Dövlətin əsas funksiyası adətlər üçün normalar tətbiq etməkdən yox, sadəcə olaraq müşahidələr aparmaqdan ibarətdir. Dövlət hakimiyyəti xalqın adətlərinə qarışdıqda xalq tərəfindən müəyyən narazılıqlarla qarşılaşır. Bu halda dövlət özü ilə cəmiyyəti arasında mövcud olan pərdələri zəiflətmiş olur. Dövlət cəmiyyət qarşısında zəifləyir və hörmətdən düşür. Bu kimi hallar xalqın narazılığına səbəb olur və hər an sabitliyin pozulması üçün zəmin hazırlayan ünsürlər rolunu oynayır;*

**-hər bir şəxs üçün sərbəst hərəkət dairələrinin formalaşması –** *məlumdur ki, insanlar daima sərbəst hərəkət etməyi və azad yaşamağı, azad şəkildə fəaliyyət göstərməyi sevirlər. Bu, təbii bir istəkdir və haldır. İnsanlar öz üzərlərində olan pressləri (təzyiqləri) qəbul edə bilmirlər. Dövlət hakimiyyəti cəmiyyətdə sərbəst hərəkət dairələrinin yaranmasını təmin edir. Sərbəst hərəkət dairələri və məkanları sistemdə horizontal və şaquli olaraq formalaşır. İnsanlar sərbəst hərəkət dairələrini ətraf mühitlə əlaqədə, ətraf vasitələrlə əlaqədə özləri müəyyən edirlər. Rəsmi əlaqələrdə isə hüquq normaları ilə tənzim olunur.*

# III HİSSƏ:

## İnkişafa aparan ideal yollar

İnkişafa aparan ideal yollar öz mahiyyətində sabitliyə aparan ideal yollarla eynilik, oxşarlıq və bağlılıq, eləcə də alt-üstlük təşkil edir. Sabitlik inkişaf anında altdan üstə qalxanda ortaya çıxır, həmçinin üst alta enəndə meydana gəlir. Sabitlik inkişafın rəvan təzahürünün özü olur. İnkişaf və sabitlik dinamikliyə bağlıdır. Rəvan inkişaf təzahürü dəyişikliklərin sabit, müəyyən ardıcıl nisbi sürət formasında meydana gəlməsidir. Sabitliyin yolları inkişafın yollarının özündə olur və yaxud da ona paralel şəkildə mövcud olur. Paralellik ondan ibarətdir ki, sabitlik bərpa olunduqca inkişaf da davam edir. Sabitlik artan trayektoriya üzrə şərti bir xətti təşkil edir, rəvan inkişaf tempi isə digər xəttin əsaslarını meydana gətirir. İnkişaf davam etdikcə **"resursların qorunması"** amili formalaşır. Məsələn, daha çox resursları olan subyektlər (fərdlər, şəxslər) o resursları itirməmək üçün sabitliyə, sakitliyə can atırlar. Sakit şəraitdə resurslardan faydalanmaq istəklərini təmin etməyə çalışırlar.

***İnkişafa aparan ideal yolların aşağıdakılar olması qənaətinə gəlmək olar:***

**-ilk növbədə iqtisadi sistemin, onun tərkibi olan istehsalat, istehlak, infrastruktur, sosial sahələr strukturu, ticarət, vergi və maliyyə strukturlarının, qiymətli bazarlar sisteminin və onların qarşılıqlı əlaqələr mexanizmlərinin zamanın tələblərinə uyğun şəkildə qurulması –** *iqtisadiyyatın zamanla uyğunlaşması prinsipləri mühüm əhəmiyyət kəsb edir. Zaman iqtisadi bütövlüyün, vəhdətin əsaslarını meydana gətirir;*

**-inkişaf üçün sistemi təşkil edən ünsürlərin, ilkin bazaların və sistemlərin mövcudluğu -başlanğıc şərtlərinin təmin edilməsi.** *Təbii ki, dövlət adlanan təsisatlarda ilkin başlanğıc resursları mövcud olur. Dövlət resurs mənbəyi və subyekti olaraq resursları hərəkət vəziyyətində saxlamaq və yeni impulslar vermək üçün sistemli mexanizmə malik olur. Resursların tədricən artması elə dövlət strukturlarının mexanizmlərini böyüdür. Resurs imkanları horizontal və şaquli qaydada artırır;*

**-istehsalatla xidmət sahələri arasında koordinativ əlaqələrin mövcudluğu –** *xidmət sahələrinin çoxaldılması və işsizliyin aradan qaldırılması istehlaka olan tələbatları da artırır. İstehlak tələbatlarının artması ona səbəb olur ki, sənaye istehsalı artır. Sənaye istehsalı öz xammalını təbii ki, təbii resurslardan və emal məhsullarından götürür. İstehsalat xidmətin istəklərinə uyğun qurulur. Burada istehlak üçün bazar əldə edilir*;

**-istehsalatın və xidmətin iqtisadiyyat mərkəzlərinə çevrilməsi** – *kənd təsərrüfatı da daxil olmaqla, istehsalat mərkəzlərinin iqtisadiyyatda bazar rolunu oynaması əsas götürülür. Kənd təsərrüfatı bazarı digər resursların istehsalına həlledici dərəcədə əhəmiyyətli təsir göstərir;*

**-turizmin inkişafı üçün, iqtisadiyyatda, onun xidmət qolunda turizmin payını artırmaq məqsədilə beynəlxalq turizm sərmayəsi mərkəzlərindən birinə çevrilməsi –** *burada turisti cəlb edən marşrutların və obyektlərin müəyyən olunması labüd olur. Turizm axını proqnozlaşdırılır. İri kapital turizm üçün yararlı olan məkanlara axıdılır. Transmilli korporasiyaların turizm mərkəzləri açılır. Turizmin tələbatını ödəmək üçün də kənd təsərrüfatı sahələri inkişaf etdirilir;*

**-kənd təsərrüfatı ilə xidmət sahələri arasında istehsalatın tələblərinin müəyyən olunması** – *kənd təsərrüfatının istehsalını artırmaq və ona paralel olan və nisbətən eyni mövqedə qərarlaşan xidmətin sahələrini artırmaq*

*tələb olunur. Sənaye kənd təsərrüfatı ilə xidmətin arasında dayanır və hər iki istiqamətə fəaliyyət göstərir. Kənd təsərrüfatına güclü sərmayə qoyulur, əldə olunan bol məhsullar xidmət sahələrinə yönəldilir. Ərzaq istehsalatının da xidmətlərə yönəldilməsi əsas məqsədlərə çevrilir. Bir tərəfdə kənd təsərrüfatının genişləndirilməsi, digər tərəfdə isə xidmətin genişləndirilməsinin təmin olunması siyasəti həyata keçirilir. Hər iki mənbə arasında tarazlığın meydana gətirilməsi, sənayenin hər iki sahə arasında tələbatlara uyğun şəkildə qurulması siyasəti təmin olunur;*

**-resursların istifadəsində sərbəstliyin müəyyən olunması, geniş məkanların açılması –** *azad bazar iqtisadiyyatının tənzim olunma ilə təşkil edilməsi. Resursların istifadəsinin asan yolları və elmi texniki-tələblərin müəyyən edilməsi siyasəti həyata keçirilir;*

**-cəmiyyətin potensialından kollektiv şəkildə istifadə olunması-***azad işçi ordusundan səmərəli istifadə olunması və əmək bazarının sərbəst formalaşdırılması təmin olunur. Məişətdə olan işsizliyin cəmiyyətə xələl gətirəcəyindən ehtiyat edərək, onların işlərə cəlb olunması labüd olur və xüsusilə, xidmət sahələrində onların potensialından yararlanmaq lazım gəlir***;**

**-cəmiyyətin potensialından sistemli qaydada istifadə olunması –** *cəmiyyət öz potensialından sistemli qaydada və zaman ardıcıllığı və müəyyən kəmiyyətlə istifadə etməlidir. Sistemli istifadə sistemli istehsalatın əsaslarını təşkil edir. İstehsalat qarşılıqlı ölçülər prinsipi ilə istehlakçıya xidmət edir***;**

**-kreativliyin dəyərləndirilməsi və ondan istifadə olunması –** *bu əsasda yaradıcılığı olan və istedadlı şəxslərin önə çəkilməsi siyasətindən geniş istifadə olunur. Onların potensialından ümumiləşdirilmiş qaydada yararlanılır. İstedadın tətbiqi və üzərə çıxarılması əhəmiyyətli dərəcədə həyata keçirilir;*

**-dövlət quruluşunun xalqın milli xarakterinə uyğun şəkildə qurulması –** *bu o deməkdir ki, xalqın tarixi, regionda yerləşməsi və milli dəyərləri, ənənələri nəzərə alınır və ona uyğun şəkildə sistem qurulur***;**

**-beynəlxalq resurslar bazarları və hazır məhsullar bazarları üçün xarici siyasətin ağılla və düşünülmüş şəkildə həyata keçirilməsi –** *burada başlıca məqsəd regionda "böyük bazar – istehlak bazarı, xammal bazarı, məhsullar bazarı-məkanına sığınmaq" strategiyasını müəyyən etmək və təmin etmək. Bu məqsədlə böyük dövlətə yaxınlaşmaq və müstəqil iqtisadi sistem olmaqla bərabər, onun iqtisadiyyatının davamı və tərkibi olmaq strategiyasını müəyyən etmək əsas prinsiplərə çevrilir. Siyasi sülh şəraitində yaşamaq və iqtisadiyyatı buna yönləndirmək prioritet strategiyanı təşkil edir. Beynəlxalq iqtisadi sabitliyin əsaslarını möhkəmləndirmək lazım gəlir. Sabitlik sülh üçün lazım olur və sülh də sabitliyə xidmət edir;*

**-dövlət hakimiyyəti ilə vətəndaşlar arasında "dəmir torların" aradan qaldırılması –** *vətəndaşlarla hakimiyyət arasında torların dağıdılması və əhalinin incidilməmsəi siyasətinin həyata keçirilməsi lazımdır. "Dəmir torları toxuyanlar"ı, zərərli ünsürləri məhv etmək lazımdır. Burada dövlət hakimiyyəti və xalqın birgə işıtirakı labüddür;*

**-"təbii hüquqların marketinqi"nin aradan qaldırılması –** *vətəndaşların təbii hüquqlarının hakimiyyətin bir çox nümayəndələri tərəfindən "alqısı-satqısını" və bazarlamasının qarşısını almaq lazım olur. Bu anda işgüzar subyektlər də ölkə daxilində sərmayə qoymaqda maraqlı olur;*

**-əhalinin şəhərlərdən kəndlərə axınlarının təşkil edilməsi –** *şəhərlərin həddən artıq genişlənməsi yaşayış məskənləri arasında tarazlı əlaqələri itirir. Kənd təsərrüfatı məhsullarının qıtlığını və bazarlarda qiymətlərin artımını yaradır. Strateji məhsulların istehsalı azalır. Eyni zamanda sənaye ilə kənd təsərrüfatı arasında balanslı əlaqələr sistemi pozulur. Torpaqların istifadə olunmaması məhsul*

*çatışmzalığını yaradır. Bununla yanaşı, insanların ekoloji taraz mühitdə yaşamaları da təmin edilə bilmir. Şəhər sıxlığı bezdirici həyatın formalaşmasına səbəb olur. Buna görə də sağlam həyat üçün "əhalinin paylanılması" proseslərinin həyata keçiriməsi lazım gəlir.*

***Əhalinin kəndlərə geri axını iqtisadi- liberal və inzibati-radikal yollarla üçün bu kimi tədbirlər görülür:***

*- şəhərlərdə kirayə evlərin qiymətləri qaldırılır;*

*-şəhərlərdə pasport rejimləri tətbiq olunur;*

*-kənd yerlərində sənaye məhsullarının qiymətləri aşağı endirilir;*

*-kənd yerlərində işıq və qazın qiyməti şəhərə nisbətən ucuz olur;*

*-benzin və digər yanacağın qiymətləri şəhərlərə nisbətən aşağı olur;*

*-kənd yerlərində orta məktəbdə oxuyan uşaqlara yaxşı oxumaqlarına görə təqaüdlər verilir;*

*-kənd yerlərində mədəniyyət obyektlərinin sayı çoxaldılır, səyyar teatrlar, sərgi salonları, kitabxanalar və s. təşkil edilir;*

*-regional və rayon televiziyalarının fəaliyyəti genişləndirilir;*

*-dövlət məmurlarının kəndlərə tez-tez səfərləri təşkil edilir;*

*-mərkəzi kənd televiziyası açılır;*

*-kəndlərlə mərkəzi hakimiyyət arasında canlı bağlantılar yaradılır;*

*-kəndlilər üçün vergi güzəştləri tətbiq edilir;*

*-kəndlilər üçün kənddə istifadə olunan və xaricdən gətirilən texnikalara gömrük rüsum güzəştləri tətbiq olunur;*

*-"kənd-bazar-şəhər" harmonik vəhdəti yaradılır;*

*-mütəxəssislərin kəndlərə axını üçün yüksək əmək haqları müəyyən olunur;*

*-kəndlərdə yaşayan təqaüdçülərə şəhərlərə nisbətən yüksək məbləğ təyin edilir;*

*-iqlim şəraitinə görə -məsələn, dağlarda və isti aran rayonlarında yaşayış şəraitinə görə, əlavə güzəştlər verilir;*

*-çoxuşaqlı kəndli ailələrinə dövlət tərəfindən yardımlar edilir;*

*-kəndlilər üçün fəxri adlar və mükafatlar təsis olunur-məsələn, "Azərbaycan kəndlisi mükafatı";*

*-parlament iclaslarının çoxu regionlarda keçirilir və digər fərqləndirici tədbirlər (şəhərlərlə müqayisədə) görülür;*

*-bayram günlərində, dini bayramlarda və dini aylarda kəndlilər üçün yardım paketləri müəyyən olunur;*

*-"kəndli gənci" psixologiyası formalaşdırılır və kənd gəncinin mədəni ruhu yüksəldilir;*

*-"kənd gənci" fəxri adı təsis olunur və mükafatlar verilir;*

*-müəyyən müddətə kəndli proqramları qəbul olunur və s.*

*Əhalinin urbanizasiyanın qarşısının alınmasında radikal vasitələrdən o halda istifadə olunur ki, onunla paralel olaraq və ya da ondan əvvəl liberal üsullar tətbiq olunur. Liberallığın yerinə yetirilməsində müəyyən inzibati tədbirlər görülür.*

## IV HİSSƏ:

## Sülhə aparan ideal yollar və şəraitlər

Məlumdur ki, sülhə gəlmək, barışıq əldə etmək qarmaqarışıqlığın müəyyən formada müəyyən zamandan sonra sona yetməsidir. Müharibənin, münaqişənin sona çatmasını sülh sazişləri, müqavilələri, protokolları rəsmiləşdirir. Sülh də müharibə kimi vəziyyəti dəyişdirən bir vasitədir. Sülh dəyişmiş vəziyyətlərin kəskin şəkildə eyni məzmunla təkrarən dəyişməsinin qarşısını alır. Yəni, dağıdıcılıqla xarakterizə olunan müharibələrin, döyüş trayektoriyalarının qarşısını alır. Yeni bir vəziyyətə keçidlər edilir. Sülhün əldə edilməsi məcburiyyətdən, zəruriyyətdən, həm də istəklərdən, iradələrdən meydana gəlir. Sülhdən sonra yaranan vəziyyət çoxları üçün istənilən olur, çünki sistem bərpa olunmağa başlayır. Sakit vəziyyətə doğru dəyişiklik meydana gəlir.

Sülhə aparan ideal yollar sabitlikdən, kompromislikdən və inkişafdan keçir. Sülhə gəlmək müharibə itkilərindən cana doymaqdan yaranır, eləcə də tərəflərin birinin istəyinə nail olmasından meydana gəlir. Sülh həm başlanğıc (sabitlik üçün), həm də son (müharibə üçün) vəziyyətidir. Hər iki halda inkişaf və sabitlik təmin edilir. Sabit şəraitdə inkişafın davam etməsi ardıcıl və davamlı sülhün əldə olunmasını təmin edir.

### *Sülhün əldə olunması şəraitləri və yolları:*

Sülhün əldə olunması şəraitləri həm sülhü təmin etmək üçün tələb olunan şəraitlərdən ibarətdir, həm də sülhə nail olunma şəraitlərini özündə əks etdirir.

**-müharibədən, təhlükələr altında yaşamaqdan, itkilərdən cana gələrək rahat həyatı istəmələr və arzular –** *müharibə, silahlı münaqişələr resursların məkanlar üzrə*

*dağılmasını tələb edən bir vəziyyətdir. Müharibələr zamanı müəyyən məkanda mövcud olan sistemli resurslar və elementlər arasında olan əlaqələr öz vərdiş olunmuş sabit formasını itirir. Bu itirmə zamanı yeni sistemin yaranması prosesləri baş verə bilmir. Sistem daima çalxalanmış vəziyyətdə qalır. Cəmiyyət və insanlar depressiya altında yaşayırlar və ehtiyaclarını sistemli qaydada və yüksək səviyyədə ödəyə bilmirlər. Bu vəziyyətdən bezən insanlar sülhü arzu edirlər. Hətta hərbçilər də döyüşlərdən imtina edirlər, yayınırlar. Dağıdıcı təfəkkür insanların vəhşiləşmiş obrazını yaradır;*

**-sabitliyin mövcudluğu və dinamik inkişaf şərtlərinin təmin olunması –** *cəmiyyətdə sabitlik, regionda və regiondan kənarda dövlətlər arasında, sabitlik və mülayim inteqrasiya şərtləri sakitlikdən meydana gəlir. Sabitlik vərdiş olunmuş sakit vəziyyətlərdir. Sabitlik sülh sistemlərinin meydana gəlməsi və sülh sistemlərinin mövcud olması üçün lazım olur. Sabitlik şəraiti sülhə təkan verir. Sabitlik özündə sülhü başladır, sülh sabitlik trayektoriyasını formalaşdırır. Sabitlik yaranarkən elementlər müəyyən trayektoriyalar üzrə rəvan şəkildə əlaqələrə daxil olur;*

**-qarşılıqlı razılaşmalar –** *qarşılıqlı razılaşmalar müəyyən şərtlər əsasında münaqişədə və müharibədə olan tərəflər arasında mövcud olur. Münaqişə və müharibələr çox zaman əvvəlki status-kvo ilə nəticələnmir. Bu baxımdan da dəyişikliklər meydana gəlir, yeni şəraitlər üzərə çıxır. Hadisələrin, proseslərin* ***"sürüşməsi"*** *halları yaşanır. Bu baxımdan da güzəştlər etmək lazım gəlir. Güzəştlərdən sonra dinc şəraitdə də əvvəlki status-kvo vəziyyətini müəyyən qədər əldə etmək mümkün olur;*

**-tərəflərarası güzəştlər –** *burada güzəştlər münaqişələr və müharibələrin baş verdiyi obyektlər (burada səbəbləri əks etdirən faktlar, sübutlar nəzərdə tutulur) üzrə tərəflər arasında müəyyən güzəştlərin edilməsi başa düşülür. Burada güzəştlər*

*işğal olunmuş torpaqların müəyyən şərtlər əsasında geri qaytarılması, münaqişələrin baş vermə səbəbləri üzrə obyektlərdə olan güzəştlərdən ibarət olur;*

**-güzəştlər üçün şəraitin seçilməsi** – *güzəştlər üçün şəraitlərin yetişməsi və seçilməsi üçün müəyyən danışıqların aparılması və kompromislərin edilməsi vacib olur. Güzəştlər təbii ki, yeni vəziyyətləri meydana gətirir. Burada yeni şəraitlər və sonrakı qazanclar əslində əvvəlki itkilərin sığortalanmasını təmin edə bilər. Güzəştlərdən sonra inteqrasiya şəraitində meydana gələn yeni inkişaf dalğaları əvvəlki itkilərin təkrarən qazanılması üçün əsas ola bilər;*

**-güzəştlər üçün tarazlı vəziyyətlərin müəyyən olunması –** *güzəştlər tarazlı vəziyyətlərin yaradılması üçün ilkin razılaşmalardan meydana gəlir. Burada nisbi tarazlıq elə sakit və sabit, eləcə də dinc vəziyyətlərdən ortaya çıxır. Tarazlı vəziyyətlər ilkin razılaşmadan meydana gələn yeni hərəkətlərdən ortaya çıxır. Sabit şəraitdə elementlərin əlaqələri məhz tarazlığı meydana gətirə bilir. Münaqişələrdən və müharibələrdən sonra yeni tarazlı vəziyyətlər formalaşa bilir və bu anda məkan, imkan və şərait bir qədər dəyişmiş formada peydah olur;*

**-qeyri-mütləq bərabər tarazlıqlar üçün şəraitlərin yaranması –** *təbii ki, tarazlıqlar tam bərabər ola bilməz. Burada güzəştlər əvvəlki tarazlığı və sabit vərdiş olunmuş vəziyyətləri tam şəkildə yarada bimir. Müharibələrdə və münaqişələrdə dağıdılmış və məkanları dəyişdirilmiş resursların tam şəkildə əvvəlki vəziyyətinə qaytarılması qeyri-mümkün bir hala çevrilir. Güzəştlər dəyişikliklərin əsaslarında dayanır. Qeyri-mütləq tarazlıqlar təkraraən yeni mütləq tarazlıqlara, həm də yenə də nisbi tarazlıqlara gətirib çıxara bilir;*

**-tərəflər arasında güclərin (güclülərin) qəbul olunması strategiyası –** *reallıqlar və real güclər strategiyasına uyğun olaraq güclü tərəfin qəbul olunması halları yaşanmalıdır. Zəif tərəf əks güclü tərəfin potensialını nəzərə almalıdır. Regionda*

*güc amili nəzərə alınmalıdır və güclü tərəf, həmçinin zəif tərəf qarşılıqlı güzəştləri həyata keçirməlidir. Münaqişə predmetlərində əvvəlki vəziyyətlər üzrə dəyişikliklər ola bilər. Bu kimi dəyişikliklərdən sonra yeni vəziyyətlərin meydana gəlməsi təbii ki, tərəflərə yeni qazancların əldə edilməsinə imkan verə bilər. Həm güclü tərəfdə, həm də zəif tərəfdə mövcud olan resurslar sülh şəraitində hər iki tərəfə fayda gətirə bilər. Sülh müharibədə olmuş və aidiyyatı olan üçüncü tərəflərin qazanclar əldə etməsinə səbəb ola bilər;*

**-tərəflər arasında güclü tərəfin haqqının qəbul olunması**-*dünya siyasətinin tarixi onu sübut edib ki, böyük dövlətlər daima öz ətraflarında güclənmə, sərhədlərini bərkitmə siyasəti həyata keçirir. Bu zaman sərhədlərdə yaşayan dövlətləri müxtəlif vasitələrdən istifadə etməklə öz tərəflərinə çəkirlər. Hətta öz ərazilərinə qatırlar və genişləndirirlər. Bu anda güclü tərəfin siyasəti haqlı olur. Zəif dövlətlər isə assimilyasiya və inteqrasiya olunma siyasəti ilə üzləşirlər. Sülhün mövcudluğu üçün mütləq qaydada güclü tərəfə sığınmaq lazım olur. Bu, beynəlxalq təhlükəsizlik siyasətinin özü demək olur***;**

**-tərəflər arasında nisbətən az gücə malik olan tərəflərin qəbul olunması –***humanizm prinsipinə müvafiq olaraq, güclü tərəflər özlərindən az gücə malik olan tərəflərin mövcudluğunu, statuslarını qəbul edirlər. Dünya siyasəti müstəvisi rəngarəng subyektlərdən ibarətdir. Rəngarənglik və tərəflərin müxtəlif olması təbii ki, dünya siyasətinin müxtəlifliyini, həm də vahidliyini, həmçinin tarazlı vəziyyətini meydana gətirir. Güclü tərəflər sistemlilik prinsiplərindən irəli gələrək və öz güclərinin müqayisəsi üçün istinad dayaqlarının zəruri mövcudluğundan irəli gələrək, ətraf kiçik dövlətlərin mövcudluğunu qəbul edirlər. Ətraf kiçik dövlətlər böyük dövlətlərin siyasəti üçün "sılğorta" funksiyasını yerinə yetirir. Böyük dövlətlər kiçik dövlətlərdə sanki müdafiə olunurlar və təhlükələri özlərindən kənara atırlar;*

**-xalq diplomatiyasının həyata keçirilməsi** – *təbii ki, xalqlar arasında mədəni inteqrasiya, siyasi və iqtisadi inteqrasiya bəşəriyyətə xidmət edir. Bəşəriyyət rəngarəng-likdən meydana gələn bir bütövə, vəhdətə çevrilir. Cəmiyyətlər arasında birbaşa əlaqələrin mövcudluğu müəyyən siyasi qrupların, ekstremist toplaşmaların fəaliyyətlərinin qarşısını alır;*

**- böyük dövlətlər ətrafında mövcud olan kiçik dövlətlər beynəlxalq münasibətlərdə "siyasi heliosentrizm" adlanan reallıq nəzəriyyəsinə əməl edirlər –** *böyük dövlətlər ətrafında yerləşən kiçik dövlətlər böyük dövlətlərin maraqlarını, periferiya və sərhədləri üzrə* ***"siyasi kolizey"*** *maraqlarını nəzərə alaraq, onlarla daha yaxın əlaqələr qurmaq strategiyasını yerinə yetirirlər. Regionda, sərhəddə yerləşən böyük dövlətə sığınma təbii ki, böyük dövlətdə arxayınçılığı meydana gətirir. Bu addım da regionda sülh yaranmasına xidmət edir;*

**-xalqların qarışması siyasətinə üstünlük verilir –** *humanizm prinsiplərindən irəli gələrək xalqların qarışdırılması, həm mədəni, həm də bioloji baxımdan (burada nigahlar yolu ilə qarışıq xalqlardan yeni insanların daha da çoxaldılması)-prosesləri həyata keçirilir. Sivilizasiyaların inteqrasiyası və qovuşması üçün "aralıq" coğrafi-siyasi və mədəni ölkələrə, ölkələr qovşağına, ölkələr qurşağına dünyanın sülh mərkəzləri və* ***"sülh kəmərləri"*** *(bu kəmərlər müharibələrin baş verməsi üçün hərəkətləri məhdudlaşdırır və qarşılıqlı təzyiqləri yumşaldır) kimi əhəmiyyət verilir. Bu kimi məkanlar böyük dövlətlər arasında* ***"yastıq"*** *rolunu oynayırlar;*

**-ölkələrdə beynəlxalq sülh şəhərləri və yaşayış məskənləri qurulur**-*bu o deməkdir ki, imkanları olan dövlətlərdə, xüsusilə, "sülh kəmərini" təşkil edən dövlətlərdə bu kimi yaşayış məskənləri təşkil edilir. Həmin məskənlərdə xalqların nümayəndələri qarışıq şəkildə yaşayırlar;*

**-dünyada bitərəf statuslu dövlətlərin sayı artırılır, hərbi bloklar öz fəaliyyətini dayandırır, ya da məhdudlaşdırır –** *təbii ki, dünyanın bir müəyyən məkanında böyük dövlətlər ətrafında hərbi qurumların təşkil olunması, dövlətlərin hərbi məqsədlər üçün vahid bir sistemdə toplaşması digər qütbdə yerləşən dövlətlər üçün təhdidləri, şübhələnmələri meydana gətirir. Təhdid içərisində, şübhələrdə yaşayan dövlət də məcburi olaraq öz sərhədlərində yerləşən dövlətlərdən "sanitar kordonlar", təhlükəsizlik qurşaqları formalaşdırmağa çalışırlar. Bu da özlüyündə dünyanın maraq dairələrinə bölünməsinin əsaslarını zəruri olaraq ortaya çıxarmış olur;*

**-humanitar yardım strategiyası tez-tez qurulur və həyata keçirilir –** *bu o deməkdir ki, dünyanın kasıb məkanları daima imkanlı dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən nəzarətdə saxlanılır. Çünki terror, müharibə və digər xaotik vəziyyətləri yaradan vasitələr məhz daha çox kasıb ölkələrdə yetişir. Burada həm də radikalizm meydana gəlir. Sülhə təhdidlər törədən ünsürlərin bu kimi dövlətlərdə yetişməsi sistem xarakterini alır. Bu baxımdan da kasıbçılığın aradan qaldırılması lazım gəlir. İmkanlı dövlətlərin humanitar kanalları bu kimi dövlətlərə daima olmalıdır və daha da əsaslı və geniş olmalıdır.*

# V HİSSƏ:

## Dövlət və hakimiyyət rəhbərlərinin fəaliyyətinin tənqid olunmasının əsasları

**Dövlətə xalq nəzarəti.** Dövlət formasına görə ictimai müqavilə qurumudur. İnsanların maraqlarını və iradəsini müəyyən mərkəzə toplayan qurumdur. Məzmun baxımından isə xidmət təsisatıdır. Dövlətin daxildə və beynəlxalq münasibətlərdə fəaliyyəti siyasət adlanır. Siyasət müəyyən bir mərhələdə aktlarla (sənədlərlə) yekunlaşır, tamamlanır və icra olunur. Sənədlərdə dövlət siyasətinin hüquqi-siyasi məzmunu və istiqamətləri əks olunur. Siyasət dövlət sənədlərinin ardıcıl qəbulu və icrasından ibarət olan sistemli prosesləri özündə ehtiva edən bir aktdır. Dövlət insanları cəmiyyətdə yaşadan bir qurumdur, insanların münasibət və əlaqələrinin sferalarını müəyyən edir. Dövlət sərhədləri və sərhədlərindən kənar məkanlar vətəndaşların maraq sferaları rolunu oynayır. Bu baxımdan da dövlətin daxili və xarici siyasəti formalaşmış olur. Dövlət öz vətəndaşlarının milli və beynəlxalq maraqlarını təmin etmək məqsədilə ölkədaxili və beynəlxalq siyasət həyata keçirir. Dövlət insanlar arasında onların maraqlarından irəli gələrək, maraqlarının ödənilməsinə istiqamətlənmiş münasibətləri və əlaqələri tənzim edən, sosial-rifahını təmin etməyə şərait yaradan bir qurumdur. Dövlət onun elementləri tərəfindən nəzarət obyektinə çevrilən və həm də siyasi bir mexanizm olaraq insanları nəzarətdə saxlayan bir təsisatdır. Dövlət bir qurum kimi fərdi olaraq daxilən nəzarət olunur. Əlaqələr sistemi elə nəzarətin əsaslarını meydana gətirmiş olur. Xarici əlaqələrdə isə dövlətlər bir-birilərinə nəzarət edirlər. Bu mexanizm də qarşılıqlı əlaqələrdən formalaşır. Nəzarət beynəlxalq bütövlüyü, həmrəyliyi, sistemliliyi, eləcə də sistem daxilində parçalanmanı, fikir ayrılığını ortaya qoyur. Prinsip etibarilə xalqlar dünyada bir-birilərinə dövlətləri vasitəsilə

nəzarət edirlər. (**Qeyd:** informasiya vasitələri qarşılıqlı nəzarət mexanizmsini formalaşdırır. İnformasiya vasitələri ilə dövlətlər və vətəndaşlar ümumdünya məkanı üzrə baş verən hadisələrlə bağlı məlumatlar əldə edirlər. İnformasiya vasitələri qarşılıqlı ötürücü funksiyanı yerinə yetirir, aydınlaşdırmanı təmin edir). Digər tərəfdən, dövlətlər bir-birilərinə nəzarət etmək məcburiyyətində qalırlar. Məcburiyyət ondan ibarət olur ki, onlar qarşılıqlı olaraq resurslardan istifadə edirlər, həm də sabitlik üçün təhdid törədici ünsürlərin yaranmasına imkan verməmək əsas strategiyaya çevrilir. Dövlətlər bir-birilərinin ərazilərində geostrateji maraqların təmin olunması üçün də nəzarət mexanizmini formalaşdırırlar. Bu məqsədlə, fəaliyyətə istiqamətlər və təkan verən normalar və qaydalar formalaşır.

Hələ qədimdən məlumdur ki, dövlət xalq üçün təşkil olunan və xalqın sistemli həyatı, xoşbəxt və firavan həyatı üçün fəaliyyət göstərən bir qurumdur. Dövlət olan yerlərdə tərəflər formalaşır. Hər bir tərəfin öz hüququ, vəzifə və səlahiyyətləri meydana gəlir. Maraqların ödənilməsi üçün qarşılıqlı fəaliyyət həyata keçirilir. Qarşılıqlı fəaliyyət nəzarəti meydana gətirir.

Dövlət xalqın siyasi törəməsidir, həm də müəyyən sərhədlərin daxilindəki məkanda xalqın bütövlüyünü, həmrəyliyini təmin edən bir qurumdur. Dövlət siyasidir, ona görə ki, onun fəaliyyəti sistemlidir və siyasət adlanır. Dövlət və xalq həm bütövdürlər, həm də şərti tərəfləridir. Xalq və onun hakimiyyəti dövləti daxildə və xaricdə təmsil edir. Dövlət də xalqı təmsil edir və beynəlxalq münasibətlərdə əsas tərəf kimi çıxış edir. Dövlət və xalq "ayrı-ayrı" tərəflər olduğundan hər ikisinin hüquqları vardır. Xalq dövlətə hüquq verir, dövlətin də əsas hüququ xalqın hüquqlarını təmin etməyə əsaslanır. Xalqın münasibətlər və əlaqələr sistemindən ibarət olan bütövlüyü qoruyur. Deməli, əsas bazada xalqın, vətəndaşın, şəxsin, insanın hüquqları dayanır. Tərəflər varsa, onlar bir-birilərinə nəzarət etmək funksiyalarına malik olurlar. Bu nəzarət funksiyası hər iki tərəfin resurslardan faydalanmasına səbəb

olur. Dövlət daha çox xlaqın maraqlarını yerinə yetirməyə çalışır ki, özünü itirrməsin. Yəni, subyekt kimi fəaliyyət göstərsin. Çünki resurs az olan yerdə dövləti də bir qurum kimi formalaşdırmaq qeyri-mümkündür. Həmçinin formalaşmış dövlət də azalan resurslardan öz formasını itirə bilər. Bu baxımdan da dövlətin dayanıqlığı xalqın maraqlarını təmin etməkdən meydana gəlir.

Xalq öz dövlətini qurduğu üçün dövlətinin, hakimiyyətinin fəaliyyətinə, xidmətlərinə nəzarət etmək funksiyasına, vəzifə və öhdəliyinə malikdir. Həm də xalq dövlətin əsas elementidir (məkanla birlikdə). (**Qeyd:** məlumdur ki, dövlətin tərkib elementlərinə aiddir: xalq, müəyyən sərhədləri olan ərazi. Bu iki baza elementin vəhdətindən meydana gəlir: -hakimiyyət, onların idarəetmə qurumları, dövlətin rəmzləri (tanıtım əlamətləri-bayraq, gerb, himn, milli valyuta), atributları; istifadə resursları, əlaqə resursları və s.).

Xalq öz hakimiyyətinə, qanunların icrasına həm ictimaiyyət yolu ilə (məsələn, ayrı-ayrı ictimai və qeyri-hökumət təşkilatları, partiyalar yolu ilə, ombudsmanlar-dövlət hakimiyyəti ilə cəmiyyət arasında əlaqə yaradan şəxslər-vasitəsilə), həm də müəyyən qurumları ilə, məsələn, məhkəmə hakimiyyəti yolu ilə (prokurorluq orqanları qanunda nəzərdə tutulmuş qaydada qanunların icrasına nəzarət edir), qanunverici məclislərdə (xalq məclislərində) təmsil olunan nümayəndələri vasitəsilə nəzarət edir. Nəzarətin mexanizmləri formalaşdırılır və sistem xarakteri kəsb edir. Xalq hakimiyyət qurumlarına, hakimiyyət qurumları da cəmiyyətə nəzarət edir.

"Hər kəs hüquq normasına tabedir" prinsipi ilə dövlət rəhbəri və hakimiyyət xalqın onlar üzərində nəzarətini təmin etməyə borcludurlar. İctimai təftişlər daima hakimiyyəti nəzarətdə saxlamalıdır ki, hüquq normalarının icrası zamanı qaydalar pozulmasın. Xalq daima öz hakimiyyətinə nəzarət refleksinə, reaksiyasına malik olur. Hakimiyyətə, dövlət rəhbərinin fəaliyyətinə nəzarət təbii ki, həm də hesabat

xarakterli olur. Rasional cəmiyyətlərdə hüquq pozuntularına dərhal reaksiya verilir. Resurslardan düzgün istifadə, dövlət büdcəsinin və digər dövlət ehtiyat fondlarının vəsaitlərinin xərclənməsi haqqında məlumatlar daima informasiya vasitələri yolu ilə xalqa çatdırılmalıdır. İnformasiya vasitələri məhz məlumat daşıyıcı funksiyanı yerinə yetirir. Cəmiyyətin sifarişini dövlətə, dövlətin idarəetmə vəziyyətini isə cəmiyyətə çatdırır. İnformasiya vasitələri siyasi-icitmai prosesləri vətəndaş-dövlət vəhdətində aşkarlayır.

Siyasi struktur və siyasi idarəetmə mexanizmlərinin qanunauyğunluğundan irəli gələrək, hər bir dövlət sistemi öz-özünə həm daxildən nəzarət etməli, həm də xaricdən nəzarət olunmalıdır. Nəzarəti həm dövlət hakimiyyəti cəmiyyət üzərində edir. Məsələn, dövlət hakimiyyəti qanunlara nəzarət yolu ilə onların pozulmasının qarşısını alır, ictimai asayişi və siyasi sabitliyi qoruyur. Həm də cəmiyyət dövlət üzərində həyata keçirir. İctimai şəxslər yolu ilə hakimiyyətə nəzarət funksiyası yerinə yetirilir. Hər iki tərəfdə siyasi proseslərin gedişatı izlənilir və balans yaranır. Bu yolla sabit və dinamik inkişafa nəzarət olunur. Dövlətlərə həm də dövlətlərin özləri tərəfindən beynəlxalq nəzarət həyata keçirilir. Beynəlxalq hüquq normalarının icrası, əməl olunması prosesləri yoxlanılır, müşahidə edilir. Beynəlxalq təşkilatlar (məsələn, BMT) beynəlxalq aləmə nəzarət funksiyasını yerinə yetirir, bu baxımdan da hesabatlar tələb edir.

Dövlətin vətəndaş üzərində nəzarəti ilk növbədə qayğıya, diqqətə, problemlərinin həlinə əsaslanır. Bununla yanaşı, nəzarətin digər forması isə qanunların pozulmasına yol verməməkdən ibarətdir.

Nəzarət zamanı müxtəlif vasitələrdən istifadə olunaraq qüsurlar aşkarlanır. Qüsurlar sistemi pozan, qaydaları və yolları pozan, rəvan gedişata mane olan ünsürlər və faktorlar hesab olunur. Bu anda qüsurların aradan qaldırılması zərurəti meydana gəlir.

Dövlət pozitiv qurum funksiyasını yerinə yetirməyə məcbur olan bir qurum olduğundan, həm də xidmətlər göstərmək onun təbii mahiyyətində olduğundan insanlar dövlətdən daha çox şeyləri gözləyirlər, umurlar. İnsanlar dövlətə "təmiz, pak bir qurum" kimi baxırlar. Bu baxımdan da sistemin daxili norma və qaydalarının düzgün icrasını istəyirlər. Bir çox əyriliklər baş verdikdə isə, həmin əyriliklərlə barışmamaq istəyində olurlar. Öz etirazlarını bildirirlər. Etirazlar fərdi və kollektiv şəkildə meydana gəlir. Etirazlar başlıca olaraq dövləti təmsil edən dövlət rəhbərinə və hakimiyyətə ünvanlanır.

**Xalqa dövlət nəzarəti.** İstənilən münasibət və əlaqələr formasında tərəflər iştirak etdiyindən qarşılıqlı vəzifələr və funksiyalar yaranır. Münasibətlər və əlaqələr fonunda sərhədlər müəyyən edilir. Buradan da öhdəliklər ortaya çıxır. Çünki hərəkət özü sabitlik üçün onları tələb edir. Həmin vəzifə və funksiyalar özündə məsuliyyəti və öhdəliyi yaradır. Bu baxımdan da dövlət və xalq şərti tərəflər (burada bütövlüyün tərkibi olan tərəflər) olduğundan qarşılıqlı vəzifə və öhdəliklərə malik olurlar. Bir-birilərinin üzərində məsuliyyət daşıyırlar. Buna görə də dövlətin də xalq üzərində nəzarəti formalaşır.

Dövlət xalqın yaratdığı ictimai-siyasi –milli təşkilati qurum olduğundan, onun fəaliyyətinin əsas obyekti də xalq olur. Xalqın maraqlarının təmin olunması, bu baxımdan istiqamətləndirilməsi əsas vəzifələri əks etdirir. Dövlət xalqın təşkilatlanmış siyasi təsisatı olmaqla, həm də xalqın təşkilatlanmasında (ictimai, siyasi, iqtisadi, mədəni və digər aspektlərdə) böyük rol oynayır. Dövlətin əsas funksiyası xalqın, onun tərkibi olan vətəndaşların sistemli qaydada maraqlarını təmin etməkdən ibarətdir. Maraqların özü də sistemləşir. Tərkib baxımından müxtəlif qrupların müxtəlif maraqları mövcud olur. Dövlətin funksiyası fərdi və qrup halında, kollektiv əsaslarla maraqları təmin etməkdən ibarətdir. Maraqların təsnifatını da məhz dövlət həyata keçirir. Dövlət

xalq üzərində öz funksiyasını idarəetmə ilə həyata keçirir. İdarəçilik istiqamətlər verməkdən, istiqamətlər üçün şərait yaratmaqdan, tərkibləri müəyyən etməkdən və təmin etməkdən ibarətdir. Dövlətin idarəçiliyi tənzim etməkdən ibarət olur. Tənzimetmənin tərkib hissələrindən biri də nəzarətdən, hərəkətləri müşahidə altında saxlamaqdan ibarətdir. Əsas məqsəd isə sistemdən kənara çıxmanın qarşısını almaqdan və norma və qaydaların icra olunmasını təmin etməkdən ibarət olur.

***Dövlət xalqa aşağıdakı əsaslara görə nəzarət etməlidir. Bu əsaslar da dövlətin məqsədlərini özündə cəmləşdirir:***

-ilk növbədə xalqın bütövlüyün təmin olunması və milli həmrəyliyin daima mövcudluğu;

-dövlətçiliyin mövcudluğunun təmin olunması; çünki xalq dövlət üçün mənbə rolunu oynayır. Dövlətçilik xalqdan (vətəndaşlardan, əcnəbilərdən və vətəndaşlığı olmayan şəxslərdən), hakimiyyətdən və onun strukturlarından, qanunvericiliyin icra mexanizmlərindən və qanunvericilikdən ibarətdir. Dövlətçiliyin baza mahiyyətini idarəçilik təşkil edir, onun tərkib vasitələri isə dövləti təşki edən elementlərdir;

-sistemin (münasibətlər və əlaqələr sisteminin) pozulmasının qarşısının alınması-dövlət yalnız sistem vasitəsilə xalqın və özünün bütövlüyünü təmin edə bilir. Xalqın məkanlar üzrə bütövlüyü, məkanlar arasında bağlayıcılığı və xalqın bütöv maraqlarının əsaslarını məhz sistemlilik təşkil edir;

-xalqın təhlükəsizliyinin qorunması və inkişafının təmin edilməsi-sistemlilik prinsip ilə, siyasətin sistemli qaydada həyata keçirilməsi ilə dövlət özünün mühafizə funksiyasını təmin etmiş olur;

-sistemə olan kənar pozucu ünsürlərin fəaliyyətinin qarşısının alınması-bu, dövlətin təhlükəsizlik siyasətinin tərkib hissəsidir;

-xalqın maraqlarının təmin edilməsi-xalqın maraqları ölkədaxili və ölkəxaric olmaqla strukturlardan ibarət olan bütövlükdən ibarətdir. Dövlətin əsas funksiyası bu bütövlüyün təmin olunmasına istiqamətlənir;

-ictimai asayişin və siyasi sabitliyin qorunması;

-vətəndaşlar arasında normal münasibətlərin və əlaqələrin qurulması;

-strukturlar arasında əlaqələrin və münasibətlərin normal axarının təmin edilməsi;

-xalqın mədəni irsinin qorunması və nəsillərdən-nəsillərə ötürülməsi;

-xalqın adət-ənənələrinin qorunması;

-vətəndaş cəmiyyətlərinin təsis olunması və s.

Dövlət xalq üzərində idarəçiliyini və nəzarətini məhz hüquqi normalar və qaydalar, hüquqi normaların və qaydaların icrasını və bu norma və qaydaların müdafiəsini təmin edən strukturlar yaratmaqla yerinə yetirir.

Dövlətin xalqı, xalqın isə dövlət hakimiyyətini tənqid etmək səlahiyyətləri vardır. Bu səlahiyyətlər hüquqlardan meydana gəlir.

**Tənqid** mövcud vəziyyətlə barışmamaq və əyrilikləri aşkar edərək dillə ifadə etməkdən ibarətdir. Tənqid zaman qeyri-müəyyənliklər də aşkar olunaraq aşkarlıqlara çevrilir. Real, obyektiv və ədalətli tənqid istəklərdən, doğmalıqdan irəli gələn bir xüsusiyyətdir. Siyasi fəaliyyətin tənqidi siyasətin dərk olunmasından irəli gəlməlidir. Siyasi fəaliyyətin istiqamətləri, qəbul edilən qanunvericilik sənədləri, hökumətin işinin təşkili, ictimai nəzarət aspektində hökumətin və dövlət rəhbərinin fəaliyyətinin icra əsasları, dövlət qurumlarının, strukturlarının fəaliyyəti, daxili və xarici siyasət kursu, proqram, konsepsiya və doktrinalar, planlar tənqid oluna bilər. Tənqid özü elə tərkibləri açmaq və yeni istiqamətləri müəyyən etmək

məqsədilə həyata keçirilməlidir. Tənqid təhlil yolu ilə qeyri-müəyyənliyi daha çox müəyyənliyə çevirir. Buradan da kəmiyyətlər artır. Tənqidin pozitiv əsasları mərkəzləşmə prosesini sürətləndirmək məqsədini daşıyır. İdarəetmə üsulları, quruluşlar, rejimlər forma və məzmun etibarilə tənqid oluna bilər. Tənqid mövcud vəziyyətlə, forma ilə barışmamaq və yenilərini axtarmaq, tətbiq etmək istəklərindən yaranır. Tənqidlər nəticələrin yararsız olma hallarında daha çox meydana gəlir. Tənqidlərin edilməsi aşkarlanmanın əsasında dayanır və dialoq şəkilində disskusiyalar (müzakirələr) müəyyən qədər həqiqətin aşkar olunmasına xidmət edir.

Tənqid şəxsiyyətin şərəf və ləyaqətinin qorunmasına, toxunulmazlığına yönəlməlidir. Tənqidi obyekti var. Dövlət siyasətində bu siyasəti həyata keçirənlərə və icraya əməl edənlərə aid olmalıdır. Dövlət siyasətinin bütün istiqamətləri təhlil yolu ilə tənqid olunmalıdır.

***Dövlət rəhbərini və hakimiyyət rəhbərlərini necə tənqid etmək olar:***

**-dövlət rəhbərinin** konstitusiya səlahiyyətlərinin icrası zamanı hüquq pozuntuları aşkar olunduqda;

-dövlət rəhbərinin hakimiyyət üzərində nəzarətinin güclü olmamasının və fəaliyyətinin səmərəsizliyinin (burada lazımi tələblərə cavab vermədikdə və sistemin pozulmasına təhlükələr yarandıqda) müəyyən olunması hallarında;

-dövlətin daxili və xarici siyasət kursunun düzgün müəyyən olunmamasında – qeyri-düzgünlük sistemə olan təhlükələrdə meydana gəlir;

-dövlətin daxili və xarici siyasəti zamanı ölkənin təhlükəsizliyi pozulduqda və ya da risqlər meydana gəldikdə;

-dövlət büdcəsinin və digər fondların vəsaitinin düzgün xərclənməsi üsulları, qaydaları pozulduqda – maddi-sosial təminat təhlükə altında qaldıqda;

-hakimiyyətə nəzarət funksiyasını itirdikdə və ya da etinasızlıq göstərdikdə -siyasi böhranlar yaranan zaman;

-hakimiyyət böhranlarına yol verdikdə və ya da qarşısını ala bilmədikdə;

-dövlətə qarşı xəyanət etdikdə və digər pozuntular zamanı;

-**hakimiyyət rəhbərləri** öz konstitusiya səlahiyyətlərini düzgün icra etmədikdə, qanun pozuntularına yol verdikdə;

-qanunvericilik aktlarının pozulmasını həyata keçirdikdə və belə hallara şərait yaratdıqda;

-siyasətin istiqamətlərinin düzgün müəyyən olunmamasında;

-fərdi mənafenin təmin olunması üçün vəzifə səlahiyyətlərindən sui-istifadə hallarında;

-iqtisadi və siyasi sistemləri düzgün qaydada təşkil edə bilmədikdə;

-siyasi və iqtisadi sistemin rəvan əlaqələr fonuna zərbələr vurduqda;

-dövlətə və xalqa xəyanət hallarında və s.

Tənqid əsaslı olmalıdır və qərəzli və bayağı yox, analoqluq və alternativlik prinsipləri əsasında qüsurların, səhvlərin aradan qaldırılmasına yönəlməlidir. Tənqidlər qanunvericiliyin düzgün icrasının təmin olunmasına yönəldilməlidir. Tənqid edən rasional fikirlərə üstünlük verməlidir. Buna görə də tənqid düşünülmüş, aydınlaşdırılmış və həqiqətə söykənən olmalıdır. Hər bir şəxs öz peşəsində və sənətində, vəzifəsində layiqli olmalıdır ki, əks tərəfi də tənqid etmək haqqına malik olsun. Hər bir şəxs öz peşəsindən çıxış edərək, tənqidləri etməlidir. Məsələn, alim elmi nöqteyi-nəzərdən, daha ətraflı və köklü şəkildə; mühəndis, fəhlə, tacir və digər peşə sahibləri öz peşələrindən çıxış etməklə tənqidlər həyata keçirməlidir. Kəndli onun üçün yaradılan şəraitlərdəki qüsurları tənqid edə bilər. Tənqid daha çox “bumeranq” məzmunlu və formalı olmalıdır və qayıdışı özündə cəmləşdirməlidir. Tənqid bu

aspektdə qarşılıqlı təsiredici əhəmiyyətə malik olmalıdır. Siyasi qurumlar, o cümlədən siyasi partiyalar dövlətin siyasətini, bu baxımdan dövlətin siyasi kursunu tənqid edərkən, alternativ layihələrin irəli sürülməsini, düzgün yolların qeyd edilməsini əsas gətirməlidir. Alim öz insanlıq borcunu yerinə yetirməlidir, həmçinin alim peşəsinə şərəflə qulluq etməlidir. Hər bir etiraz, tənqid tənqid edənin özündən başlamalıdır. Bu baxımdan da tənqid qarşılıqlıdır. Hər bir şəxsin hüquqları pozularkən, həm də universal hüquqlar pozulduqda tənqidlər olmalıdır. Tənqidlər yazılı formada-, əsərlərdə, o cümlədən kitablarda, jurnal və qəzet məqalələrində, elektron informasiya vasitələrində əksini tapmalıdır. Tənqidlər təhlillər yolu ilə, səhvlərin analizlərindən nəticələr çıxarmaq yolu ilə, həm də ümumi qaydada həyata keçirilməlidir. Tənqidlər standartlara, qaydalara cavab vermədikdə meydana gəlir. Sistemliliyin və rəvan proseslərin təmin olunması məqsədilə tənqidlər də ortaya çıxır.

Tənqidlər dövlətin, cəmiyyətin bütövlüyünə və inkişafının təmin edilməsinə yönəlməlidir. Tənqid bəşəriyyətin qorunmasına xidmətə yönəlməlidir. Hər bir məsələyə tənqidlərin edilməsi öz-özlüyündə yeni ideyaların meydana gəlməsinə xidmət edir. İdeyaların dialektik məntiqi və mətni formalaşır. Bununla da yeniliklər, yəni yeni nəzəri və təcrübi istiqamətlər ortaya çıxmış olur.

## Gələcəkdə Azərbaycanda yeni formalı dövlət quruluşunun yaradılması və əhəmiyyəti *("Respublika" adlanan dövlət quruluşunun tənqidi aspektində)*

Siyasi idarəetmə siyasi və ictimai əxlaqla, mental dəyərlərlə, mental statusla birbaşa bağlıdır. Mədəniyyət və mental dəyərlər idarəetmənin mahiyyətinə təsir göstərir. İdarəetmə tənzimləmədə və normalara, qaydalara salmada

özünü təsdiq edir. Normalar və qaydalar tələbatların əsaslarını meydana gətirir. Hüquq normalarının yaradılması zərurəti isə insanların daima ədaləti istəməklərindən meydana gəlir. Hüquq normalarının sistemli forması və qarşılıqlı əlaqələr və şərtləndirici əsasları müəyyən dövlət quruluşu formasını meydana gətirir. Dövlət quruluşunun forması isə normalarda və qaydalarda təsbit olunur. Normalar və qaydaların iyerarxik məzmunu və müstəvi üzrə müəyyən piramidal əsasları məhz dövlət quruluşunun əsaslarını ortaya çıxarır.

Dünyada dövlət quruluşları formaları mövcuddur. Bu formalar dövlətlər üçün təcrübələr və qaydalar kimi əhəmiyyətə malik olur. Dövlət quruluşunda idarəetmə, yəni quruluşa uyğun əlaqələr və münasibətlər yaratmaq məhz cəmiyyətin maddi-mənəvi ruhuna bağlı olur. İdarəetmənin məzmunu: **yumşaq və bərk olması** da xalqın mental dəyərlərinə, bu dəyərləri meydana gətirən elementlərin tərkib məzmununa xasdır. Hər bir cəmiyyətin özünəxas idarəçilik ruhu formalaşır. İdarəçilik ruhunda cəmiyyətdə mövcud olan adət-ənənələr böyük təsir göstərir. Bu baxımdan da adət-ənənələrə əsaslanan hakimiyyət formalaşa bilir. Şərq cəmiyyətlərində idarəetmə daha çox cəmiyyətin adət-ənənələrinin ruhuna bağlı olur. Şərq cəmiyyətlərində olan mühafizəkarlıq məhz siyasi idarəetmədə də özünü göstərir. İdarəetmə bu baxımdan daha çox mental dəyərlərdən asılıdır. Hüquq normalarına əməl etmək də mental dəyərlərlə bağlı olur. Şərq cəmiyyətlərində rasional hüquq norma və qaydalarına əməl etmək istəkləri bir o qədər mövcud olmur. “Hər kəs hüquq normasına tabedir” prinsipi əksər hallarda təcrübədə işləmir.

Avro-Asiya və Asiya cəmiyyətlərində idarəçilər əsasən yuxarıdan cəmiyyətə təqdim olunurlar və bununla da “**hakimiyyətdən hakimiyyət, rəhbərdən rəhbər”** törəyir. Sələflik (xələfdən öncə olan) və xələflik (varislik) bir-birini tamamlayır. Yəni, keçmiş, mövcud və gələcək idarəçilər təqribən eyni, oxşar xətlərdə yetişirlər. Daha çox fərdi olaraq

şəxslərin kimliyi və keçmiş bağlılığı (burada hakimiyyətə bağlılığı) nəzərə alınır. İdarəetmə sistemində, hakimiyyəti əvəzləmə trayektoriyasında mühafizəkarlıq çox zaman ənənəvi xarakterə çevrilir və adət formasında cəmiyyətdə yaşayır. "Ağsaqqallıq institutu", yaşlı insanların idarəetməsi bir ənənə halını alır. Yaşlı insanların nisbətən cavan kadrlarla əvəzlənməsi də yaşlı insanlar tərəfindən ənənəvi olaraq, uzun məsafə (burada zaman nəzərdə tutulur) ilə həyata keçirilir. Ümumiyyətlə, yaşlı nəsil cavan nəsil üçün hakimiyyətdə təmsil olunmaq məsələsində süzgəcləri tətbiq edir. Yaşlı insanlar özlərini ağıl potensialı kimi qələmə verirlər və gənclərin (total qaydada təmsil olunma zamanı) hakimiyyətdə kobud səhvlər buraxacağından ehtiyatlanırlar. Buradan da ənənəvi trayektorik əvəzləmənin üsulları kölgələr altında qalmış olur. Digər tərəfdən, maraqlar amili də mühüm əhəmiyyət kəsb edir. Yaşlı insanlarda gənclərə qarşı inamsızlıq mövcuddur. Buna görə də mühafizəkar Şərq cəmiyyətlərində yaşlı insanların hakimiyyəti (burada hakimiyyətin baza hissələri, əsas avanqard qüvvələri nəzərdə tutulur) daima mövcud olur. Yaşlı insanlar əllərində olan bürokratik əngəllərdən istifadə edərk çox zaman yaşlı insanları (yetişmiş və istedadlı mütəxəssisləri) idarəetmənin yuxarı mərhələlərinə buraxmaq istəmirlər. Mühafizəkarlıq mənəvi-siyasi eqoizmlə müşahidə olunur. Ənənəvi trayektorik idarəetmə yaşlı nəslin cavan nəsil üzərində nəzarətinin müsbət və mənfi tərəflərini meydana gətirir. Belə ki, müsbət tərəflərdən biri ondan ibarət olur ki, idarəetmənin vahid istiqaməti davam edir, məzmunda, siyasət kurslarında köklü dəyişikliklər baş vermir, həm də "çılğın", "bayağı" idarəçilik sistemi meydana gəlmir. Məlumdur ki, çılğınlıq hər zaman kövrəkliyə aparıb çıxara bilir; çünki rasionallığı kölgədə qoyur. İdarəçilikdə yaşlı insanların olması idarəetmənin avtoritarlığını, nüfuzunu saxlayır. Mənfi tərəfləri isə ondan ibarət olur ki, cavan kadr potensialından istifadə faizləri aşağı düşür ki, bu da özlüyündə dövlət idarəçiliyində gələcək kadr potensialı üçün

təhlükələri meydana gətirir. Kadr hazırlanmasında olan ardıcıllığı sındırır. Həmçinin **idarəetmə enerjisinin faizi (idareətmə potensialı, yəni siyasi passionarlıq)** enir, aktivlik, idarəetmə çevikliyi aşağı enir, hakimiyyətin ruhu sına bilir və digər mənfi hallar yaşanır. Hakimiyyətlə xalq arasında, cavan nəsil arasında rəvan əvəzetmə meydana gəlmir.

Şərq cəmiyyətlərində olan natamam nizamlı və Qərbin inkişaf etmiş cəmiyyətləri ilə ayaqlaşmayan siyasi sistemləri əsasən daha çox bir təbəqənin digər təbəqəni istismar etməsi ilə xarakterizə olunur. Kasıb cəmiyyətlərdə istismar çox tez bir zamanda ayaq alır. Varlıların aristokratiyası (varlıların hakimiyyəti –**plutokratiya**, oliqarxiyanın forması kimi **timokratiya**-yüksək əmlak, var-dövlət senzinə, kateqoriyasına malik olan imtiyazlı azlığın hakimiyyətinə əsaslanan idarəçilik forması) formalaşır. Maddi cəhətdən asılılıq siyasi asılılığa da səbəb olur. Avtoritarlıq təbii şəkildə meydana gəlir. Eləcə də adət-ənənələr və patriarxallıq, qohumluq münasibətləri şəxslərin siyasi hüquqlarına da təsir edir və şəxslər, xüsusilə, qadınlar kişilərin seçim obyektlərini (siyasi və inzibati qurumlara seçkilər zamanı) özlərinə seçim obyekti edirlər. Yəni, seçkilərdə kişilər kimlərə səs verirsə, əksər qadınlar da onları tamamlayırlar, təkrarlayırlar. Təbii ki, kişi iradəsi qadın iradəsi ilə əhatələnir.

Şərq cəmiyyətinin ruhunda yaşanan **siyasi mənlik** idarəetmənin uzun müddətliliyini tələb edir. Gənclər də heç zaman yaşlı nəsilə qarşı total qaydada üsyankar olmurlar, sadəcə olaraq az bir qismdə inqilabi ruhlarını saxlayırlar və öz ictimai-siyasi taleləri ilə barışmaq məcburiyyətində qalırlar. Şərq cəmiyyətində şəxslər öz rifahlarını daha çox digərlərinin üzərlərində hakim kəsməklə təmin etməyə çalışırlar. Əksər Şərq ölkələrinin kasıbçılığı və iqtisadi sistemlərinin zəifliyi bir qrup şəxsin digər qrup üzərində idarəetmə və tabeçiliyə söykənən istismar psixikasını formalaşdırır. Səlahiyyətli və imkanlı şəxslər daha çox idarəetmə, bu baxımdan səlahiyyətlər

və vəzifələrdən istifadə etmələr yolu ilə öz nüfuzlarını qoruyub saxlamağa və nüfuz dairələrini genişləndirməyə çalışırlar. Bir sözlə, Şərq idarəçiliyi xalqların milli şüurlarına müvafiq olaraq hökmə daha çox əsaslanan və şəxsi avtoritarlıq üzərində formalaşan bir ənənəyə malikdir. Avtoritar hakimiyyətlər islahlatlar dalğasından ehtiyat edərək, çox zaman diktatura rejimlərinə əl atırlar. Məsələn, Çində, Rusiyada, Şimali Koreyada, Birmada, Kambocada, İranda, Türkiyədə, əksər ərəb ölkələrində bu kimi hallar yaşanıb. Dünyada **"İdarəetmənin Şərq ruhu"** demək olar ki, bu gün də Şərqin əksər cəmiyyətlərində mövcuddur. Qərb ənənəsi təsir etsə də yenə də təsirlər qalmaqdadır.

XIX, XX əsrlərdə Şərq cəmiyyətlərinin əksəriyyəti öz siyasi ənənələrindən əl çəkərək respublika idarəetmə quruluşlarına keçidlər etdilər. Onlar bu keçidlərlə imperiyalardan azad olaraq müstəqillik qazansalar da, əslində yeni quruluşda düzgün yol seçə bilmədilər. Çünki onların ruhu tayfa idarəetməsinə, ənənəvi hakimiyyətə daha yaxın idi. Tayfa idarəçiliyi, klan idarəçiliyi tarixin bəxş etdiyi bir qayda və nümunə idi. Keçidlər üçün, Qərb demokratiyası ilə ayaqlaşmaq naminə resurslar kifayət etmirdi. Bu baxımdan da bir çox problemlərlə üzləşdilər və bu gün də həmin problemlərin əksəriyyəti yaşanmaqda davam etməkdədir. Şərq cəmiyyətlərində cəmiyyəti, dövləti çoxluq, yəni qəbul olunmuş hüquq normaları əvəzinə bir qrup şəxsin iradəsi idarə edir. Azlığın mənliyi çoxluğun mənliyi üzərində hakim kəsir.

Şərq üçün monarxik quruluşlar-dövlət rəhbərinin irsən əvəz olunmasına söykənən quruluşlar- daha çox xarakterikdir. Bu region üçün qeyri-monarxik və saxta respublika quruluşları (Misir, Suriya, Liviya, İraq, Türkiyə, İran, Pakistan, Çin, Şimali Koreya və s.) Şərq cəmiyyətlərinin ruhuna zidd olduğundan xalqlar daima siyasi problemlərlə üzləşirlər. Monarxiya quruluşlarında isə sabitlik mövcuddur, ona görə ki, siyasi idarəçilik mədəni-sosial və milli ənənələrə cavab verir.

Monarxiya Şərqin idarəetmə psixikasının bazasında dayanır və bu da cəmiyyərin üzvü olan fərdin asılı olmasından irəli gəlir. Şərq cəmiyyətlərində siyasi varis əsasən “yuxarıdan” cəmiyyətə təqdim olunur. Siyasi sistemin avanqard idarəetmə mərkəzi və aparatı olan partiya tərəfindən həyata keçirilir. Partiyalar (məsələn, Çində, keçmiş SSRİ-də) özlərində ardıcıl siyasi varislər hazırlayıb cəmiyyətə təqdim edirlər. Siyasi şəxsin yetişməsi prosedurları, prosesləri, təlimlər başlıca olaraq yuxarı siyasi institutlarda, mərkəzi aparatlarda həyata keçirilir. Cəmiyyətin əsas hissəsini təmsil edən “aşağı” siyasi institutlarda (məsələn, iqtidar olmayan digər partiyalarda) isə ölkəni idaredən şəxslərin yetişməsi bir qədər çətin olur. Şərq ölkələrində siyasi varislik yuxarıdan ötürülür və aşağı siyasi şəxslər isə idarəetmə üçün sanki, qeyri-yetişkən və **“yad”** hesab olunurlar. İdarəetmə aparatında özünüqoruma daha da sərtləşir və ətrafdan olan ünsürlər qorxu törədənlər kimi qələmə verilir. Varisliyin yuxarı xətti məhz ötürülmələrin (yuxarılar arasında ötürülmələr) rəvan həllini təmin edir. Konstitusiyalı monarxiyalarda (krallıqlarda, imperatorluqlarda, knyazlıqlarda, hersoqluqlarda, əmirliklərdə və s.) dövlət rəhbəri varislik əsasında müəyyən olunur. Siyasi varis bioloji-siyasi varis yolu ilə öz sələfini əvəzləyir.

Azərbaycan başlıca olaraq Şərq cəmiyyətinin tərkib hissəsidir. Burada avropalılıq daha çox kiçik bir məkanda (məsələn, Bakı şəhərində) kolizeydən ibarətdir. Burada şərqliliyi həm də islam dini və islam mədəniyyəti yaradır. Bununla yanaşı, Azərbaycanın qonşu ölkələri də ruhən Şərq idarəçiliyinin tərkibində olan dövlətlərdir. Rusiyanın özündə də monarxik quruluş (knyazlıq, çarlıq, imperiya) XX əsrin əvvəllərində sona çatıb, parlament ənənəsi yalnız 1906-cı ildə Birinci Dövlət Dumasının çağrılması ilə formalaşmağa başlayıb. SSRİ də öz mahiyyətinə görə daha çox Şərq siyasi ruhuna (dövlət rəhbərlərinin yuxarıdan əvəz olunması baxımından) bənzəyirdi. Həm də Qərb siyasi sistemindən bəzi

elementləri özünə transfer etmişdi. Bu baxımdan da qarışıqlıq mövcud idi. Məsələn, SSRİ-də idarəetmə kadrları **partiya xətti ilə** aşağıdan yuxarıya doğru (istehsalatda fəhlə peşəsindən başlayaraq, mühəndis kimi yetişməklə və inzibati rəhbər postlarını tutmaqla) yetişə bilirdi. Burada aşağı prosesləri də ideologiya (dövlətin ideologiyasını partiya formalaşdırırdı. Partiya cəmiyyətlə dövlət arasında əlaqə və vəhdət yaradırdı) və onun ötürücü sistemi öz əlində saxlayırdı. Yuxarı hakimiyyət üçün isə elə yuxarıdan əvəz olunma prosesi həyata keçirilirdi. Dövləti partiyanın siyasi büro üzvləri idarə edirdi və dövlət rəhbərini də siyasi büro üzvləri əvəzləyirdi. Seçkilər (ümumxalq səsverməsi) kortəbii bir proses idi, formal xarakter kəsb edirdi. Şərq cəmiyyətlərinin əksəriyyətində, Afrika və Latın Amerikası ölkələrində seçkilər öz kortəbii mahiyyətini indi də saxlamaqda davam edir. Qərbin özündə belə seçkilər ideal ola bilməz. Çünki hər kəs öz seçdiyini yaxşı tanıya bilməz.

İndiki Azərbaycan ADR-in varisi olaraq özündə ADR-dən və SSRİ-dən qalma olan Qərb ənənələrini də cəmləşdirməkdədir. Eyni zamanda son 20 ildə pozitiv hüquqi-siyasi islahatlar da həyata keçirilmişdir. Siyasi idarəetmədə qərb ruhu da formalaşmışdır. Qanunlar əsasən Avropa təcrübəsi əsasında (məsələn, Almaniya və Rusiya təcrübəsi) işlənib hazırlanır, qəbul olunur. Dövlət idarəetməsində Rusiya və Qazaxıstan modelindən istifadə olunur) Azərbaycan dünyəvi dövlətdir. Demokratik Respublika quruluşuna (Qanunvericilik funksiyasının yerinə yetirən Milli Şurası və hökuməti olan parlamentli Respublika) ilk dəfə olaraq 1918-ci ildə nail olub. Parlament ənənəsini başlıca olaraq Rusiya Dövlət Dumasında təmsil olunan Azərbaycan deputatları tətbiq ediblər. *(Diplomat və hüquqşünas Əlimərdan bəy Topçubaşov Çar Rusiyasının Birinci Dövlət Dumasının üzvü (1906), Dumada müsəlman fraksiyasının rəhbəri, İkinci Dövlət Dumasının üzvü, Bakıda Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin*

*üzvü (1917), ADR parlamentinin sədri (1918-1920); İsmayıl xan Ziyadxanov, hüquqşünas Xəlil bəy Xasməmmədov, Fətəli xan Xoyski (II Dövlət Dumasının üzvü) və başqaları).* Ondan bir qədər qabaq monarxiya quruluşunun (Çar Rusiyasının) tərkibində olub. Quberniyalara, qəzalara bölünüb, canişinlər tərəfindən idarə olunub. XX əsr boyu ölkədə siyasi sistem formalaşıb, idarəetmə strukturları və qanunvericilik bazası təkmilləşib. Azərbaycan müasir anlamın dünyəvi dövlət quruluşuna, yəni Qərb ruhunda olan siyasi sistemə xarakterik olan dövlət quruluşu formasına və məzmununa XX əsrdən nail olub. Təbii ki, ölkədə dövlətçilik ənənəsi lap qədimlərə gedib çıxır.

Azərbaycan da prezidentli respublika olana qədər tarix boyu ənənəvi olaraq varislik üzrə idarə olunub və monarxiya üsul idarəsi olan şahlıq, xanlıq, sultanlıq, bəylik və respublika quruluşlarını (parlamentli respublika, sosialist respublikası) yaşayıb. Xanlıqların işğalı ilə Azərbaycanda müstəqil dövlətçilik ənənəsi qırılıb və yalnız 1918-ci ildə qısa bir müddət üçün bərpa olunub. SSRİ-nin tərkibində isə sosialist resbublikası kimi fəaliyyət göstərib. SSRİ-nin subyektlərindən biri olub. 1991-ci ildə təkrarən prezidentli unitar respublika kimi müstəqil beynəlxalq hüquq subyektinə çevrilib. Azərbaycan tarixən həm monarxiya (şahlıq, xanlıq və s.), həm də respublika quruluşlarını özündə əks etdirib və bu baxımdan da Şərq-Qərb siyasi sistem və idarəçilik ənənəsinin vəhdətini meydana gətirə bilib. Siyasi idarəetmənin qarışıq forması da qarışıq ənənəni və qarışıq (rəngarəng) mühiti yaradıb. Siyasi idarəetmə qaydaları vərdişlərə, təfəkkürə hopa bilib.

Qəbul etmək lazımdır ki, islam və Şərq mədəniyyəti, eləcə də islamdan öncə olan inanclar üzərində qurulan ənənəvi cəmiyyətlərin bəzi qalıqlarının qalması, köhnə adət-ənənələrin mövcudluğu Azərbaycanı daha çox Şərq ruhuna bağlayır. Azərbaycan bu gün qonşu İrandan Şərq mədəniyyətini, Ərəb dünyasından, Türkiyədən islam mühitini, Şərq abı-havasını

yenə də transfer etməkdədir. Buna görə də əhalinin əksəriyyətinin düşüncə tərzi, mədəni bütövlüyü Şərqə daha çox bağlıdır. Avropa bütövlüyü sadəcə olaraq zahirən Abşeron anklavını, Bakı kolizeyini və “amfiteatrını” meydana gətirmişdir. Yəni, Azərbaycanda Avropa zühuru sadəcə olaraq bir hissəni təşkil edir. Bununla yanaşı, Avropa mədəni-siyasi təfəkkürü sadəcə ayrı-ayrı, eləcə də bir qism şəxslərdə mövcuddur. Bakının mərkəzindən iç kənarlara doğru getdikcə şüur, məkan daha çox Şərqləşməyə başlayır. Buna görə də azərbaycanlıların böyük əksəriyyətinin avropa təfəkkürlü olmalarını israrla qeyd etmək absurd olardı. Bu nöqteyi-nəzərdən, Azərbaycanda respublika quruluşu monarxiya quruluşu kimi (xalqa xidmət baxımından) yüksək faydalı ola bilməz. Respublika demokartiya əsasında cəmiyyətin **sistemli** və **normativ** idarəsinə əsaslanır. Bu forma isə Azərbaycanda yüksək səviyyədə, ali məzmunda qurula bilməz; çünki Azərbaycan özünün Şərq –islam ruhundan ələ çəkə bilməz. Əgər respublika quruluşu dəyişməsə, ictimai-mental dəyərlər respublika quruluşunda öz “xəstəliyi” ilə müşahidə ediləcəkdir. Yəni, gələcəkdə siyasi sağlam cəmiyyət formalaşdırmaq mümkün ola bilməyəcəkdir. **(Qeyd**: Türkiyə son konstitusiya islahatları ilə prezident üsul idarəsinə keçib. İlk dəfə olaraq 2014-cü ilin avqust ayında prezidenti xalq seçib. Bu da onu göstərir ki, Türkiyə də monarxiya quruluşuna, təkbaşına idarəetməyə və uzunmüddətli idarəetməyə meyilli cəmiyyətdir. Rəcəb Teyyub Ərdoğanın uzun müddətdir ki, Türkiyə idarəçiliyində rəhbər kimi təmsil olunması bunu bir daha sübut edir. Şərq siyasətçisinin təfəkkürü uzun müddətli idarəetməni tələb edir. Şərq siyasətçisi hakimiyyət kürsüsünə özünün ali şəxsi mərhələsi kimi baxır. Xalq da bu təfəkkürü qəbul edir. Rusiyada da 2000-ci ildən bu yana bir şəxsin idarəçiliyi mövcuddur).

Demokratiya (xalqın azadlıq hüquqları və sərbəstlikləri əsasında hakimiyyətdə təmsil olunmaları, siyasi-ictimai qurum

olaraq hakimiyyəti qurmaları) ardıcıl inkişafı və dəyişikliyi, bu baxımdan da yeni tələblərə cavab verməni tələb edir. Bu baxımdan da zaman və məkan, həmçinin imkanlar amilinə bağlı olur. Demokratiya daxilən dəyişən yollardan ibarət olan bir sistemdir. Bu yolların dəyişməsi isə islahatlar adlanmalıdır. İmkanlar bir-birilərini əvəzlədikcə, bir tərəfdən kəmiyyət dəyişikliyi baş verir, digər tərəfdən də keyfiyyət dəyişikliyini özündə tələb edir. Demokratiya daxildən (burada sistemin daxili) islahatları əsas götürür. Zamanda islahatlar və dəyişikliklər və dəyişikliklərin qəbul olunması demokratiyanın tələbləridir. Ən əsası odur ki, bütün zamanlarda dövlət və onun hakimiyyəti xalqı idarə edə bilsin və dövlət öz pozitiv fəaliyyətini təsdiq etmiş olsun. Demokratiyanın dəyişiklikləri insan hüquqlarının zəngin əsaslarla təmin olunmasına yönəlməlidir.

Hər bir dövlətin idarəetmə, siyasi sistem və hakimiyyət idarəetməsi quruluşları vardır. Nümunələr olaraq respublika və monarxiya (imperatorluqlar, krallıqlar, knyazlıqlar, əmirliklər, sultanlıqlar) quruluşları mövcuddur. Respublikar parlamentli və prezidentli, qarışıq olmaqla, həm də dini (İran, Pakistan) və mülkü əsaslı olurlar. Monarxiyalar da dini və mülkü olurlar. Konstitusiyalı monarxiya bir ənənəvi dövlət quruluşu formasıdır. Respublika dövlət quruluşundan əsas fərqi dövlət rəhbərinin vərəsəlik (irsən) yolu ilə keçməsidir. Hər ikisində parlament və hakimiyyətin icra və məhkəmə qolları vardır. Bu baxımdan demokratik üsullar respublika quruluşu ilə konstitusiyalı monarxiya quruluşunu vəhdətləşdirir. Oxşarlıqlar da demokratiyadadır, yəni xalqın nümayəndələrinin birbaşa və vasitəli yollarla hakimiyyətdə təmsil olunmasıdır. Konstitusiyalı monarxiyalar ənənəvidir və siyasi sələflik və xələflik bir-birini tamamlayır.

Yenə də vurğulamaq yerinə düşər ki, bir çox cəmiyyətlərdə dövlət rəhbərləri və hakimiyyət rəhbərləri cəmiyyətə iyerarxiya baxımından **“yuxarıdan”** təqdim olunur. Qərbin inkişaf etmiş

cəmiyyətlərində isə bu, daha çox **"aşağıdan",** yəni cəmiyyətin özündən təqdim olunur. Siyasətçilər bələdiyyələrdə, icra, məhkəmə və yerli qanunverici qurumlarda və partiyalarda yetişirlər. Partiya institutu kadrların formalaşmasında böyük rol oynayır. Aşağıdan təqdimat zamanı iddialı şəxslər mərkəzi və yerli institutlarda hazırlanırlar. Partiyalar mərkəzi aparatlarda təmsil olunmaq üçün, idarəetmədə iştirak məqsədilə bir siyasi institut kimi siyasi idarəetmə məktəbi rolunu oynayır.

Azərbaycan dövləti gələcəkdə respublika quruluşunun pozitiv cəhətlərini özündə saxlamaqla, yeni bir quruluşa keçə bilər. Bu addım ölkənin regionda daxili və beynəlxalq əlaqələrinin möhkəmlənməsinə gətirib çıxara bilər. Yeni quruluşa keçmənin əsasları yumşaq formada olmalıdır. Yumşaq keçid rəvan və kəskin dərəcəli dəyişikliklərlə hiss olunmamalıdır. Bu gün ölkədə sürətli iqtisadi inkişaf həyata keçməkdədir. İnkişafın müəyyən bəlli mərhələsində, imkanın yarandığı məqamlarda məhz quruluşu əvəz etmək lazımdır. Hesab etmək olar ki, iqtisadiyyatın sürətli tarazlı inkişaf mərhələsində əvəzləmə-keçid prosesləri həyata keçməlidir.

**Azərbaycanın yeni formalı quruluşa keçməsinin səbəblərini nəzəri baxımdan aşağıdakı kimi ümumiləşdirmək olar:**

*-**Azərbaycanın Avro-Asiya, Şərq-Qərb mədəniyyət vəhdətində mövcudluğu, siyasi şüurun palitralılığı, çoxçalarlılığı. Siyasi şüurun ənənə ilə, həmçinin qeyri-ənənə ilə tamamlanması.*** Məsələn, konstitusiyalı monarxiya adlanan dövlət quruluşlarında həm islahatçılıq, həm də ənənə bir-birini tamamlayır. Ənənə islahatları qoruyur, islahatlar ənənə trayektoriyasından kənara çıxa bilmir;

*-**Azərbaycan xalqının sosial-siyasi mentalitetinin respublika quruluşuna uyğunsuzluğu***-respublika quruluşu nisbətən yüksək inkişaf etmiş və daha çox aşağıdan yuxarıya

doğru pillələrlə yetişmiş şəxslərin idarəetməsinə əsaslanmalıdır. Respublika quruluşu islahatçılığı daha çox qəbul edən bir formadır. Burada sistem özünün liberal səviyyəsinin yüksək olması ilə xarakterizə olunur. Sistemin elementləri üçün nisbətən çox sərbəst hərəkət arenaları mövcuddur. Sistemə daxil olmaq asandır. Azərbaycanda bu xarakter natamamdır, çünki Şərq ənənələri də mövcuddur. Ölkədə tam respublika quruluşu heç də xalqın mental dəyərlərinə uyğun deyil. Bu baxımdan da cəmiyyət özünün siyasi sisteminin aparıcı qüvvələrini yuxarıdan gözləyir. Dövlət idarəetməsinin yuxarı mərhələsinin daxilinə aşağıdan düşmək çox çətinliklərdən ibarətdir; çünki yuxarıdan sıxma və nəzarət vardır, həm də güclüdür. İdarəetmə aparatlarında "Dəmir torlar"ın toxunması siyasəti mövcuddur;

***-Respublika quruluşunun siyasi plüralizmin inkişafının qabağının alınması baxımından qeyri-səmərəli fəaliyyəti-*** respublika quruluşu siyasi mübarizə zamanı iqtidar üçün qorxu yaradır. İqtidar hakimiyyətdən gedə biləcəyindən ehtiyatlanır. Bu baxımdan digər siyasi qrupların fəaliyyətini qısqanclıqla qəbul edir. Nəticədə siyasi mübarizə çalarlığı pozulur; çünki mübarizədə tərəflər (çoxtərəfli potensial) formalaşa bilmir. Birtərəflilik meydana gəlir;

***-siyasi institutların və vətəndaş cəmiyyətlərinin yaxşı inkişaf edə bilməməsi-***təbii ki, Azərbaycanda siyasətdə iştirak edən şəxslər daha çox bir qayda olaraq dövlət rəhbəri postuna can atırlar. Bu xarakter qeyri-rasionallıqdan meydana gəlir. Bu isə siyasi müstəvidə qeyri-razılaşmanı, siyasi kompromisləri meydana gətirə bilmir. Dövlət rəhbəri yox, hakimiyyət rəhbərləri postunu tutmaq istəyənlər (burada seçkilər yolu ilə) üçün hakimiyyətdə meydanlar açmaq lazımdır ki, siyasi postlar uğrunda mübarizə daha da aktiv olsun. İnsanın sosial-mədəni və məişət həyatı, əgər belə demək mümkünsə, birbaşa dövlət rəhbərinin yox, daha çox hakimiyyətlərin fəaliyyətindən asılıdır. Dövlət rəhbəri dövlətin bütövlüyünün, xalqın

bütövlüyünün rəmzi olmalıdır. Hakimiyyət üzərində ümumən tarazlı nəzarətə sahib olmalıdır;

***-bir şəxsin uzun müddət işləmə təcrübəsinin və cəmiyyət tərəfindən qəbul olunma təcrübəsinin mövcudluğu***-məlumdur ki, Azərbaycanda bir şəxsin uzun müddətə dövlətə rəhbərliyi siyasi və ictimai şüurlarda qəbul olunur. Bu şüurların mövcudluğunu dövlət quruluşunun dəyişməsində tətbiq etmək olar.

## Yeni yaradıla biləcək dövlət quruluşunun əhəmiyyəti:

-dövlət rəhbərinin icra hakimiyyətinə aid olan birbaşa səlahiyyətlərinin məhdudlaşdırılması və icra hakimiyyəti və digər hakimiyyətlər üzərində ümumi icranın həyata keçirilmənin təmin olunması, bununla da, dövlət hakimiyyətinin qolları arasında tarazlığın və harmoniyanın meydana gəlməsi. Səlahiyyət bölgüsünün tarazlaşması;

-dövlət rəhbərinin icra hakimiyyəti rəhbərindən ayrılması və bütün hakimiyyət qolları üzərində nisbi bərabər idarəetmənin həyata keçirilməsi;

-hakimiyyətin qolları arasında yüksək səviyyəli və sərbəst tarazlığın və nəzarətin formalaşması;

-hakimiyyət qollarının dövlət rəhbəri önündə məsuliyyətinin artması;

-icra hakimiyyətinin rəhbər postlarının daha çox siyasiləşməsi;

-cəmiyyətin daha çox demokratikləşməsi, siyasi partiyaların rəqabət mübarizəsinin artması, mübarizədən həqiqətin daha çox aşkar olunması, cəmiyyətin "şəffaflaşması" proseslərinin aktiv olması;

-cəmiyyətin siyasi düşüncələrinin daha çox artması;

-sosial-siyasi parlaqlaşmanın güclənməsi-siyasi aktivlik məhz parlaqlaşmanı meydana gətirən amil rolunu oynayır. Bu da şüurların oyanışından, daima reaksiyalı və refleksiyalı

olmasından irəli gəlir. Şüurların aktivliyi siyasi çevikliyi meydana gətirir;

-dövlətin xarici siyasət kursunun çoxşaxəliliyinin təmin olunması və gələcək həyat xəttində dəyişməz siyasi kursun formalaşması;

-dövlət rəhbəri tərəfindən cəmiyyətin avtoritar rejimlə təkbaşına idarə olunmasının qarşısının alınması;

-dövlət rəhbəri ilə hakimiyyət rəhbəri arasında idarəetmə və dövlətə, xalqa xidmət məsuliyyətinin güclənməsinə əsaslanan əlaqələrin genişlənməsi;

-icra hakimiyyətinin xalqdan asılılığının artması;

-dövlət rəhbərinin dövlətin rəmzlərinə və atributlarına cavabdeh şəxs kimi məsuliyyətinin daha da artması;

-dövlət rəhbərinin dövlətin ümumi siyasi sisteminə nəzarətinin gücləndirilməsi;

-Azərbaycan cəmiyyətində idarəetmə üzərində nəzarətin genişlənməsi;

-Azərbaycanda hakimiyyət nümayəndələrinin “aşağıdan” və “yuxarıdan” təqdim olunmasının təmin edilməsi;

-siyasi idarəetmədə Şərq-Qərb təfəkkürünün formalaşması;

-dövlət rəhbərinin mədəniyyət, elm, incəsənt mərkəzlərinin yaradılmasına cəlb olunması (məsələn, akademiyaların, teatrların, ali məktəblərin, muzeylərin, parkların və s digər ictimai mərkzələrin yaradılması);

-dövlət rəhbəri postunun aliləşməsi və dövlətin siyasi qurum kimi əhəmiyyətinin artması;

-beynəlxalq münasibətlərdə və dünyada dövlət rəhbəri institutuna olan hörmətin artması;

-dövlət rəhbəri ilə xalq arasında “hörmət xətti”nin daha da yüksək səviyyədə müəyyən olunması;

-başqa dövlətlərin istənilən anda Azərbaycan hakimiyyətinə öz kadrlarını yerləşdirməsinin qarşısının müəyyən qədər alınması;

-dövlətçilik ənənələrinin uzun trayektorik formasının meydana gəlməsi;

-dövlət rəhbəri-xalq bütövlüyünun hakimiyyət üzərində nəzarətinin güclənməsi;

-demokratiyanın daha da inkişaf etməsi və şəxslərin azadlıqlarının, siyasi hüquqlarının artması və s.

## Azərbaycanın beynəlxalq bitərəf statusunun müəyyən olunması və əhəmiyyəti

**Böyük dövlətlərin rəqabət mübarizələrinin mənfi xüsusiyyətləri.** Dünya siyasi səhnəsi (bu müstəviyə həm də iqtisadiyyat, mədəniyyət elementləri də daxildir; çünki iqtisadiyyat üzərində aparılan işlər də elə siyasət adlanır. Dövlət iqtisadiyyatı hüquqi yollarla təşkil edir və tənzimləyir) rəqabət mübarizəsi məkanıdır. Rəqabət maraqların ayrı-ayrı regionlarda və sistem təşkil edən regionlararası müstəvidə təmin olunmasına istiqamətlənmiş bir dinamik, xaotik, sistemli, disbalanslı, tarazlı, harmoniyalı, disharmoniyalı mübarizədır. Tarixdən də məlumdur ki, böyük dövlətlər kiçik dövlətlərdə nüfuzlar qazanmaq üçün stabil siyasi-ictimai rejimi pozurlar və məkanlar, məkanlardakı elementlər üzrə nəzarət mexanizmisini əllərinə alırlar. Bununla da onlar dünya siyasəti sisteminin tərkib subyekti olan kiçik dövlətlər üzərində nəzarət əldə edirlər. Kiçik dövlətlər üzərində nəzarətin genişlənməsi siyasəti dünyanın böyük dövlətlər tərəfindən bölünməsi taktikasının tərkibinə çevrilir. Dünya siyasi səhnəsi iradi və qeyri-iradi olaraq parçalanır. Dünyanın təbii olaraq bölünməsi strategiyası formalaşır və bu proses əsasən aktiv müharibələrdən və “lal müharibələr”dən həyata keçirilir. Dünyanın böyük dövlətlər tərəfindən nüfuz dairələrinə bölünməsi sistemli olaraq zaman və məkanın tələblərinə müvafiq qaydada həyata keçirilir.

Dünyanın bölünməsində dövlətlərin hərbi potensialı istifadə vasitəsinə çevrilir. Dövlətlər hərbi təhlükəsizlik strategiyasını təşkil edirlər. Bu strategiya həm regionlarda nüfuzları təmin edən elementlərin qorunmasına yönəlir, həm də nüfuzları təmin edən elementləri qoruyan vasitələrin-məsələn, hərbi vasitələrin qorunmasına istiqamətlənir. Dövlətlər iqtisadi və digər hərbi vasitələrlə öz hərbi bazalarını, hərbi obyektlərini mühafizə edirlər. Dünyanın böyük dövlətləri iqtisadi və hərbi vasitələrdən istifadə edərək, dünyanı coğrafi məkan üzrə xəyali və mütləq-konkret əsaslarla nüfuz, təsir dairələrinə bölürlər. Bölünmə prosesləri zamanı resurslar istifadə olunur, sənayenin mərkəzləşməsi gücü yaradır və bölünməni ortaya çıxarır. Bu bölünmə öz-özlüyündə mənfi əsasları da əks etdirir. Bu mənfi əsaslar həm onu bölən dövlətlərin özlərinə yönəlir, həm də bölünmə obyekti olan dövlətlərdə əksini tapır.

**Mənfi əsasları konkret olaraq aşağıdakı kimi ümumiləşdirmək olar:**

***-beynəlxalq münasibətlər hər zaman gərgin vəziyyətdə qalır, əlaqələr fonu gərilmə ilə xarakterizə olunur;***

***-beynəlxalq əlaqələrdə yaranan gərginlik ölkə daxililərinə də öz təsirini göstərir;***

***-beynəlxalq və milli sabitsizlik bir-biri ilə çulğaşır;***

***-beynəlxalq münasibətlərdə elementlər lüzumsuz yerə mərkəzləşməyə doğru hərəkət edirlər və formalaşmış sistemə təhlükələr artır;***

***-vərdiş olunmuş sabit tarazlı rejimlər kəskin dəyişmə ilə üzləşir;***

***-dünyanın sabit və dinamik inkişaf edən sistemlərinin normal fəaliyyətinə zərbələr törədici ünsürlər baş qaldırır;***

***-kiçik dövlətlərin hakimiyyətləri xaricdən olan iki və çoxtərəfli gərginliklər önündə öz ölkələrinin müstəqilliklərini***

***və ərazi bütövlüklərini yüksək səviyyədə təmin etmək iqtidarında ola bilmirlər;***

***-kiçik dövlətlər böyük dövlətlərin nəzarəti altında olan beynəlxalq münasibətlər və beynəlxalq əlaqələr müstəvisində məhz gərgin vəziyyətdə öz mövcudluqlarını təmin edə bilirlər. Qorxu altında mövcudluq ortaya çıxır;***

***-kiçik dövlətlər böyük dövlətlər arasında məkan uğrunda mübarizə məkanına çevrilirlər və xüsusilə, aralıq məkanlarda "sanitar kordonlar"ın yerləşdikləri dövlətlərdə ictimai-siyasi parçalanma yaşanır;***

***-kiçik dövlətlərin iqtisadi sistemlərində böyük dövlətlərin şirktələri (transmilli korporasiyaları) monopliya mövqeyinə malik olurlar ki, bu da özlüyündə iqtisadiyyatın makro səviyyədə formalaşmasına mənfi təsir edir. Anti-milli ruh yaranır;***

***-kiçik dövlətlərdə böyük dövlətlərin rəqabət mübarizələri hərbi xarakter də alır ki, bu da ölkədə vətəndaş (dini və sosial məzmunda) müharibəsinin baş verməsini şərtləndirir;***

***-böyük dövlətlərin özləri arasında baş verən rəqabət mübarizəsi makro mühitdə beynəlxalq iqtisadi münasibətlərin bütövləşməsinə səbəb olur və beynəlxalq böhranlara gətirib çıxarır;***

***-beynəlxalq maliyyə müstəvisində sistemdə xaos yaranır;***

***-beynəlxalq mərkəzlərdə ümumi böhran yaşanır və digər mənfi hallar meydana gəlir.***

Dövlətlər beynəlxalq münasibətlərdə əməkdaşlq və tərəfdaşlıq siyasətinə qoşulurlar, münasibətlər və əlaqələr meydana gətirirlər. Tərəfdaşlıq və əməkdaşlıq özündə yaxınlıq siyasətinin tərkibi olmaqla, həm də dövlətlərin beynəlxalq müstəvidə mövcud olmalarına xidmət edən amillər rolunu da oynayır. Beynəlxalq münasibətlər sistem və strukturlardan, həmçinin mexanizmlərdən ibarət olur. Beynəlxalq münasibətlərdə böyük və kiçik güclər əlaqələrə qoşulurlar, resursların bölgüsü və paylanması ilə, eləcə də ticarətlə məşğul

olurlar. Beynəlxalq münasibətlərin subyektləri olan dövlətlər fərqli güclərə, fərqli imkan və potensiallara malik olduqlarından mütləq qaydada müəyyən regionlarda təşkilatlanma, birləşmə meydana gəlir. Təşkilatlanma həmçinin koordinativ əlaqələrin təmin edilməsi üçün də həyata keçirilir. İnteqrasiya siyasəti müəyyən xətlər üzrə aparılır. Təşkilatlanma eləcə də böyük dövlətlərin maraqlarını təmin etmək üçün həyata keçirilir. Bir çox hallarda böyük dövlətlər kiçik dövlətlərə öz maraqlarının təmin olunması subyekti və məkanı kimi baxırlar. Kiçik dövlətlərin böyük dövlətlər ətrafında toplaşması təbii olaraq müəyyən formada bloklaşmanı və birləşməni meydana gətirir. Bloklaşma əksər hallarda hərbi xarakter kəsb edir. Bloklaşma zamanı ən əsas zərbəni periferik ərazilərdə yerləşən dövlətlər qəbul edirlər. Bu kimi dövlətlər böyük dövlətlərin platsdarmına çevrilir. Bu baxımdan da münaqişələrin, müharibələrin böyük dövlətlər tərəfindən idarə olunması siyasəti həyata keçirilir. Böyük dövlətlərin beynəlxalq münasibətləri idarə etmələri təbii olaraq onların nüfuzlarının möhkəmlənməsinə və təsir dairələri uğrunda mübarizələrinə səbəb olur. Kiçik dövlətlər, xüsusilə, sərhədlərdə yerləşən kiçik dövlətlər böyük dövlətlərin rəqabət mübarizələrinin əsas meydanına çevrilir. Böyük dövlətlərin qalibiyyəti və məğlubiyyəti mərkəzdə yox, məhz periferiyalarda, sərhəd zolağını təşkil edən dövlətlərdə müəyyən olunur. Məsələn, XX əsrdə baş vermiş Koreya müharibəsini, Vyetnam müharibəsini, XXI əsrin postsovet münaqişələrini, o cümlədən Balkan münaqişələrini, Cənubi Qafqaz, Moldova və Ukrayna münaqişələrini və bu kimi çoxlu sayda gərginlik vəziyyətlərini buna nümunə göstərmək olar. Münaqişələrin xarakteri onu deməyə əsas verir ki, münaqişələr klassik mahiyyətini özlərində qoruyub saxlayırlar.

Tarixən olduğu kim, hal-hazırda da böyük dövlətlər **“okeanlardan-okeanlara”, “materiklərdən-materiklərə**

**(qitələrdən-qitələrə)”** siyasətini həyata keçirirlər. Bu, dünyanın siyasi baxımdan bölünməsinin makro formasıdır.

Kiçik dövlətlər müharibələrdən uzaq olmaq və böyük dövlətlərin qarşılıqlı rəqabət mübarizələrində rol oynamamaq üçün hərbi bloklarda iştirak etməmək siyasətinə üstünlük verməlidirlər. Bu siyasət onları təhdidlərdən qurtara bilər.

Azərbaycan regionda beynəlxalq bitərəf statusunu əldə etməlidir. Məlumdur ki, ölkə hal-hazırda heç bir hərbi blokun üzvü deyil və yalnız beynəlxalq təhlükəsizlik sahəsində əməkdaşlığı həyata keçirir.

**Azərbaycanın beynəlxalq hərbi bitərəflik (hərbi bloklara qoşulmamaq) statusunun regional əhəmiyyəti:**

**-Rusiya tərəfindən arxayınçılığın meydana gəlməsi-** *Rusiya özünün ətraf kiçik dövlətlərinə “çəpər zolağı” kimi baxır. Azərbaycan Rusiya sərhəddində yerləşir və bu baxımdan onun sərhəd təhlükəsizlik qurşağının tərkib elementidir. Rusiya NATO-dan ehtiyat edir və sərhəd dövlətlərinin bu NATO-ya inteqrasiyasını özünün milli və regional təhlükəsizliyinə zidd hesab edir. Azərbaycan hərbi bloklara qoşulmadıqda, Rusiya tərəfindən arxayınçılıq yaranır və Azərbaycana təzyiqlər aşağı enir, əksinə, iqtisadi sahədə əməkdaşlıq, tərəfdaşlıq və inteqrasiya üçün bir çox maneələr aradan qalxır.*

**-Qərb tərəfindən arxayınçılığın meydana gəlməsi-** *Qərbi narahat edən əsas məsələ ətraf keçmiş respublikalar hesabına yeni bir SSRİ kimi qurumun yaranmasıdır. Azərbaycan bu elementlərdən biri, Rusiyaətrafı genişləndirici məkanlardan biri ola bilər. Azərbaycan hərbi bloklara qoşulmur və bu prinsiplə Rusiyanın yaratdığı hərbi qurumdan kənarda qalır, bununla da Qərbin narahatçılığı aradan qalxır. Qərb Azərbaycana etibarlı Avro-Asiya tranzit məkanı kimi baxır. Bu da Azərbaycanın regional balanslaşdırma siyasətinə xidmət etmiş olur.Onu da nəzərə almaq lazımdır ki, əgər NATO*

*Azərbaycanı öz hərbi üzvünə çevirmək üçün aktiv siyasət həyata keçirərsə, onda Azərbaycan Rusiyanın sərt maraqları ilə rastlaşar.*

**-Region dövlətləri arxayın düşür**-*İran və Türkiyə böyük dövlətlərdən-Rusiya və ABŞ-dan narahat olan dövlətlərdir. Azərbaycan NATO-ya, ya da Rusiyanın hərbi blokuna qoşulmur və bununla da regiondakı dövlətlərin etimadını qazanır. Regiona dövlətləri arxayınlaşır. İkitərəfli və çoxtərəfli əlaqələr formalaşır və güclənir. İqtisadiyyat, mədəniyyət, terrordan və digər transmilli cinayətkarlıqdan qorunma siyasi dialoqların əsas predmetini təşkil edir.*

**-Azərbaycan üzərində sərt beynəlxalq nəzarət formalaşmır**-*hərbi bloklardan kənarda qalmaq böyük dövlətlərin Azərbaycan üzərində sərt nəzarətinə imkanları məhdudlaşdırır. Azərbaycan rəqabətdə təzyiq vasitələrindən bir qədər uzaqlaşır və yumşaq mühit formalaşır.*

**-Azərbaycanda regional sülh konfransları, beynəlxalq tədbirlər keçirilər-** *Azərbaycan regionda sülh diplomatiyasının mərkəzinə çevrilər. Regional forumlar və digər iqtisadi, siyasi, mədəni, humanitar və diplomatik tədbirlər keçirilər. Azərbaycan digər ölkələrin əhalisi üçün* ***sabit ölkə*** *rolunu oynayar. Beynəlxalq sabit dövlət kimi imicini gücləndirər.*

## Təhlükəsizliyin təmin olunması üçün yeni ideyalar

Hər bir sahə və fəaliyyət istiqaməti (fəaliyyət müəyyən sahədə, məkanda mövcud olur və sahələrdə olan elementlərin qarşılıqlı mübadiləsindən meydana gəlir. Hərəkətə gətirmə və hərəkətvericilik enerjini artırır. Enerjinin yaranması da sərfiyyatdan meydana gəlir. Bu baxımdan da tükənmənin qarşısını almaq üçün enerji mübadiləsi həyata keçirilir) ideyalar məcmusundan, ideyalar yönlərindən ibarətdir. İdeyaların strukturlaşması prosesləri yaşanmaqdadır.

Fəaliyyətdən və istəklərdən, indiki və gələcək zamanlardan meydana gələn və meydana gələcək sahələr ideyalar, fikirlər əsasında formalaşır. Dialoqlar, fikir mübadilələri fikirlərin inkişafını, ideyaların artmasını təmin edir. İdeyalar reallıq tələblərindən, istəklərdən, həmçinin zərurətdən, tələbatlardan və onların gələcəkdə təmin edilməsi zərurətindən meydana gəlir. Reallıqdan doğan ideyalar və istəklərdən, xəyallardan və arzulardan meydana gələn ideyalar formalaşır. İdeyalar həmçinin öz arxasınca yeni-yeni ideyaların meydana gəlməsini tələb edir. Demək olar ki, bütün hərəkətlərin nəzəri əsasları ideyalardan ibarətdir. İdeyalar əməllə nəzəri fikirlərin, reallıqla mücərrədliyin vəhdətini meydana gətirir. Zamanlar arasında forma və məzmun fərqləri və oxşarlıqları ilə əlaqələrin yaranmasını təmin edir. Hadisələr arasında forma və məzmun bağlılığını və fərqliliyini meydana gətirir. Buna görə də ideyalar faydalı olur və ümumiyyətlə, məzmun və mahiyyət etibarilə pozitivliyə xidmət etməlidir.

Təhlükəsizlik də özündə müəyyən hadisələri, prosesləri, bunlardan meydana gələn vəziyyətləri, halları cəmləşdirən ideyalar məcmusundən ibarət olur. Təhlükəsizlik həm kriteriya, həm də konsepsiyadır. Ümumiləşdirilmiş və xüsusiləşdirilmiş ideyadır. Strategiya və doktinaları əhatə edir, onun çoxlu sayda aspektləri geniş proqramları aid edir. Təhülkəsizliyin təmin olunması sistemli qaydada həyata keçirilir və sistemlərin tərkib hissələrini tənzimləyir. Təhlükəsizliyin təmin edilməsi müdafiə və mühafizə, həmçinin inkişaf strategiyasının tərkib hissəsini təşkil edir. Başlıca məqsəd sistemin mövcud və gələcək əsaslarını qorumaqdan ibarətdir. Təhlükəsizlik aspektləri istənilən sistemin (burada mücərrəd və konkret sistemlər) qorunması və müdafiəsi, mühafizəsi strategiyasını təmin edir. Bu baxımdan da təhlükəsizliyin təmin olunması sistemli aktlar olaraq qorumaq, mühafizə və müdafiə hərəkətlərindən ibarətdir. Təhlükəsizlik nizamasalma strategiyasının tərkib hissəsidir və elementlərin öz mövcud trayektoriyalarından

kənara çıxmalarının qarşısını almaq məqsədini güdür. Təhlükəsizlik sistemin təhlükəsizliyini sistemli qaydada təmin edən hərəkətlər məcmusundan ibarətdir. Deməli, düşünülmüş və planlaşdırılmış proseslərdən, prosesləri istiqamətləndirən nəzəri fikirlərdən ibarətdir. İctimai asayişin bərpası, müdafiəsi, dövlətin siyasi baxımdan müdafiəsi milli təhlükəsizliyin (dövlət təhlükəsizliyinin, vətəndaş təhlükəsizliyinin, cəmiyyət təhlükəsziliyinin) bazasında qərarlaşır. Təhlükəsizlik konsepsiyaları altında sistem üçün lazım olan maraqlar qorunur.

Hər bir ictimai-siyasi sistem daxildən və kənardan müəyyən zərərverici və pozucu ünsürlərlə rastlaşır. Bu ünsürlər istiqamətləri fərqli olan və toqquşan sistemlərdən meydana gəlir. Bu ünsürlər sabitliyin və dinamik inkişafın, rəvan gedişatın normal fəaliyyətinə mane olur. Təhlükəsizlik sabitliklə və sülhlə, dincliklə, əmin-amanlıqla yaşamaq deməkdir. Təhlükəsiz yaşamaq və fəaliyyət göstərmək sakit və rəvan şəkildə yaşamağın əsaslarını özündə əks etdirir. Müəyyən məkan üzrə təhülkəsizlik sistemsizliyin, yəni istiqamətləri başqa yönlərə uzana biləcək trayektoriyaların qarşısını alır və xaotik vəziyyətlərin formalaşmasına imkan vermir. Qeyd etmək olar ki, xaotik vəziyyətlər əslində yeni sistemli vəziyyətlərdir. Sistemin normal fəaliyyətinin qorunması, təmin olunması elə təhlükəsizliyin təmin olunması mənasını verir.

Təhlükəsizliyin təmin olunması siyasəti obyektlər və subyektləri əhatə edir. Məlumdur ki, təhlükəsizliyi təmin edən əsas qurum dövlətdir. Dövləti də vətəndaşlar təşkil edir. Deməli, vətəndaşların sistemli birliyi öz-özlüyündə elə dövlətin təhlükəsizlik resurslarını meydana gətirir. Dövlət öz təhlükəsizliyini, xalqın və vətəndaşların təhlükəsizliyini həm daxili ünsürlərdən, həm də xarici ünsürlərdən qoruyur. Dövlət öz təhlükəsizliyini qorumaqla tərkib elementləri olan sərhədlərini, atributlarını, tanıtım rəmzlərini və əhalisini qoruyur. Dövlətin funksiyası təhlükəsiz şəraitdə inkişafa xidmət etməkdən ibarət olur. Dövlətin təhlükəsizlik siyasəti

onun idarəetmə siyasətinin tərkibidir. Burada müşahidələr və nəzarət bu siyasətin tərkibini təşkil edir.

Təhlükəsizliyi qorumaq həm də inkişaf və mövcudluğu qorumaqdan ibarətdir. Təhlükəsizliyi qorumaq sistemliliyi müdafiə etməkdən və mühafizəsini təmin etməkdən ibarətdir. O da məlumdur ki, dövlət hakimiyyəti özünün idarəçilik siyasətinin tərkibi olaraq təhlükəsizliyi açıq və gizli yollarla təmin edir. Açıq yollar açıq təhlükələrin və risqlərin qarşısını alır, gizli yollar isə gizli niyyətlərin hazırlanmaqda olan qəsdlərin, təxribatların, hazırlanmaqda olan terrorun, transmilli cinayətkarlığın qarşısını alır.Gizli yollar hazırlana biləcək, həyata keçirilə biləcək terror aktlarının qarşısını almaq məqsədini güdür.

***Təhlükəsizliyin təmin olunmasının aşağıdakı istiqamətlərini ümumiləşdirmək olar:***

Bir istiqamət **obyektlərin** müdafiəsindən ibarətdir. Digər bir istiqamət isə **subyektlərin** müdafiəsi zərurətini meydana gətirir. Subyektlərin müdafiəsi öz-özlüyündə elə obyektlərin müdafiəsini, obyektlərin müdafiəsi isə subyektlərin müdafiəsinin əsasında dayanır. Hər iki qoruma obyektini də fəaliyyətin qorunması təşkil edir. Sistemin müdafiəsi təbii ki, özündə subyektləri və istifadə olunan vasitələri birləşdirir. Sistemin müdafiəsi özündə fəaliyyətin və proseslərin müdafiəsini də əks etdirir. Deməli, müdafiə, qoruma, mühafizə əsasən sistemi təşkil edən, sistemin aparıcı mexanizmisini yaradan ünsürlərin, elementlərin mövcudluğuna və gələcək inkişafına məqsədlənir.

Bu kimi istiqamətlər vəzifələrə və funksiyalar aid olunur. Qorumanın özü sistemli xarakteri kəsb edir və həm də sistemin struktur və mexanizmlərinin müdafiəsinə əsaslanır. Qoruma inkişaf strategiyasının da tərkibini əks etdirir. Sistemin,

mexanizmlərin sistemli qorunması, müəyyən mexanizmlərlə qorunması başlıca məqsədə və vəzifələrə çevrilir.

***Obyektlərin və onların proseslərinin qorunması baxımından,***

-sistemin (burada ailə, cəmiyyət, təsərrüfat birlikləri, əmək kollektivləri, dövlət, dövlətlər birliyi elə sistemli strukturları olan vahidlərdir) müdafiəsi və sistemə təhlükə törədə biləcək daxili və kənar ünsürlərin zərərsizləşdirilməsi;

-sistemin fəaliyyət strukturlarının mövcud və inkişaf əsnasında gələcək elementlərinin, sistemin tərkibinin müdafiəsi;

-nailiyyətlərin müdafiəsi (mədəniyyət, elm, incəsənət sahəsində olan nailiyyətlər);

-nailiyyətlərin gözlənilə bilən ardıcıl nəticələrinin müdafiəsi-buna bəzən intuitiv təhlükəsizlik adını da vermək olar;

-nailiyyətə aparıb çıxara biləcək aktların, funksiya və hadisələrin müdafiəsi;

-nailiyyətlərin başlanğıclarının qorunması;

-nailiyyətləri həyata keçirən şəxslərin müdafiəsi;

-dəyərli elmi əsərlərin müdafiəsi;

-pozitiv siyasət istiqamətlərinin qorunması və s.

***Subyektlərin qorunması baxımından,***

-sistemi təşkil edən elementlərin müdafiəsi;

-mütəxəssislərin, yaradıcıların və qurucuların müdafiəsi;

-sistemin özünün tərəf və subyekt kimi qorunması;

-sistemin mexanizmisini yaradan vasitələrin müdafiəsi və s.

**Qoruma, mühafizə etmək bu kimi prosesləri əhatə edə bilər:**

**-subyektin özünün və fəaliyyətinin –burada düzgün və qanuni fəaliyyətinin qorunması**-qoruma prosesləri müşahidə, nəzarət altında saxlanılması aktlarından ibarətdir;

**-obyektin özünün və fəaliyyətinin qorunması-**obyekt müşahidə və nəzarət altında olur, hərəkətlərinə nəzarət həyata keçirilir;

Təbii ki, obyektlərin və subyektlərin qorunması fəaliyyəti sistemli qaydada məlumatlar ötürülməsindən və qabaqlayıcı tədbirlər görülməsindən meydana gəlir.

Təhlükəsizliyin təmin olunması prosesləri təhlükə risqlərinin qarşısını almaqdan ibarətdir.

***Təhlükəsizliyin təmin olunması və dəyərlərin mühafizəsi üçün yeni ideyalar nələrdən ibarət ola bilər:***

İlk növbədə nəzərə almaq lazımdır ki, yeni ideyalar köhnə ideyalar üzərində formalaşır və həmin ideyaların davamı olur. İdeyalar inkişafın dinamikasına bağlı olur. Bir çox hallarda yeni ideyalar "itmiş köhnəliklərin" bərpasını da zəruri edir. Bu baxımdan maraqlar və tələb olunan hərəkətlər bir-birini əvəzləyir. Ümumiyyətlə isə ideyalar zaman-zaman keçmişə qərq olur, köhnəlir, yeniləri ilə əvəzlənir. Lakin ideyalar baza etibarilə köhnəliklər üzərində, mövcud olanlar üzərində qurulur. Burada müəyyən qədər məzmun və forma dəyişikliyi yaşanır. Elə də olur ki, yeni ideyalar üçün baza resurslar da mövcud olmur. Tamamilə yenidən qaynaqlanır.

**Yeni ideyalar:**

***-dünya üzrə yumşaq münasibət formalarının yaradılması şəraitinin qorunması***-bu o deməkdir ki, sabit regionlarda

sabitliyin dinamik qaydada mövcudluğunu qorumaq zərurəti meydana gəlir Bir regionda sülh və sabitlik pozulduqda, böyük dövlətlərin təcavüz hissləri oyanır. Ayrı-ayrı regionlar qeyri-sabitlik mənbəyinə çevrilir;

***-bütün regionlarda sülh, sabitlik və inkişaf "naqilinin", yəni, vəhdətinin qorunması, inkişafın zamana uyğun tələblərinin aşkar olunmasının təmin edilməsi***-bu, o deməkdir ki, sabitlik və inkişaf vəhdətdə qorunmalıdır ki, bir-birini şərtləndirə bilsin;

***-inkişaf proseslərindən zəruri və təbii olaraq meydana gələn yeni dəyərlərin qorunması və dəyərləri meydana gətirən vasitələrin təhlükəsizliyinin təmin edilməsi***-bu, o deməkdir ki, dəyərlər kompleks olaraq bütün aspektləri ilə qorunur. Çünki sistem, inkişaf trayektoriyası, sülh və sabitlik pozula bilər***;***

***-inkişaf etmiş cəmiyyətlərlə əlaqələrin və inteqrasiyanın yaranmasını təmin edən xətlərin və subyektlərin, obyektlərin qorunması-yeni inteqrasiya mühitinin ardıcıl xarakteri kəsb edən silsilələrinin qorunması***-bu, o mənanı verir ki, regionlararası inteqrasiyanı təmin edən vasitələr mövcuddur. Bu vasitələr məkanları birləşdirir. Resursların daşınması və keçid funksiyasını yerinə yetirir. Bu baxımdan da həmin vasitələr və resurslar qorunmalıdır***;***

***-regional milli xüsusiyyətlərin qorunması, qonşu xalqlarla mədəniyyətin inkişaf etdirilməsi*** – multikultural dəyərlərin tərkibi olaraq digər xalqlardan çoxlu sayda resursları əldə etmək üçün mədəniyyətləri qorumaq və inkişaf etdirmək lazımdır;

***-inkişaf etməkdə olan dövlətin və cəmiyyətin müsbət dəyərlərinin qorunması – sistemli qaydada meydana gələn proseslərin qorunması –*** cəmiyyət və dövlət sabit şəraitdə inkişaf etdikcə ortaya yeni dəyərləri çıxarır. Yeni dəyərlərdən ibarət olan resurslar çaışmazlıqları, boşluqları aradan qaldırır. Boşluqlar da inkişafdan meydana gələn məkanlardan üzərə çıxır;

***-keçmişin müsbət ənənələrinin, faydalı tərəflərinin qorunması və nəsillərdən-nəsillərə ötürülməsi. Ötürücü vasitələrin pozucu ünsürlərin təhlükələrindən qorunması-***xalqın, cəmiyyətin və dövlətin kimliyi həm də keçmiş xətləri və ənənələri ilə bağlıdır. Bu ənənələri yaşatmaq lazımdır. Ənənələr sistemin ardıcıllığını və bütövlüyünü təmin edir;

***-multikulturalizmin qorunması və çoxetnikliyin insan amili üzərində davam etməsinin təmin olunması. Vahid vətəndaş prinsipinin qorunması-***insan potensialı üzərində qurulan və etnik, irqi və dini ayrıseçkiliyə əsaslanmayan cəmiyyətlərdə insan hüquqları daha yaxşı təmin olunur. Çünki burada əsas hədəf insan və onun maraqlarının təmin olunmasına yönəlir;

***-regional inteqrasiyanın qorunması və siyasi kursa xətər törədə biləcək ünsürlərin zərərsizləşdirilməsi-***regionun bütövlüyünü pozacaq amillərin, ünsürlərin zərərsizləşdirilməsi və qonşu ölkələrlə əməkdaşlığın və tərəfdaşlığın qorunması və təmin olunması;

***-ənənəvi siyasi kursun qorunması və kursu davam etdirən şəxslərin təhlükəsizliklərinin təmin olunması-***bu əslində sistemin subyektlərinin qorunmasını özündə əks etdirir. Sələflikdən xələfliyə keçidləri təmin edən şəxslərin qorunması zəruri amilə çevrilir;

***-Azərbaycan üçün faydalı olan aralıq coğrafi-mədəni dəyərlərin qorunması-***Azərbaycan özünün inkişafı yolunda qarışıq mədəniyyətə malik olan xalqların bilik və bacarıqlarından yiyələnir. Bu istiqamətin qorunması başlıca strateji hədəfə çevrilir;

***-ənənəvi hakimiyyətin qorunması və milli maraqlara cavab verən hakimiyyətin formalaşdırılması proseslərinin normal axarının müdafiəsi-***bu aspektdə Azərbaycanda gələcəkdə yeni quruluşa keçidin təmin olunması üçün nəzəriyyəçilərin və praktiki siyasətçilərin qorunması, eləcə də siyasi-ictimai fikrin qorunması başlıca strateji hədəfə çevrilir.

## İqtisadiyyatın inkişaf etdirilməsinin əsasları (yeni ideyalar)

İqtisadiyyat dövlətin və cəmiyyətin təsərrüfat (əmək fəaliyyəti, tələbatların ödənilməsindən ibarət olan sistem) sisteminin əsasıdır. Dövlətin və cəmiyyətin maraqları ilk növbədə iqtisadiyyatla təmin olunur. İqtisadiyyat insanı dövlətdə sosial fərdə çevirir, onun potensialını aşkarlayır, istifadə edir. Eləcə də şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır. İqtisadiyyat hətta mədəniyyət normalarının inkişafında da öz yerinə məxsus olur. İqtisadiyyat vətəndaşla dövlət arasında əlaqələrin yaranmasını təmin edir. Hər iki tərəfi bir-birinə bağlayır və bu və ya digər səviyyədə asılı edir. İqtisadiyyat sosial-siyasi həyatın vəhdətləşməsində və harmonik məzmun almasında xüsusi qaydada iştirak edir. Dövlət öz vətəndaşının marağını iqtisadiyyatın səmərəli təşkili yolu ilə təmin edir. Vətəndaşların maraqlarının yüksək səviyyədə təmini elə dövlətin güclənməsinə gətirib çıxarır. Yüksək səviyyədə təmin olunmuş vətəndaş öz dövlətini dəyər ünsürü kimi görür və daima onun möhkəmlənməsinə çalışır. İqtsadiyyatın güclü olması və vətəndaşın sosial-rifah halının zənginliyi vətəndaşı həvəslə öz dövlətinə bağlayır. Iqtisadiyyat dəyər ünsürü və dəyər mənbəsi rolunda çıxış edir. İqtisadiyyat maraqların təmin olunmasını əks etdirən sistemli əlaqələrin əsasıdır. Burada maraqlı tərəflər kimi fərdi şəxslər və kollektivlər iştirak edir. Deməli, iqtisadiyyat fərdi və ümumi mənafeyə xidmət edən sistemli bir quruluşdur. İqtisadiyyat harmonik əsaslıdır və elementlərin əvəzlənməsinə, dəyişməsinə söykənən proseslərdən ibarətdir. Maraqlar ardıcıl qaydada təmin olunur. Bu təmin olunma prosesində məhz elementlər "doğulur" və "məhv olurlar". İqtisadiyyatın dinamikası bu dönərli prosesi təmin etməkdən ibarətdir. İqtisadi məkanlar genişlənir, elementlər çoxalır.

Məlumdur ki, beynəlxalq münasibətlərdə də iqtisadi vasitələr iştirak edir. İqtisadiyyat özlüyündə tərəf kimi baza və üst elementlərdən təşkil olunur. Hər iki tərəf bir-birinə xidmət edir. Təşkil proseslərində əmək resursları və dövlət iştirak edir. İqtisadiyyatın istehsalat hissəsi əsasən elm potensialı ilə əmək resurslarının, həmçinin istehsalat vasitələrinin cəmləşdirilməsindən meydana gəlir.

Cəmiyyət və dövlət tərkib elementlərdən ibarətdir. Tərkib elementlər subyektlər, obyektlər və onların əks olunduğu vasitələrdən təşkil olunur. Tərkib elementlər dövlətin və cəmiyyətin strukturunu təşkil edir. Tərkib elementlər arasında olan əlaqələr forması da cəmiyyətin və dövlətin məzmununu meydana gətirir. Forma və məzmun forması bir-birini tamamlayır. Məlumdur ki, dövlətin siyasətində iqtisadiyyat baza qurumdur və iqtisadiyyatın təşkil olunması, onun səmərəsi və səviyyəsi də dövlətin siyasətindən asılıdır. Dövlətin və cəmiyyətin sağlam mühiti insanların sağlam ruhuna bağlıdır. Sağlam mühit sağlam təminata və sağlam fəaliyyətə bağlıdır. Sağlamlıq enerjidən yaranır. İqtisadiyyat enerji ilə yüksək inkişaf mərhələsinə qədəm qoyur. Burada elementlər enerjiverci funksiya kəsb edirlər. Deməli, iqtisadiyyatın elementləri və onlar arasında olan əlaqələr forması məhz iqtisadiyyatın təşkilini meydana gətirir.

İnsanların sağlam ruhu da onların inkişaf edən əlaqələr və münasibətlər müstəvisində maraqlarının təmin olunması ilə bağlıdır. İnsanlar öz enerjiləri ilə iqtisadiyyatda nə dərəcədə sistemli olaraq iştirak edirlərsə, bir o qədər də iqtisadiyyatın inkişafı təmin olunur. İnsanların maraqlarının inkişaf xəttinə müvafiq olaraq təmin olunması məhz onların sağlam ruhuna xidmət edir. Ruh o halda daha da sağlam olur ki, cəmiyyət və dövlətdə əlaqələr və münasibətlər rəvan şəkildə inkişaf edir. Cəmiyyətin və dövlətin əlaqələr müstəvisində yaşanan rəvan mühit məhz insanlar arasında əlaqələrin və münasibətlərin sağalmasına xidmətə yönəlir.

İqtisadiyyatın sahələrinin genişlənməsi və genişlənmə sferasında strukturun tərkib elementlərinin sağlam olması məhz dövlətin möhkəmliliyinə gətirib çıxarır.

İqtisadiyyatın inkişaf etdirilməsinin bazası (burada ərzaq təminatı ilə bağlı olan ilkin bazası nəzərdə tutulur) kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar olur. Çünki insanların tələbatları daha çox kənd təsərrüfatında formalaşır və tələbat da kənd təsərrüfatının inkişafına bağlı olur. Kənd təsərrüfatı məhsullarının realizə olunması üçün bazarlar təşkil olunur. Kənd təsərrüfatı məhsulları daha çox ailələrdə, sosial sahələrdə və ictimai-iaşə müəssisələrində realizə olunur. Torpaq, əmək münasibətləri, istehsal münasibətləri, istehsal əlaqələrinin yüksək səviyyəsi təbii ki, iqtisadiyyatın sürətli inkişafının əsasında durur. Təbii resurslardan faydalanmaq və əmək məhsuldarlığını artırmaq iqtisadi inkişafın klassik nəzəri əsaslarındandır. İqtisadiyyat təbii ki, dəyişən əsaslarda inkişaf edir. Burada dəyişkənlik müəyyən mərkəzliliyi meydana gətirir. Məsələn, kənd təsərrrüfatı mərkəzli, bank mərkəzli iqtisadiyyat daha da inkişaf edən forma kimi baza əhəmiyyətli olur.

***İqtisadiyyatın inkişaf etdirilməsinin əsas istiqamətləri bunlardır:***

-kənd təsərrüfatı məhsullarının artması və onun istehlakı üçün bazarların təşkili;

-kənd təsərrüfatında işləyən işçilərin sayının çoxaldılması və əhalinin şəhərlərə köçünün (urbanizasiyanın) inzibati və liberal yollarla qarşısının alınması. Müxtəlif rejimlərin tətbiqi;

-kənd təsərrüfatı məhsullarının istehsalı üçün ictimai-iaşə sahələrinin təşkil olunması;

-kənd təsərrüfatı məhsullarının zamanla sərfəli qiymətlərinin müəyyən edilməsi;

-kənd təsərrüfatına yardım büdcələrinin yaradılması;

-kəndlərdə məktəblilərə dövlət və ictimai yardım fondlarının təşkil olunması;

-kəndlərdə çoxuşaqlı ailələrin təşviqinin təmin olunması;

-kənd təsərrüfatı rayonları ilə şəhər arasında fərqli qiymətlərin müəyyən olunması;

-kəndlə şəhər arasında məişət xidmətlərinin fərqli olması;

-kəndlə şəhər arasında fərqli pensiya siyasətinin həyata keçirilməsi;

-digər təqaüdlər arasında fərqlərin müəyyən olunması;

-iqtisadiyyata **bank nəzarətinin** təşkil olunması;

-iqtisadiyyatda bank iştirakçılığının sayını çoxaltmaq;

-iqtisadiyyatda bank idarəçiliyini təşkil etmək;

-xidmət obyektlərini çoxaltmaq, o cümlədən **“həyət yeməkxanaları”** nın **(binalarda)** sayını artırmaq;

-bankla bağlı həyatı təşkil etmək və s.

**İqtisadiyyatın inkişaf etdirilməsinin aşağıdakı digər əsaslarını (bankların geniş fəaliyyəti ilə bağlı) və istiqamətlərini də qeyd etmək olar:**

-banklar iqtisadiyyatın təşkilində geniş iştirak edir, banklar istehsalçı tərəf kimi çıxış edir, istehsalat və xidmət sərmayəçilərinə çevrilirlər;

-banklar öz maliyyə resurslarından istifadə etməklə iş yerləri yaradırlar və ayrıdıqları kreditləri iş yerləri ilə (istehsal və xidmət sahələri ilə) əlaqələndirirlər;

-cəmiyyətə, insanlara bank himayəçiliyini artırmaq zəruri amilə çevrilir;

-kiçik kreditlər verən bankların kredit məhsullarının satışının təşkili həyata keçirilir-banklar öz verdikləri kreditlərin vasitələrini, obyektlərini özləri müəyyən edirlər, kreditə alınan əşyaları əhaliyə və qeyri-əhaliyə özləri satırlar;

-bankların beynəlxalq məhsul ticarətində iştirakı təmin olunur, məhsulların barterində iştirak edirlər və s.

**Neftdən asılılığın azaldılması və dövlət büdcəsinin alternativ vasitələrlə formalaşdırılması**

Bu gün dünyada enerji mənbəyi və vasitələri kimi neft və qaz məhsullarının iqtisadiyyatın, əsasən sənayenin və infrastruktur vasitələrinin (nəqliyyat vasitələrinin) lokomotivi olduğu bir faktdır. Kömür istehsalı da əsas enerji mənbəyini formalaşdırır. Bununla yanaşı, nüvə enerjisindən də istifadə olunur. Enerjinin total olaraq neft və qaz məhsullarından digər bir məhsula keçməsi hələlik mümkün deyil. Elektrik enerjisinin daha böyük miqdarda əldə olunması məsələsində isə hal-hazırda fotoelektrik stansiyalarından geniş şəkildə istifadə olunmağa başlanılıb. Enerjinin tam şəkildə elektrik vasitələrindən əldə olunması da hələlik mümkün deyil. Bu baxımdan yanacaq mühərriklərini hələlik elektrik mühərrikləri total qaydada əvəzləyə bilmir. Eləcə də elektrik istehsalının özündə də yanacaq kimi neft və qaz məhsullarından istifadə olunur. Neftdən yağlar da alınır ki, bu da texnikanın istifadəsində olduqca zəruridir, sürtünmənin və dağılmanın qarşısını alır. Yağlar sənayedə sürtünmənin qarşısını almaq hesabına həm də sürəti artıran məhsul rolunu oynayır. Bu baxımdan neftin emalı da xüsusi strateji əhəmiyyət kəsb edir.

Qaz məişətdə də istifadə olunur. İctimai-iaşə xidmətlərinin çox hissəsi də qazdan asılıdır. Bir çox ölkələrdə (Çin, Türkiyə və s.) kömürdən də geniş istifadə olunur. Neft və qaz istehsal-infrastruktur-məişət həyatı vəhdətinin əsasını təşkil edir. Həmçinin bu kimi məhsullar ekoloji təmizliyin də korlanmasında bir o qədər yaxından iştirak etmirlər. Məşəllər hesabına neft emalındakı zərəli qazları yandırmaq mümkündür.

Neft və qaz makro iqtisadiyyatın makro təkanvericisidir. Mikro iqtisadiyyat da makronun içərisində cəmləşir. Deməli, mikro iqtisadiyyat da neft və qazdan asılıdır. Neft və qaz məhsulları daxili və beynəlxalq iqtisadiyyatın "mühərriki" rolunu oynayır.

Dünyanın neft hasil edən ölkələri öz iqtisadiyyatlarının əsaslarını neftdən formalaşdırırlar. Ərəb ölkələri, Rusiya, Mərkəzi Asiya ölkələri (əsasən Qazaxıstan və Türkmənistan), Azərbaycan və OPEC ölkələrinin iqtisadiyyatı və dövlət büdcələrinin böyük məbləği başlıca olaraq neft və qazın satışından əldə edilən gəlirlər üzərində qurulur. İqtisadiyyat neft və qazın çiyinlərində qərarlaşır. Neftin və qazın xammal kimi satışı dünyanın bir çox neft-qaz ölkələrində dövlətin "**xammal büdcəsi"**ni formalaşdırır. Məsələn, Rusiya və Azərbaycanda belə büdcələr mövcuddur. Azərbaycanın 2015-ci ilin dövlət büdcəsinin gəliri 19 milyard 438 milyon manat, xərclər isə 21 milyard 100 milyon manat proqnozlaşdırılır. Dövlət büdcəsinin gəlirlər hissəsində Dövlət Neft Fondundan daxilolmalar 10 milyard 388 milyon manat proqnozlaşdırılır. Vergilər Nazirliyinin xətti ilə daxilolmalar 7 milyard 112 milyon manat, Dövlət Gömrük Komitəsi yolu ilə daxilolmalar isə 1 milyard 500 milyon manat proqnozlaşdırılır.[5] Bununla bərabər, 2014-cü ilin oktyabr ayının 1-ə olan məlumata görə, Rusiyanın 2014-cü ilə olan dövlət büdcəsinin gəlirlərinin 36,4 faizi xarici iqtisadi əlaqələrin payına düşür. Təbii resurslardan istifadəyə görə ödənişlər isə 20,5 faiz təşkil edib.[6] Digər bir misal kimi onu da qeyd etmək olar ki, neftin hesabına 2014-2015-ci maliyyə ili üçün (aprelin 1-dən hesablanır) Qətər Əmirliyinin dövlət büdcəsi ölkə tarixində ən böyük büdcə hesab olunub. Məbləğ 225,7 Qətər riyalıdır. Bu da həmin dövr üçün 61,98 milyard ABŞ dollarına bərabərdir. Xərclər isə 218,4 milyard Qətər riyalıdır (60 milyard ABŞ dolları). Ölkənin maliyyə naziri Əli Şərif Əl Əmadinin məlumatına

---

[5] Azərbaycan Respublikasının 2015-ci ilin dövlət və icmal büdcələri üzrə layihələrin təqdimatı.www.maliyye.gov.az/sites/ default/ files/2015_teqdimat_%20(3).pdf

[6] Структура доходов федерального бюджета в 2014 году. info.minfinru/fbdohod.php

əsasən, burada əsas xərclər 2011-2016 –cı illəri əhatə edən Qətər Milli İnkişaf Strategiyasına və digər layihə və proqramlara yönləndirilir.[7] Xərclərin 87,5 milyard riyalı (24 milyard dolları) nəhəng layihələrə yönləndirilir.[8] Neftdən asılığın daha bir bariz nümunəsi olaraq, qeyd etmək olar ki, 2013-cü ilin məlumatına əsasən, İran istehsalının baza hissəsini neft və neft kimya məhsulları təşkil edir. İran ixracatının 80 faizini neft təşkil edir. Digər hissəsi isə kimya və neft-kimya məhsullarından ibarətdir. Meyvə, fındıq, xalça və s. kimi məhsullar da vardır. 2012-ci il üçün əsas ticarət partnyorları Çin (22,1 faiz), Hindistan (11,9) faiz, Türkiyə (10,6 faiz), Cənubi Koreya (7,6 faiz), Yaponiya (7,1 faiz) olmuşdur. Ümumdaxili istehsal məhsulunda kənd təsərrüfatının payı 10,6 faiz, sənayenin payı 44,9 faiz, xidmətlərin payı isə 44,5 faizdən ibarətdir.[9]

**Qeyd:** OPEC təşkilatının məlumatına əsasən, təşkilata üzv olan ölkələr içərisində 2012-ci ildə ən çox neft satan ölkə Səudiyyə Ərəbistanı olmuşdur. Ölkə 336 milyard,124 milyon ABŞ dolları məbləğində neft ixrac etmişdir. Növbəti sırada Birləşmiş Ərəb Əmirlikləri (118 milyard, 80 milyon dollar) qərarlaşmışdır. Qətər üçüncü sırada (116 milyard, 209 milyon dollar) olmuşdur.[10]

Neftin satışı onu satan ölkələrin iqtisadiyyat mühitində arxayınçılığı (neftin qiymətləri yüksək olan zaman) meydana gətirir. İqtisadiyyatın digər sahələrinə laqeyd münasibət

---

[7] Qatar"s $62B Budget Sets Government Spending Record. Published: April 2, 2014. www.qatarus.com/2014/04/02/qatars-62b-budget-sets-government-spending-record/

[8] Qatar announces largest budget in its history. By Ebrahim Omar İn Doha. 2014-04-07.al-shorfa.com.en_GB/articles/meii/features/2014/04/07/feature-02

[9] İran Economy Profile 2014. İndex Mundi.www.indexmundi.com/iran/economy_profile.html

[10] OPEC.Annual Statistical Bulletin. 2013. www.opec.org/opec_web/static_files_project/media/downloads/publications/ASB2013.pdf.

bəslənilir. Neft iqtisadiyyatındakı həcm bir çox hallarda digər sahələrlə balans yarada bilmir. Buna görə də büdcə neftdən asılı vəziyyətdə qalır.

Beynəlxalq bazarlarda neftin qiymətlərinin dəyişən xarakteri (məsələn, 2014-cü ilin iyun ayının ortalarında brent markalı neftin bir barelinin qiyməti 115 ABŞ dolları olmuşdursa, hal-hazırda ucuzlaşmışdır.[11]) neftdən asılı olan ölkələrin iqtisadiyyatında böyük problemləri meydana gətirir. Böhranlarda siyasi faktorlar, böyük dövlətlər arasında dünyanın bölüşdürülməsi uğrunda gedən mübarizə neft və qaz amilini siyasi və iqtisadi təzyiq amilinə çevirir. Bu anda neftdən asılı olan ölkələrin əhalisinin sosial-rifah halı qətiyyən düşünülmür. **"Ən əsası mübarizdə qalib gəlmək olsun"** prinsipi əsas götürülür. Neft böhranlarının iqtisadiyyat böhranlarını yaratmasının qarşısını almaq üçün müxtəlif yollar araşdırırılr. Neftin qiymətinin beynəlxalq bazarlarda ucuzlaşması (18 noyabr 2014-cü ilin məlumatına əsasən, NYU-Yorkun NYMEX əmtəə birjasında keçirilən elektron ticarət əməliyyatlarının gedişində WTİ neftinin qiyməti 1 barelə görə 75,31 dollar, İCE London qitələrarası birjasında Brent markalı neftin bir barelinin dəyəri 78,95 dollar[12]) bir tərəfdən dünyada məhsulların ucuzlaşmasını yaratsa da, digər tərəfdən iqtisadi uyğunlaşmanı pozur və bu da özlüyündə sistemin, vərdiş olunmuş sistemin özünün pozulmasına gətirib çıxarır. Oynayan məzənnələr iqtisadi sistemlərdə depressiyaları meydana gətirir ki, bu faktor da cəmiyyətlərin gərginləşməsinə səbəb olur.

Neftdən asılılığın azaldılması və dövlət büdcəsində neftin payının doldurulması üçün alternativ yolların tapılması mümkündür. Hal-hazrıda Azərbaycanda irimiqyaslı layihələr

---

[11] Azərbaycan Respublikasının 2015-ci ilin dövlət və icmal büdcələri üzrə layihələrin təqdimatı.www.maliyye.gov.az/ sites/default/files/ 2015_teqdimat_%20(3).pdf

[12] Dünya bazarında neftin qiyməti. 18.11.2014. İqtisadiyyat. news.milli.az/economy/309206.html

hesabına ÜDM-də qeyri-neft məhsullarının payının çoxaldılması siyasəti həyata keçirilir. Məsələn, belə bir rəqəm var ki, Azərbaycanda qeyri-neft sektoru üzrə ÜDM-nin ötən ilin 9 ayının müvafiq dövrü ilə müqayisədə artımı altı faiz olmuşdur.[13]

Belə hesab etmək olar ki, neftin dövlət büdcəsində payının çatışmayan hissəsini əhaliyə satılan **strateji məhsullardan** əldə olunan gəlirlər hesabına ödəmək olar. Bu, elə bir məhsul olmalıdır ki, həmin məhsul əhalinin hər birinə, hər bir ünvana lazım olsun. Buna **"fövqəladə məhsul"** adını da qoymaq olar. Əsasən belə fövqəladə məhsulu dövlət özü istehsal edib, özü də yerli əhaliyə və beynəlxalq iqtisadi münasibətlərin tərkibi olaraq digər ölkələrin əhalisinə sata bilər.

**Neftdən asılılığın azaldılmasını (beynəlxalq bazarlarda neftin ucuzlaşması zamanı) və dövlət büdcəsinin artırılması siyasətini bu kimi əsaslarla ümumiləşdirmək olar:**

***-qeyri-neft məhsullarının istehsal həcmini genişləndirmək və kəmiyyət və keyfiyyət hesabına bazarda ucuzluğa nail olmaq;***

***-kənd təsərrüfatı rayonlarında, kəndlərdə yaşayan əhali üçün fərqli kredit və əmanət sertifikatı siyasətini həyata keçirmək;***

***-qeyri-neft məhsullarının istehsalını artırmaqla, dünya bazarında rolunu möhkəmləndirmək və əhatəsini genişləndirmək;***

***-<u>fövqəladə məhsul</u> (bu, orqanizmə faydalı olan hər hansısa bir ərzaq məhsulu ola bilər) istehsal etmək və bu məhsulu, - əhalinin hər bir üzvünə aid olmaqla, -liberal əsaslarla, ehtiyacın ödənilməsinə müvafiq qaydada satmaq.***

[13] Azərbaycan Respublikasının 2015-ci ilin dövlət və icmal büdcələri üzrə layihələrin təqdimatı.www.maliyye.gov.az/sites/default/files/ 2015_teqdimat_%20(3).pdf

*Dövlət büdcəsinin kəsirlərini fövqəladə məhsullardan ödəmək;*

*-fövqəladə məhsulun istehsalında özəl sektoru alternativ istehsalçı tərəf olaraq yaxın buraxmamaq-özəl sektoru qorumaq məqsədilə;*

*-dövlətin ictimai-iaşə obyektlərini təşkil etmək;*

*-neftin qiymətlərinin aşağı düşəcəyi anında ölkədə "fövqəladə aylıq, rüblük" müəyyən etmək və fövqəladə məhsulun realizəsini zamanla həyata keçirmək;*

*-dövlət büdcəsinə ictimai yardım fondlarını yaratmaq;*

*-dövlət büdcəsini əlavə yüklərdən azaltmaq;*

*-həqiqi hərbi xidmətə çağırışdan müəyyən müddət üçün möhlət hüququnu dövlət büdcəsinə pul köçürməklə təmin etmək;*

*-dövlət hakimiyyəti strukturlarının saxlanılması xərclərini azaltmaq və büdcəni digər yüklərdən xilas etmək;*

*-dövriyyəni artırmaq üçün bazardan, əhalidən, evlərdən pulları banklara toplamaq siyasətini artırmaq;*

*-qiymətli kağızlar siyasətini təkmilləşdirmək, istiqrazlar siyasətini, yəni əhalidən (fiziki və hüquqi şəxslərdən) borcların alınması siyasətini cəmiyyətdə geniş təbliğ etmək, qiymətli kağızlar üzrə əhalini geniş tərkibdə investora çevirmək;*

*-əmanət sertifikatları siyasətini sürətləndirmək və xüsusilə, rayonlarda yaşayan şəxslər (səhmdarlar) üçün fərqli (üstün) faizlər müəyyən etmək;*

*-əmək məhsuldarlığını artırmaq, qeyri-neft məhsullarının bazarını təkmilləşdirmək, bu məqsədlə, şəhərdə yaşayan işsizlər üçün yeni-yeni sənaye şəhərini yaratmaq və s.*

**Dini aylarda, bayramlarda, digər əlamətdar günlərdə "Afrika qitəsinə beynəlxalq yardım aylığı"nın keçirilməsi. "Afrika qitəsinə beynəlxalq yardım günləri"nin təsis olunması**

Hər kəsə məlumdur ki, dinlərin əsasını vicdan, saflıq, təmizlik, paklıq, ədalətlilik, düzgünlük, dürüstlük, bərabərlilik, etibarlılıq, harmoniyalılıq, xeyirxahlıq, mərhəmətlilik, güzəşt, bağışlama, əxlaq, tərbiyə, şərəf, namus, qürur, gözəllik, həyatdan zövq almaq, dözüm, səbr, lazımi anlarda qəlbkövrəkliyi, fikir yumşaqlığı, aza qane olmaq, nəfsə hakim olmaq, dünya malından (maddiyyatdan) imtina etmək, ümumiyyətlə, insanlığa xidmət edən və insanlığı inkişaf etdirən bütün pozitiv dəyərlər təşkil edir. Həyatın axarında, inkişaf tempində lazımi normalar, insanları narahat etməyən ölçülər dəyərlərdir. Bu dəyərlər fərdi və kollektiv olaraq həm insanlar arasında olan münasibətləri, həm də insanların təbiətə, kainata olan, eləcə də fövqəlqüvvəyə olan inamlarının əsaslarını meydana gətirir. Dini inanclar insanlar arasında saf və pak inamı, inamlı, etiqadlı münasibətləri və qəlbyumşaqlığını formalaşdırır. Dini inanclardan irəli gələrək insanların həyatında bir çox müqəddəs aylar, günlər yaşanır. Həmin məqamlarda inanclardan irəli gələrək, insanlar diqqətlərini daha çox mərhəmətlərinə yönəltəməyə çalışırlar. Bu da özlüyündə özünüdərk fəlsəfəsini formalaşdırır. İnsan özünü pozitiv bir məxluq kimi hiss etməyə çalışır. Saf əməl, yəni əməli salehlik insanların bir çoxlarının başlıca həyat tərzini təşkil edir. Elə insanlar da olur ki, nəinki müqəddəs hesab olunan aylarda və günlərdə, həmçinin bütün həyatları boyu özlərini ədalətli davranışa həsr edirlər. Fəaliyyətlərində ədalət əsas yer tutur.

Din mənəviyyat bazasıdır. Mənəviyyat dəyərlərinin toplusudur. Dində insanlar arasında mənəvi-maddi xeyirxahlıq, yaxşılıq etmək əsas tələbdir. Xeyirxahlıq ən yüksək mənəvi

dəyərlərdən biridir. Özündə çoxlu sayda dəyərləri də cəmləşdirir. Ədalətli davranmaq elə yaxşılıq deməkdir. Dürüst danışmaq özlüyündə yaxşılıq, xeyirxahlıq mənasını verir. Yaxşılığa doğru insanları səsləyir. Dini inanclar insanların daxilləri ilə ətraf aləm arasında üzvü harmonik vəhdəti meydana gətirir. Ümumiyyətlə, bütün pozitivlik özündə digər dəyərlər məcmusunu cəmləşdirir. Dəyələr vahid xətlər üzrə törəyir və konseptual məzmun kəsb edir.

O da çoxlarımıza məlumdur ki, maddi amillər, maddi ehtiyacların ödənilməsi insani dəyərləri, keyfiyyətləri lazımi səviyyədə saxlayır. Hər şey ölçülərə tabedir. Ölçü kriteriyasına hörmətlə yanaşmaq və ətraf subyektlərin ölçülərini nəzərə almaq özlüyündə və məkana, sərhədlərə uyğun hərəkət etmək həm əxlaqdır, tərbiyədir, həm də estetikadır. Bu baxımdan da ölçülər mənəvi-maddi aləmin uca dəyərlərini formalaşdırır. Maddi tələbatların lazımı səviyyədə ödənilməsi insanların daxili və xarici aləmləri arasında uyğunluğu, saflığa söykənən harmoniyanı meydana gətirir. Maddi həyat maddi dünyada mənəviyyat zənginliyinin əsaslarında dayanır və mənəvi tarazlığın pozulmasının qarşısını alır. Lakin o da məlumdur ki, maddi aləmə çox qapanma mənəviyyatın korlanmasına gətirib çıxara bilir. Bu amil də ümumilikdə insan həyatının məhvinə səbəb olur. Dinin əsasında insanların ədalətli davranışını meydana gətirən və ədalətli davranışla yaranan normalar dayanır. Əxlaq da normalı, sərhədli davranışlardan ibarətdir.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, dünyada, o cümlədən qitələrdə, materiklərdə, dövlətlərdə, cəmiyyətlərdə, xalqlarda, tayfalarda heç də bərabərlik, bərabər həyat sürmə mövcud deyildir. Dünyada kateqoriya fərqləri baxımından inkişaf etmiş, inkişaf etməkdə və kasıb dövlətlər, qitələr mövcuddur. Bu baxımdan da ümumi tarazlıq-maddi-mənəvi harmoniyalılıq yarana bilmir. Dünyada coğrafi regionlar arasında yaşam səviyyəsinə görə kəskin ziddiyyələr mövcuddur. Bu ziddiyyətlər dünya sülhünə olan təhdidləri

meydana gətirir. Həmçinin inkişaf etmiş dünya güclərinin zəif olan tərəflər üzərində nəzarət mexanizmisini formalaşdırır. Dünyanın əksər regionlarında yaşayan insanlarının yaxşı həyat tərzi sürmək üçün inkişaf etmiş ölkələrdə, regionlada "gözləri qalır". İnkişaf fərqləri (burada kəskin fərqlər nəzərdə tutulur) insanlar arasında xoşbəxtlik fərqlərini də meydana gətirir. Hər kəs yaxşı yaşamaq, ədalətli cəmiyyətlərdə, hüquqları yüksək səviyyədə təmin olunmuş cəmiyyətlərdə yaşamaq ixtiyarına sahib olmaq istəyir. İnkişaf şərti olaraq məhdud tərəflərdə olanda inkişafa məruz qalmayan tərəflər inkişaf tərəfləri üçün təhlükələri meydana gətirir. Kasıb cəmiyyətlərdə hakimiyyətlər də öz vətəndaşlarına qarşı radikal davranışlar edirlər. Məsələn, diktaturalar, avtoritar rejimlər daha çox kasıb cəmiyyətlərdə formalaşır. Afrika diktaturlarında da bu kimi səbəblər vardır. Ona görə ki, kasıbçılığa görə insanlar öz hakimiyyətlərindən daima narazlıqlarını ifadə edirlər və hakimiyyətlərinin dəyişmələri uğrunda mübarizə aparırlar. Hakimiyyət isə güc yolu ilə öz hökmünü diktə edir. Bu baxımdan da sosial-rifahın yüksək olması sabit cəmiyyətlərin və stabil dövlətlərin formalaşmasına səbəb olur. Cəmiyyətlərin liberallığı başlıca olaraq iqtisadi sistemin təkmilliyindən və balanslı və diversifikasiyalı iqtisadiyyatdan formalaşır. Radikallıq enerji azalığından yaranır və bu da özlüyündə bərk sistemlərin dağılmasına gətirib çıxara bilir. İqtisadi sistemlərin sosial sistemlərə lazımi səviyyədə xidmət göstərməsi üçün müəyyən resurslar çatışmır.

Afrika qitəsində ərzaq çatışmazlığı, gündəlik tələbat mallarının qıtlığı, ərzaq böhranı və tibbi ləvazimatlar böhranı qitədə qeyri-stabil cəmiyyətlərin formalaşmasına gətirib çıxarır. Kütləvi epidemiyalar yayılır və insan həyatına zərbə vuran ölümcül viruslar *(məsələn, ebola virusu – keçici hemorragik qızdırmasının səbəb olan virus-peydah olur. Bu virus Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən "bəşər tarixinin ən qəddar virus xəstəliyi" adını alıb. Virusun mənşəyi Afrika*

*hesab olunur. "Ebola" virusuna ilk yoluxma faktı hələ 1976-cı ildə qeydə alınıb. İndiki Konqo Demokratik Respublikasının ərazisindən axan Ebolanın adı ilə adlandırılıb)* peydah olur. Digər qitələrə də yayılır. Məsələn, Afrikada (Qvineyada) xidmət göstərən ABŞ vətəndaşlarına 2014-cü ilin oktyabr-noyabr aylarında Ebola virusunun keçməsi faktları aşkar olunmuşdur.[14]

**Qeyd:** Ümumdünya Səhiyyə Təşkilatının noyabr ayının axırlarına olan hesabatlarına əsasən, Ebola virusundan ölənlərin sayı 6928-ə çatıb, yoluxanların sayı isə hazırda 16200 nəfər təşkil edir. Virusdan ən çox zərər çəkən ölkə Liberiyadır. Orada 7200 yoluxma və 4200 ölüm halı qeydə alınıb. Sierra-Leonedə xəstəliyə 6800 nəfər yoluxub, 1400 nəfər ölüb, Qvineyada 2100 nəfər xəstələnib, 1300 nəfər həyatını itirib.[15]

Afrika qitəsinin kasıb regionlarına dünyanın geniş əhatəli maddi dəstəyi tələb olunur. Bütün dünyanın əsas diqqəti Afrika qitəsinə yönəlməlidir ki, digər regionlar özlərini müdafiə etsinlər. Bütün dünya üzrə bəşəriyyətin qorunması əsas tələbdir. Afrikada isə resursların çaışmazlığına görə bəşəri dəyərlər sağlam vəziyyətdə deyil. Dinlərdə olan xeyirxah tələblər bütün dünyanın diqqətini Afrikaya yönəltməni tələb edir. Afrikanı qorumaqla dünyanın digər regionları sanki özlərini qorumuş olurlar. Epidemiyalara, viruslara qarşı yeni vaksinlərin tapılması və regiona yardım şəkilində çatdırılması böyük problemləri yaradır. Digər tərəfdən qitədə olan kriminal vəziyyət yardımların paylanmasını və diqqəti, qayğını çətinləşdirir. Lakin bunlara baxmayaraq insanlar kütləvi olaraq hökumət və qeyri-hökumət səviyyəsində öz yardımlarını

[14] Centres for Disease Control and Prevention. Ebola (Ebola Virus Disease). Cases of Ebola Diagnosed in the United States.www.cdc.gov/vhf/ebola/outbreaks/2014-west-africa/united-states-imported-case.html

[15] Eboladan ölənlərin sayı 7 minə yaxınlaşdı. 29.11.2014. www.news.lent.az/news/185901

etməlidirlər. Bu yardımların edilməsi üçün ən münasib günlər, həftələr, aylar dini əlamətdar günlər və aylardır. Bu baxımdan da inancıl insanların Afrika qitəsinə yardımını genişləndirmək qlobal inkişaf dövrünün zəruri tələblərindəndir.

**Aşağıdakı günlər Afrika qitəsinə "dünyanın yardım günləri" hesab oluna bilər:**

-Musəvilikdə orucluq günləri-(Yom Kippur-ibranicə tövbə günü-kəffarə orucu);[16]

-Xristianlıqda orucluq günləri-uzunmüddətli orucluq günləri-Pasxadan əvvəl-böyük oruc-7 həftə; Pyotr orucu-8-42 gün; Uspensk Orucu-iki həftə, mövlud və ya Filip orucu-15 noyabrdan yeni ilə qədər;[17]

-Buddizmdə orucluq günləri;

-Hinduizmdə orucluq günləri (nəfsi tərbiyə etmək günləri);[18]

-Daosizmdə orucluq günləri;

-Brahmanizmdə orucluq günləri-

-Müsəlmanların orucluq (Ramazan) ayı (müxtəlif ianələrin toplanması ayı;

-Müsəlmanların həcc ziyarətlərinə getməsi dövrü və qurbanlıqların kəsilməsi günləri;

-ümumiyyətlə, qurban bayramı günləri və digər əlamətdar günlərdə.

Afrika qitəsinə yardımlar: ərzaq, geyim məhsulları, pul vəsaitlərindən ibarət ola bilər.

---

[16] Digər dinlərdə orucluq. www.zeka.az/1858-ddgzhr-ddnlzhrdzh-oruc.html. Diger Dinlerde ORUÇ.www.enfal.de/oruc8.htm

[17] Yenə orada.

[18] Diger Dinlerde ORUÇ.www.enfal.de/oruc8.htm

## Əhəmiyyəti:

-ümumdünya üzrə nisbətən tarazlı həyat tərzinə nail olmaq;

-insanların bəşəri düşüncələrini inkişaf etdirmək;

-tolerantlığın yaranmasında iştirak etmək;

-dinlər arasında bəşəri yaxınlaşmanı təmin etmək və dinlərin vahid məzmunlu məqsədlərini aşkar etmək;

-dinlərin xeyirxah xidmətlərini sübuta yetirmək;

-Afrikaya doğru "yaxşılıq axını"nı formalaşdırmaq və qitəyə universal diqqəti yüksəltmək;

-Afrikanı **"bəşəri rəhm mərkəzi"**nə çevirmək;

-dünya bütövlüyünə qismən də olsa nail olmaq;

-maddi-mənəvi resursları lazımi istiqamətlərə yönəltmək;

-maddiyyat aləminin mənəviyyat aləmi ilə harmonik sintezini yaratmaq üçün ölçülər prinsipinə əməl etməklə, maddi israfçılığın qarşısını almaq;

-dünyanın maddi-mənəvi tarazlığına qismən də olsa nail olmaq;

-insanlar arasında yardım göstərmək vərdişlərini inkişaf etdirmək və xeyirxahlığı genişləndirmək;

-qəlbyumşaqlığını aşılamaq və radikal baxışları liberal-yumşaq baxışlarla əvələmək;

-qitələrarası münasibətlərdə incə məzmunlu siyasətin formalaşmasına yardım etmək və bütün diqqətləri bəşəri kasıbçılığın aradan qaldırılmasına yönəltmək;

-dünya malını bölüşmək və s.

**Əlavə: Hüquqi aktların təsnifatı: *dövlət konsepsiyası, dövlət proqramı, dövlət strategiyası, dövlət doktrinası, dövlətin fəaliyyət planları* adlanan hüquqi aktların əsasları**

Dövlət ümumi forma baxımından canlanan nizamlı (onun nizamlılığı idarəetmədə, bu əsasda da tabe etmədə büruzə verir. Hakimiyyətlər arasında olan əlaqələr strukturu və qaydaları da nizamlılığın əsasında dayanır), elementlərin qarşılıqlı fəaliyyətini əks etdirən bir quruluşdur və sahələrdən ibarətdir. Dövlətin özünün **(subyekt kimi)** strukturları mövcuddur (burada strukturlar tərkib elementlər kimi onun formasını meydana gətirir) və həmçinin **fəaliyyətinin** strukturları vardır. Fəaliyyətinin strukturları mexanizmlərin əsaslarını formalaşdırır. Bu baxımdan da dövlət bir varlıq kimi həm özünün canlı strukturunu (canlı formasını) yaradır, həm də fəaliyyətinin strukturlarını (iyerarxiyalı və sahələr üzrə) meydana gətirmiş olur. Dövlətin özünün subyektlərdən, tərəflərdən ibarət olan strukturu iyerarxiyalıdır, subyektlər hüquq tərəfləri olmaqla müəyyən vəzifələrə və səlahiyyətlərə malikdir. Onların hüquq və səlahiyyətləri məsuliyyətlərini meydana gətirir. Vəzifələrin, funksiyaların, öhdəlik və məsuliyyətlərin məkanı, tutumu mövcud olur. Bu məkan sistemdə şaquli və üfiqi əlaqələr formasını, elementlər düzülüşünü meydana gətirir. Dövlət hüquq tərəfidir, potensialı vardır, imkanlara, resurslara sahibdir. Hüquq tərəfinə, bu baxımdan vəzifə və öhdəliklərə, məsuliyyətə malik olan tərəflərin (subyektlərin, subyektlər birləşmələrinin) məcmusuna xasdır. Dövlətin ümumi hüquq kəmiyyəti (hüquqi səlahiyyətlərin, vəzifələrin element kimi cəmləşməsi, xəyali hüquq miqdarı) onu təşkil edən strukturların, subyektlərin hüquq cəminə bərabərdir.

Dövlət insanların əmək və ictimai münasibətlərini hüquqi əsaslarla (burada vəzifə və səlahiyyətlərindən, öhdəliklərindən irəli gələrək) ayrı-ayrı sahələrdə təsnif edir, qruplaşdırır və

tənzimləyir. Dövlət hüququnun rəngarəng məzmunu onun funksiyasının rəngarəngliyindən meydana gəlir. Deməli, dövlət ictimai-fiziki əlaqələr birləşməsindən ibarət olan universal və cəm halda mürəkkəb məzmunlu bir strukturdur. Dövlət idarə edənlərlə idarə olunanlardan (hakimiyyətdən və vətəndaşlardan) ibarət olan kompozisiyalı bir bütövdür. Dövlət bu iki şərti tərəf arasında sosial-hüquqi, iqtisadi-mədəni və siyasi bir vəhdət yaradır. Dövlət insan maraqlarını sahələr üzrə nizamlı qaydada tənzim və təmin edir. Dövlətin sahələri və insan maraqlarını təmin etmək funksiyası müəyyən vasitələrlə yerinə yetirilir. Bu vasitələrdə siyasətin, fəaliyyətin universal əsasları və istiqamətləri öz əksini tapmış olur.

Dövlət öz siyasi fəaliyyətininin forma və məzmununu yazılı əsaslarla sənədlərdə əks etdirir. Sənədlər siyasi və hüquqi məzmunlu olur. Siyasətin məqsəd və vəzifələri hüquq normalarında əks olunur. Bu sənədlər universal və məxsusi-konkret olmaqla müəyyən hüquqi qüvvəyə malik olur. Sənədlərin obyekti vətəndaşlar və onların maraq sahələri olur. Sənədlərdə tənzim olunma sahələri öz əksini tapır. Bu nöqteyi-nəzərdən də predmetlərə müvafiq olaraq sənəd sahələri meydana gəlmiş olur. Sənədlər arasında asılılıq və törəmə xassələri və strukturu piramidal qaydada formalaşır və sənədlərin səlahiyyət, status fərqləri meydana gəlmiş olur. Sahələr təsnif olunduğundan, dövlətin daxili strukturlarını əks etdirdiyindən, sahələr makrodan mikroya qədər öz kəmiyyətini dəyişdiyindən, onlara aid olan sənədlər də öz əhəmiyyətlərinə görə dərəcələnirlər. Sənədlər yuxarı və aşağı iyerarxiyada ümumi və məxsusi olurlar. Sənədlər hüquqi qüvvələrinə görə (burada hüquqi qüvvələr sənədin əhatə etdiyi sahələrin elementlər kəmiyyətindən meydana gəlir. Sənədlərin tənzim etdiyi sahələr çox olduqca və digər sahələrə aidiyyatı çox olduqca hüquqi qüvvəsi də çox olur) fərqlənirlər. Bir-birilərindən törəyirlər. Sənədlər universallıqdan məxsusiliyə,

məxsusilikdən də universallığa doğru təsnif olunurlar. Sənədlər bir-birini qoruyur, şərtləndirir və törədici funksiya kəsb edir.

Dövlət möhürləri iə təsdiqlənmiş və reyestr qeydiyyatına alınmış, dərc olunmuş sənədlər səlahiyyətverici statuslar kimi subyektlərin fəaliyyətini istiqamətləndirmək funksiyasını yerinə yetirir.

Sənədlər **müəyyənedici, təsdiqedici** və **istiqamətverici** olurlar. Hər bir sənəd həm öz tənzimedici sahəsində istiqamətlərverici funksiya daşıyır, həm də digər sahələrin sənədləri üçün istiqamətlər müəyyən edirlər. Bu baxımdan da şərti olaraq səndələri **universal –istiqamətverici və konkret istiqamətverici-tənzimedici** kimi təsnif etmək olar. Universal istiqamətverici sənədlərə- iyerarxiyanın yuxarı mərhələsindən aşağılara doğru -konstitusiyanı, referendum aktlarını, qanunları, dövlət rəhbərinin fərmanlarını, beynəlxalq müqavilələri; digər istiqamətdə isə dövlət konsepsiyalarını, strategiyalarını, planlarını, dövlət proqramlarını və doktrinalarını aid etmək olar. Bütün sənədlər, xüsusilə, yuxarı iyerarxik struktur tərəfindən qəbul olunmuş sənədlər hüquqi aktlardır, digər hüquqi aktlarla qüvvəyə minir və öz hüquqi səlahiyyətinə xitam vermiş olur.

Dövlət sənədlərinin universal tiplərini (yuxarı mərhələdə) iki istiqamətə ayrımaq olar: **dövlət konstitusiyası, referendum aktları; qanunlar, onların tərkibini təşkil edən beynəlxalq müqavilələr(digər beynəlxalq sənədlər), məhkəmə qərarları (konstitusiya məhkəməsinin qərarları), ali hakimiyyətə seçki aktları (qanunlar); ümumi istiqamətverici, eləcə də konkret sahələri (məsələn, iqtisadiyyat, sosial və idman sahələri, elm və təhsil sahələri, mədəniyyət sahələri, ekoloji sahələr, sağlamlıq sahələri, milli təhlükəsizlik və hərbi sahələr, gənclərlə bağlı sahələr, həmçinin dövlətin ümumi fəaliyyət strukturuna daxil olan və ümumi fəaliyyət strukturunun tərkibini təşkil edən ümumi və strateji sahələr) əhatə edən dövlət proqramları,**

**konsepsiyalar, doktrinalar, strategiyalar, fəaliyyət planları adlanan sənədlər.**

Dövlət sənədlərinin məxsusi tiplərini (orta aşağı mərhələdə) də iki baza istiqamətə ayırmaq mümkündür: **mərkəzi icra hakimiyyətinin sənədləri, yerli icra hakimiyyətinin sənədləri, yerli qanunvericilik qurumlarının sənədləri, məhkəmənin sənədləri; yerli özünüidarəetmə qurumlarının sənədləri.**

Ümumiyyətlə, sənədlərin universal və məxsusi mahiyyətləri iyerarxiyalaşır. Bu baxımdan da sənədlərin səlahiyyət bölgüsü kimi funksiyası meydana gəlmiş olur. Hakimiyyətin yuxarı mərhələsində hüquqi aktlar daha çox siyasi, aşağı mərhələsində isə inzibati gücə malik olur. Ümumilikdə isə bütün dövlət sənədləri hüquqi-siyasi məzmunludur. Ona görə ki, sənədlərdə hüquqla siyasət vəhdətləşir. Hüquq normaları siyasətin həyata keçirilməsi vasitəsinə çevrilir. Hüquq normalarında siyasətin istiqamətləri müəyyən olunur.

Dövlətin ayrı-ayrı mühüm sahələrini tənzim edən, ayrı-ayrı sahələrdə universal və məxsusi istiqamətlər (siyasət istiqamətləri) müəyyən edən sənədləri xüsusi əhəmiyyət kəsb edir. Belə sənədlər konstitusiyadan doğmaqla yanaşı, özləri ilə yeni qanunvericilik aktlarının qəbulunu da tələb edir. Qanunvericilik aktları qanunlardan tutmuş yerli icra hakimiyyətinin qəbul etdiyi hüquqi aktları əhatə edir.Bu baxımdan da bu kimi sənədləri də normativ-hüquqi aktlar kimi qəbul etmək olar. Çünki bu sənəddə öz əksini tapmış normaların yerinə yetirilməsi lazım olur. İmperativlik və dispozitivlik (burada geniş imkanlılıq və nizamlılıq) bu kimi sənədlərin mətnlərində də əksini tapır.

**Dövlət konsepsiyası.** (Konsepsiya sözü lat.-başa düşmək, sistem- hər hansı bir hadisə haqqında əsas fikir, görüşlər sistemi, dünyada, təbiətdə, cəmiyyətdə hansısa hala dair baxışlar sistemi kimi izah edilir). Dövlət özü konseptual, yəni yana və hündürlüyə doğru genişlənən quruluşludur. Şaquli və

üfiqi formada müxtəlif tərkibli və kəmiyyətli elementlərarası əlaqələr formasına malikdir. Dövlət siyasətinin piramidal quruluşunun özü bir konsepsiya məzmunludur. Daxildə elementlər arasında olan əlaqə bağlılığının geniş əsasları konseptual əhəmiyyəti meydana gətirir. İdarəetmənin və nizamlamanın özü konsepsiyalardan təşkil olunur. İyerarxik əlaqələr forması konsepsiyaların yaranmasını zəruri edir. Dövlətin qəbul etdiyi sənədlər yuxarıdan aşağıya doğru konseptual məzmunlu olur. Çünki həmin sənədlər konseptual əsaslarla tənzimedici olur. Dövlət konsepsiyası dövlətin əsas siyasi və strateji inkişaf sahələrini əhatə edən sistemli bir sənəddir. Konsepsiyalarda dövlət siyasətinin əsas istiqamətləri və prioritet hədəflər müəyyən olunur. Məsələn, "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 14 fevral 2014-cü il tarixli Sərəncamında yazılır ki, burada əsas məqsəd Azərbaycan mədəniyyətinin inkişafı, mədəniyyətin daxili və xarici təhdidlərdən qorunması, dünya mədəniyyətinə uğurlu inteqrasiya, mədəniyyət sahəsində insan və vətəndaş hüquq və azadlıqlarını təmin etməkdən ibarətdir.[19] Buradan görünür ki, müəyyənedicilik, istiqamətvericilik, prinsiplilik konseptual mənaya malikdir. Konsepsiyalarda məqsədlər də sahələr üzrə universal olur və konseptual məzmunu əks etdirir. Universallıq sistemliliyi yaradır və sistemlilikdə uyğunluğu və harmoniyanı meydana gətirir. Məsələn, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 23 may 2007-ci il tarixli, 2198 nömrəli sərəncamında konsepsiyanın qəbul olunmasının məqsədləri qeyd edilir. Burada əsas məqsədlər ölkənin müstəqilliyini, ərazi bütövlüyünü, konstitusiya quruluşunu, xalqın və ölkənin milli maraqlarını daxili və xarici

---

[19] "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 14 fevral 2014-cü il tarixli Sərəncamı. president.az.articles/11022.

təhdidlərdən qorumağa yönəlmiş siyasətin məqsəd, prinsip və yanaşmalarının müəyyən edilməsindən ibarətdir.[20] Sadalanan fikirlər sənədin universal və konseptual mənaya malik olmasını sübuta yetirir.

Milli Təhlükəsizlik konsepsiyası özü çərçivə konsepsiyası olmaqla yanaşı, həm də universal məna daşıyır. Bu konsepsiyanın qəbulu ilə əlaqədar olaraq, iqtisadiyyat, mədəniyyət, elm, təhsil, səhiyyə, nəqliyyat konsepsiyalarının hazılanması zərurəti də sənəddə öz əksini tapır. (Müvafiq Sərəncam. Maddə 4.). Konsepsiyalardan həmçinin dövlət proqramları, doktrinalar, strategiyalar hazırlanır. (Müvafiq Sərəncam. Maddə 4.). Məsələn, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik konsepsiyasından, 2010-cu ildə Milli Məclisdə təsdiq olunmuş "Azərbaycan Respublikasının Hərbi doktrinası"ndan irəli gələrək, 2013-cü ilin sentyabr ayında "Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi Strategiyası" qəbul olunmuşdur.

Dövlət konsepsiyasında (ümumi konsepsiyada) çoxlu sayda strateji sahələrdə görüləcək işlərin əsas istiqamətləri sistemləşdirilir. Konsepsiylar həm ümumi sahəni əhatə edir, həm də məxsusi sahələri (çərçivə konsepsiyaları) universal əsaslarla əks etdirir. Məsələn, universal konsepsiyaya aid olan 2012-ci il 29 dekabr tarixli prezident fərmanı ilə təsdiq olunan "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasında gələcək inkişaf istiqamətində kompleks sahələr üzrə strateji baxışlar və əsas prioritetlər öz əksini tapmışdır. Bu sənəddə *yüksək rəqabətqabiliyyətli iqtisadiyyata doğru; nəqliyyat tranzit və logistika infrastrukturunun təkmilləşdirilməsi; Bölgələrin tarazlı inkişafı; informasiya-kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin*

[20] Azərbaycan Respublikasının Milli Təhlükəsizlik konsepsiyası. Azərbaycan Respublikasının Prezidentinin 23 may 2007-ci il tarixli, 2198 nömrəli Sərəncamı. www.migration.gov.az/images/pdf/026fa4b410a33801f3dd49643726cf2a.pdf

*təmin edilməsi; insan kapitalının inkişafı və səmərəli sosial müdafiənin təmin olunması; qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi; vətəndaş cəmiyyətinin inkişafı; mədəni irsin qorunması və səmərəli idarə edilməsi, ətraf mühitin qorunması və ekologiya* məsələləri kimi baza sahələrin inkişaf strategiyaları sistemli və qarşılıqlı qaydada ifadə olunmuşdur.[21] Bu konsepsiya dövlət siyasətinin geniş aspektlərini özündə əks etdirir və bir çox məxsusi, konkret sahələr üzrə olan konsepsiyalar üçün baza rolunu oynayır. Çərçivə konsepsiyasına isə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixli, 233 nömrəli qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyasını (Milli Kurikulumu) nümunə göstərmək olar. Sənədin girişində məzmun və struktur barədə yazılır: *"Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası-Milli Kurikulumu (bundan sonra Milli Kurikulum) konseptual xarakterli çərçivə sənədi olub ümumi təhsil üzrə təlim nəticələrini və məzmun standartlarını, ümumi təhsilin hər bir pilləsində nəzərdə tutulan fənləri, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim və nailiyyətlərin qiymətləndirilməsi və monitorinqi üzrə əsas prinsipləri, fənn kurikulumlarının strukturunu əhatə edir".*[22] Sənəddə milli kurikulumun məqsədi açıqlanır.

**Dövlət proqramı.** Dövlət proqramlarının başlıca məqsədi ölkənin və cəmiyyətin inkişafını kompleks şəkildə, konseptual və tarazlı qaydada, zamana müvafiq olaraq inkişaf etdirməkdən

---

[21] "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyası. 2012-ci il 29 dekabr tarixli Prezident Fərmanı ilə təsdiq olunmuşdur. www.president.az/files/future_az.pdf

[22] Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu). Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixli, 233 nömrəli qərarı ilə təsdiq edilmişdir. portal.edu.az/index.php?r=article/item&id=194&mid=5&lang=az

ibarətdir. Dövlət proqramları aidiyyatı icraçı qurumların fəaliyyəti arasında icra və məsuliyyət üzrə vəzifələr bölgüsü müəyyən edir. Burada aidiyyatı qurumlar öz fəaliyyətlərini koordinasiya edirlər və potensialları cəmləşdirirlər. Dövlət proqramları çoxsahəli, çoxtərəfli, çoxməqsədli olurlar və ümumi olaraq sosial-mədəni inkişafı başlıca hədəf kimi müəyyən edirlər. Dövlət proqramları resursların zamanla aidiyyatı tələb olunan sahələr üzrə bölünməsini əsas vəzifə kimi müəyyən edir. Dövlətin icra qurumları qarşısında müəyyən səlahiyyətləri və öhdəliklərin normativ əsaslarını meydaa gətirir. Dövlət proqramları ərazinin əhatə olunması üzrə sosial-siyasi baxımdan **mərkəzi** (məsələn, federal, dövlət) və **yerli** (əyalət, inzibati və iqtisadi rayonlar, ştatlar üzrə) olmaqla iki hissəyə bölünə bilər. Mərkəzi dövlət proqramları ümumi inkişaf strategiyası ilə yanaşı, regionlar üzrə yerli iqtisadiyyatın, sənayenin, ticarətin, turizmin, elm və təhsilin və s. inkişafını da nəzərdə tuta bilər. Dövlət proqramları ayrı-ayrı layihələrə maliyyə və təşkilati yardım göstərir, bu məqsədlə layihələrə qrantlar ayırır. Dövlət proqramlarında bölmələr üzrə tədbirlər planları həyata keçirilir.

Dövlət proqramı **(elmi izaha əsasən),** bütün potensial istifadəçilər-cəmiyyət, biznes və s. üçün planlı və faktiki olaraq nail olunmuş fəaliyyət nəticəsini təqdim edən instrumentdir. Bundan başqa, dövlət proqramının tərkibinin və strukturunun müəyyən olunması, həmçinin uzunmüddətli dövrə onlar arasında xərclərin bölüşdürülməsi-ölkənin inkişaf strategiyasını realizə edən instrumentdir. Dövlət proqramı resurslar (maliyyə, kadr və digər) əsasında balanslaşdırılmış formada qarşıya qoyulmuş məqsədlərə çatmaq fəaliyyətidir. Dövlət proqramı – müddətlə, icraçılarla, istehsal-texnoloji tədbirlərlə, təşkilati xarakterli resurlarla müəyyən olunan, ümumi məqsədlərə nail olmağa, ümumi problemi həll etməyə yönəlmiş məcmudur. Dövlət proqramı perspektiv məqsədlərə nail olmanı təmin

edən, iqtisadiyyatın dövlət tənzimlənməsi instrumentidir.[23] Dövlət proqramı –dövlət siyasətini onun reallaşdırılması sferasında əsas istiqamətlərini müəyyən edən kompleks bir sənəddir. Dövlət proqramı ümumilikdə dövlətin inkişaf strategiyası ilə birbaşa, məxsusi qaydada isə sənayenin (təsərrüfatın) inkişaf konsepsiyası ilə bağlıdır.[24] Dövlət proqramları –mövcud resurslardan istifadə etmək yolu ilə perspektiv məqsəd və məsələlərə nail olmanı təmin edən iqtisadiyyatın dövlət tənzimlənməsi alətləridir.[25] Dövlət proqramları sakinlərə onların həyatının demək olar ki, bütün sahələri üzrə kömək edilməsini nəzərdə tuta bilir. Subsidiyalar, kreditlər və qrant proqramları vətəndaşlara münasib mənzil, ərzaq və səhiyyə sahəsində təchizat məsələlərini təqdim etməyə kömək edir. Biznes və pensiya təminatı məsələləri də proqramlarla mümkündür. Hökumət tərəfindən təqdim olunan müxtəlif resurslar vardır.[26] Dövlət proqramları hökumətin əsas funksiyalarını müəyyən edən fəaliyyət planlarıdır.[27]

Dövlət proqramları (iqtisadiyyat üzrə) sosial-iqtisadi inkişaf strategiyasının tərkibi olmaqla, iqtisadiyyatın diversifikasiyasını, davamlı inkişafını nəzərdə tutur.[28] Dövlət proqramının məqsədi: iqtisadiyyatın inkişafı, makroiqtisadi

---

[23] Государственная программа. forexaw.com/TERMs/Economic_terms_and_concepts/Economic_and_legal_terminology/l1491_Государственная_п

[24] Yenə orada.

[25] Государственные программы. Экономический словарь. abc.informbureau.com/html/ainoaadnoaaiiua_idiadaiiu.html

[26] Government Programs. know.about.com/Government_Programs

[27] Government Programme. FİNNİSH GOVERNMENT.valtioneuvosto.fi/hallitus/hallitusohjelma/en.jsp

[28] "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişaf Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 27 fevral.2014. www.economy.gov.az/index.php?option=com_content&view=article&id=2094:dp-reg-2014-2018&catid=116:2014

sabitliyin təmin olunması və əhalinin sosial-rifah halının yaxşılaşdırılmasından və yoxsulluğun səviyyəsinin aşağı salınmasından ibarətdir. Dövlət proqramlarının əsas məqsədi ədalətli rəqabət mühitinin formalaşdırılması, tarazlığı təmin edən şəraitin yaradılması, regionların iqtisadiyyatına investisiya qoyuluşunun və innovasiya fəaliyətinin stimullaşdırılmasından ibarətdir.[29] Dövlət proqramlarında dövlət siyasətinin əsas priorietləri öz əksini tapır. Dövlət proqramlarında gələcək siyasi fəaliyyətin konseptual məzmunu əhatə olunur. Dövlət proqramlarında qarşıya qoyulan dövlət məqsədləri ümumi müddəalar şəkilində əks olunur. Qarşıya qoyulan məqsədlərin ümumi və konkret aspektləri ifadə olunur.[30] Rusiyada kənd təsərrüfatı sahəsində 2008-2012-ci illərdə -beş il müddətinə- qəbul olunan dövlət proqramında əsas məqsəd kənd təsərrüfatı sahələrinin davamlı inkişafı, məşğulluğun artması, kənd təsərrüfatında həyat səviyyəsinin yüksəlməsi; maliyyə davamlılığı və kənd təsərrüfatının modernləşdirilməsi əsasları ilə, həmçinin kənd təsərrüfatının prioritet sahələrinin inkişafını sürətləndirmək əsasları ilə Rusiya kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətliliyinin artırılması; kənd təsərrüfatı məhsulları istehsalında istifadə olunan torpaq və digər təbiət resurslarının qorunması və təkrar istehsalından, eləcə də digər istiqamətlərdən ibarətdir.[31] Dövlət proqramlarında strateji məqsədlər, hədəflər müəyyən olunur.

---

[29] Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişaf Proqramı. www.economy.gov.az/index.php?option=com_content&view=article&id=2097:dovlet-programı-2014-2018&catid

[30] 2014-2016-cı illərdə Bakə şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 yanvar tarixli Sərəncamı il təsdiq olunmuşdur. www.economy.gov.az/index.php?option=com_content&view=article&id=1913:dp-2014-2016&catid=114:2014-20:

[31] Цели Программы и прогноз развития сельского хозяства на 2008-2012 годы. www.mcx.ru/documents/document/v7_show/1350.145.htm.

Görüləcək işlərin planları qeyd edilir. Rəqəmlər göstərilir. Məsələn, 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramında ölkə üzrə doqquz strateji məqsəd müəyyən olunur. Onlardan biri əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi, yoxsul əhalinin sayının əhəmiyyətli dərəcədə azalmasına nail olunmasından ibarətdir. Səmərəli sosial müdafiə sistemini inkişaf etdirməklə yaşlı əhalinin, aztəminatlı ailələrin və sosial cəhətdən xüsusilə, həssas qrupların sosial risqinin azaldılması isə digər bir strateji məqsəd hesab olunur. Bu proqramdakı hədəflər içərisində **2015-ci ilin sonunadək təhsil sistemində bütün şagirdlərin kompyuterə və internetə çıxışını tam təmin etmək** hədəfi də yer alır.[32] Eləcə də Rusiyanın "Xarici ölkələrdə yaşayan həmvətənlərin Rusiya Federasiyasına könüllü köçmələrinə yardım göstərilməsi Dövlət Proqramı"ında qeyd olunur ki, xaricdə yaşayan həmvətənlərin Rusiya Federasiyasına könüllü köçmələrinə yardım göstəmək Rusiya Federasiyasının miqarsiya siyasətinin təkmilləşməsinin əsas istiqamətlərindən biridir. Bu proqram müvafiq miqrasiya siyasətini stimullaşdırır və prosesi formalaşdırır, təşkilati xarakter verir.[33]

Bir çox ölkələrdə iqtsadiyyatın, elmin, təhsilin, sosial-humanitar sahələrin mədəniyyətin, səhiyyənin və digər strateji sahələrin hökumət tərəfindən maliyyələşdirilməsi üzrə dövlət

---

[32] 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli 3043 nömrəli Sərəncamı ilə təsdiq olunmuşdur. www.economy.gov.az/index.php?option=com_content&view=article&id=249:state-programme-on-poverty-reduc

[33] Государственная программа по оказанию содействия добровольному переселению в Российскую Федерацию соотечественников, проживающих за рубежом. Утвержденной Указом Президента Российской Федерации от 22 июня 2006 года №637. embrus-az.com/jbase.html

proqramları mövcuddur. Məsələn, 24 iyun 2005-ci ilin məlumatına əsasən, ABŞ-da 1607 ədəd maliyyələşdirilmə proqramına (bu siyahıya XIX əsrdə qəbul edilən proqramlar da aiddir) təqribən 2 trilyon dollar pul xərclənmişdir.[34]

Əvvəlki əsrlərdə də dövlət proqramlarının qəbulu həyata keçirilmişdir. Məsələn, ABŞ-da XIX əsrdə qəbul edilən Dövlət Federal Maliyyələşdirilmə Proqramlarına 1890-cı il tarixli Müəssisələrin Kadr Potensialının gücləndirilməsi Qrantı (1890 İnstitution Capacity Building Grants-total funding $10, 797, 000) aid olunur.[35]

**Dövlət doktrinası.** Doktrina –lat.doctrina "təlim, elm, tədris, təhsillilik, elmilik" mənasını verir. Nəzəri və siyasi prinsipləri əldə rəhbər tutan fəlsəfi, siyasi, dini konsepsiyadır, həmçinin nəzəriyyə, təlim, baxışlar sistemidir.[36]

Doktrina strategiyanın (burada konsepsiyaların) tərkib hissəsidir. Strategiyalar məzmun etibarilə həlli vacib olan məsələlərin əks olunmasını ehtiva edən sənədlərdir. Dövlətin qanunvericiliyi və xarici siyasət fəaliyətinin əsasları elə strategiyalardan ibarətdir. Doktrina da strategiya olmaqla yanaşı, həm də strategiyanın tərkib hissəsini təşkil edir. Doktrinalar konstitusiyadan tutmuş qanunlara qədər olan normativ hüquqi aktların ümumi mahiyyətini özündə cəmləşdirir və konseptual əsaslı hüquqi baza yaradır. Doktrina strateji planlaşdırma sənədidir. Doktrina daxili siyasətlə bağlı sənəd olmaqla yanaşı, əsasən xarici siyasətlə əlaqəli məsələlərdə qəbul olunur. Məsələn, xarici siyasətlə bağlı məsələlərə dair 1823-cü ilin dekabr ayının 2-də ABŞ prezidenti Ceyms Monronun Konqresə göndərdiyi məktubu qeyd etmək

---

[34] List of US Federal Government Funding Programs. Published on AidPage by IDILOGIC on Jun 24,2005. funding-programs.idilogic.aidpage.com

[35] Yenə orada.

[36] Доктрина. Словари и энциклопедии на Академике. dic.academic.ru/searchall.php?Sword= доктрина+&from=ru&to=xx&stype=0

olar. Bu sənəd ABŞ xarici siyasətinə aid olan üç prinsipi əsas götürürdü: Amerika ölkələrinin Avropanın daxili işlərinə qarışmaması; Avropa ölkələrinin Amerikanın daxili işlərinə qarışmaması; Avropa ölkələrinin koloniyalaşdırma yolu ilə Amerika dövlətlərinin müstəqilliklərinə xələl gətirmələrinin istənilən yollarla qarşısının alınmasındakı qətiyyətlər.[37]

Doktrina siyasi və hüquqi konsepsiya olaraq, həm də konsepsiyaların (qəbul olunmuş sənədlərin) müddəalarının reallaşdırılmasını istiqamətləndirir. Məsələn, Azərbaycan Respublikası Milli Məclisinin 2010-cu il 8 iyun tarixli, 1029-IIIQR nömrəli Qərarı ilə təsdiq edilən Azərbaycan Respublikasının Hərbi doktrinasında qeyd olunur ki, *(1. Ümumi müddəalar*) Azərbaycan Respublikasının Hərbi Doktrinası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təminatı strategiyasının tərkib hissəsi olaraq, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici hərbi və digər təhdidlərdən qorunmasına yönəlmiş hərbi təhlükəsizlik sisteminin konseptual əsasını müəyyənləşdirən sənəddir.[38] Doktrinadan digər konsepsiyalar meydana gəlir, həmçinin doktrinalar digər konsepsiyaların əsaslarından birini təşkil edir. Burada sənədlər törəmə xassəsinə malik olur.

Rusiya Federasiyasının hərbi doktrinası Rusiya Federasiyasında əsas strateji planlaşdırma sənədlərindən biridir və Rusiya Federasiyasının hərbi müdafiəsinə hazırlığa əsaslanan və dövlətdə rəsmən qəbul olunmuş baxışlar sistemini özündə təqdim edir. Doktrinada Rusiya Federasiyasının 2000-ci ildə qəbul olunmuş Hərbi doktrinasının, Rusiya

---

[37] Доктрина Монро. Энциклопедический словарь экономики и права. dic.academic.ru/dic.nsf/dic_economic_law/3905/DOKTRINA

[38] Azərbaycan Respublikasının Hərbi doktrinası. Azərbaycan Respublikası Milli Məclisinin 2010-cu il 8 iyun tarixli, 1029-IIIQR nömrəli Qərarı ilə təsdiq edilmişdir. www.mod.gov.az/doktrina.htm

Federasiyasının 2020-ci ilə qədər uzunmüddətli sosial-iqtisadi inkişaf Konsepsiyasının, Rusiya Federasiyasının 2020-ci ilə qədər milli təhlükəsizlik Strategiyasını, həmçinin Rusiya Federasiyasının 2008-ci il tarixli xarici siyasət Konsepsiyasındakı müvafiq müddəaları, eləcə də Rusiya Federasiyasının 2020-ci ilə qədər dövrü əhatə edən Dəniz doktrinasının müddəalarını cəmləşdirir. Hərbi doktrina hərbi nəzəriyyə müddəalarına uyğun hazırlanıb və bu nəzəriyyənin sonrakı inkişafının baza istiqamətlərini özündə toparlayır.[39] Rusiya Federasiyasında Hərbi doktrinanın hüquqi əsaslarını Rusiya Federasiyasının Konstitusiyası, beynəlxalq hüququn hamı tərəfindən tanınmış və qəbul olunmuş prinsip və normaları, Rusiya Federasiyanın müdafiə sahəsində beynəlxalq müqavilələri, silahlar üzərində nəzarət və silahsızlaşdırma, həmçinin Rusiya Federasiyası Prezidentinin və Rusiya Federasiyası Hökumətinin normativ hüquqi aktları təşkil edir.

**Dövlət strategiyası.** İzahlı lüğətə əsasən, strategiya-yunan sözü olub-qoşun və ago-aparıram mənasını bildirir. Geniş miqyasda hərbi əməliyyat, müharibə aparma və hazırlama sənəti kimi başa düşülür. Müharibə, hərbi əməliyyat planı kimi də qəbul olunur. Lakin bu söz öz tarixi məhdud formalı anlayış mənasını aşaraq genişlənmiş və dövlətin siyasətinin əhatə olunduğu xüsusi sahələrdəki planları və istiqamətləri əhatə etməkdədir.

Dövlət strategiyalarının əsasları strateji sahələrdə (xüsusi əhəmiyyətli baza sahələrdə -hansılarında ki, hüquqi aktlar böyük mənalar kəsb edir) siyasətin uyğunlaşdırılması və birləşdirilməsindən ibarətdir. Konstitusiya və qanunlar, beynəlxalq müqavilələr, konsepsiyalar, proqramlar, doktrinalar, fəaliyyət planları öz-özlərində universal və konkret məzmunlu strateji sənədlərdir. Sənədlərin qəbulunda başlıca məqsəd

---

[39] Военная доктрина Российской Федерации. 5 февраля 2010 года. news.kremlin.ru/ref_notes/461

aidiyyatı sahələr üzrə potensialı və gücləri birləşdirməkdən və istiqamətlər üzrə yönləndirməkdən ibarətdir. Məsələn, Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi Strategiyasının məqsədi Azərbaycan Respublikasının milli təhlükəsizliyi və milli maraqları əleyhinə yönəlmiş, dənizdə mövcud olan və gələcəkdə ehtimal olunan təhdidlərin qarşısının alınması üçün bütün səyləri birləşdirməkdən ibarətdir. Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi Strategiyası dənizdə təhdidlərə qarşı zəruri və effektiv tədbirlərin həyata keçirilməsi məqsədilə müvafiq qurumların vəzifə və məsuliyyətini müəyyən edir.[40]

Dövlət strategiyaları da ümumi və yerli, həmçinin universal və çərçivə əhəmiyyətinə malik ola bilər. Məsələn, yerli əhəmiyyətli və yerli əhatəlilik baxımından strategiyaya misal olaraq Rusiyanın Sankt- Peterburq şəhərinin 2030-cu ilə qədərki dövrü əhatə edən İqtisadi və Sosial İnkişaf Strategiyasını misal göstərmək olar. Bu sənədin əsas məqsədi şəhərlilərin həyat keyfiyyətlərinin yaxşılaşdırılmasının stabil təminatı və milli inkişaf prioritetlərinin reallaşdırılması əsasında Sankt Peterburqun qlobal rəqabətqabiliyyətliliyini artırmaq, davamlı iqtisadi artımı təmin etmək və innovativ-texnoloji fəaliyyətin nəticələrindən istifadə etməkdən ibarətdir. Strategiya Sankt-Peterburq Şəhər Hökumətinin 13 may 2014-cü il tarixli 355 nömrəli qərarı ilə qəbul olunmuşdur.[41] Yerli və konkret sahələri əhatə edən strategiyalar ümumi strategiyalardan-konsepsiyalardan, dövlət strategiyalarından törəyir. Ümumi dövlət konsepsiyaları yerli strategiyaların hazırlanması və qəbulu üçün əsaslar verir. Bu sənədlərdə strateji prioritetlər öz əksini tapır. Məsələn, Sankt –Peterburq

[40] Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi Strategiyası. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 11 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. www.president.az/articles/9290

[41] Стратегия экономического и социального развития Санкт-Петербурга на период до 2030 года. spbstrategy2030.ru.

şəhərinin sözügedən Strategiyasının qəbul olunmasında prioritetlər kimi, Rusiya Federasiyasının 2020-ci ilə qədərki dövrü əhatə edən Uzunmüddətli Sosial-inkişaf Konsepsiyası (2008-ci ildə qəbul olunub), Rusiya Federasiyasının 2020-ci ilə qədərki dövrü əhatə edən Milli təhlükəsizlik Strategiyası (2009-cu ildə qəbul olunub), Rusiya Federasiyasının 2025-ci ilə qədərki dövrü əhatə edən Milli dövlət siyasəti Strategiyası (2012-ci ildə qəbul olunub), Rusiya Federasiyasının Ərzaq təhlükəsizliyi Doktrinası (2010-cu ildə qəbul olunub) əsas rol oynayıb.[42]

İxtisaslı sahələri əhatə edən strategiyalara isə misal kimi Azərbaycan Respublikasının Dəniz təhlükəsizliyi Strategiyası nümunə göstərilə bilər.

**Dövlət fəaliyyət planı.** Dövlət fəaliyyət planları da konseptual məzmunlu sənədlərdir. Belə planlar öz əhatəliliyi və strateji əhəmiyyətliliyi ilə seçilir. Dövlət planları gələcəkdə görüləcək işlər haqqında müəyyənləşdirici funksiya yerinə yetirirlər. Strateji nəticələrin əldə olunması başlıca məqsədə çevrilir.[43] Fəaliyyət planlarından da digər qanunların qəbul olunması zərurəti məsələləri öz əksini tapır. Məsələn, Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planının 2.3 bəndi korrupsiya halları haqqında məlumat verən şəxslərin müdafiəsinə dair qanun layihəsinin hazırlanması üçün Baş Prokurorluq, Ədliyyə Nazirliyi, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya qarşısında tələblər qoyur və müddət müəyyən edir. "Açıq Hökümətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda da öhdəliklər müəyyən edilir. Məsələn, ayrı-ayrı qurumlar qarşısında görüləcək işlər və nəticə idikatorları

---

[42] Стратегия экономического и социального развития Санкт-Петербурга на период до 2030 года. 6.1. Стратегические приоритеты России. spbstrategy2030.ru/?page_id=102

[43] Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı. www.president.az/articles/5713

müəyyən edilir. Eləcə də qurumlar tərəfindən müvafiq daxili icraat qaydaların, təlimatların qəbulunun zəruriliyi əks olunur.[44]

**Dövlət sənədlərinin (konsepsiyaların, proqramların, strategiyaların, fəaliyyət planlarının, doktrinaların) normativ hüquqi əsasları**

Dövlətin hər bir sənədi, –istər yerli, istərsə də mərkəzi hakimiyyət tərəfindən qəbul olunsun, milli layihə xarakteri kəsb etsin- hüquqi aktdır. Hüquqi aktdırsa, normalardan və qaydalardan ibarətdir. Qaydalar normaların həyata keçirilməsi üsullarını, tərzlərini özündə cəmləşdirir. Dövlət proqramları, konsepsiyaları, doktrinaları, fəaliyyət planları da hüquqi aktlardır. Bu aktlar dövlət rəhbərinin müvafiq qərarı ilə (fərman və sərəncamla) təsdiq olunur. Hüquqi aktlar fərman və sərəncamların tərkib hissələrini təşkil edir. Həmçinin hökumət tərəfindən təsdiqlənə bilir. Dövlət proqramları və digər bu kimi konseptual sənədlər ümumiyyətlə, qanunvericilik aktları ilə təsdiq olunur. Məsələn, Azərbaycan Konstitusiyası prezidentə proqramların təsdiqi səlahiyyətini verir. Bu baxımdan da hesab etmək olar ki, dövlət proqramlarının qəbulu konstitusiyadan törəyir. Dövlət proqramları fərmanla və sərəncamla təsdiqləndiyindən, fərmanın, sərəncamın tərkib hissəsi olduğundan, normativ hüquqi aktlar kimi səlahiyyətə malik olur. Dövlət proqramlarının icrası məqsədilə normativ hüquqi baza yaradılır. Məsələn, 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının 3.1 bəndində gənclərin xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsili prosesinin normativ hüquqi bazasının yaradılması

[44] "Açıq Hökümətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı". Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. www.president.az/articles/5712

nəzərdə tutulur.[45] Dövlət proqramlarının icrası məqsədilə aidiyyatı qurumlarda müxtəlif tədbirlər həyata keçirilir, planlar tərtib olunur, nəticələri ilə bağlı məlumatlar, hesabatlar, arayışlar hazırlanır. Sahələrdə vahid sistemin yaradılması məqsədilə normativ hüquqi baza təkmilləşdirilir. Digər tərəfdən, dövlət proqramlarının icrası aidiyyatı icraçı qurumların əlavə qərarları ilə yerinə yetirilir. Məsələn, "2007-2015-ci illərdə Azərbaycan Gənclərinin Xarici Ölkələrdə Təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Azərbaycan gənclərinin 2014-2015 tədris illərində xarici ölkələrdə təhsil almaları məqsədilə seçilmiş ali təhsil müəssisələrinin siyahısı Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiya sədrinin sərəncamı (məsələn, 10.02.2014-cü il tarixli, 11 nömrəli) ilə müəyyən edilmişdir.[46] Həmçinin müvafiq dövlət proqramı barədə prezident sərəncamının 2-ci bəndinə uyğun olaraq, proqram Dövlət Neft Fondunun vəsaiti hesabına maliyyələşdirilir. Dövlət Neft Fondu həmin bəndin icrası ilə əlaqədar müvafiq qərarlar qəbul edir. Eləcə də xərclərlə bağlı müvafiq arayışlar hazırlayır. Məsələn, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın 01.10.2014-cü il tarixinə icra vəziyyəti barədə Arayışa əsasən, 2642 nəfərin təhsili ilə bağlı xərclər Azərbaycan Respublikası Dövlət Neft Fondu tərəfindən maliyyələşdirilmişdir.[47]

Eyni zamanda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 03 iyun 2008-ci il tarixli 128 nömrəli Qərarı ilə

---

[45] 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel tarixli 2090 saylı Sərəncamı ilə təsdiq edilmişdir. xaricdetehsil.edu.gov.az/uploads/files/xariciolkeler.pdf

[46] Yenə orada.

[47] "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın 01.10.2014-cü il tarixinə icra vəziyyəti barədə Arayış. www.oilfund.az/uploads/tehsil%20proqrami%20arayish.pdf

“Xarici ölkələrdə təhsil alacaq Azərbaycan gənclərinin Seçim qaydaları” təsdiq edilmişdir. Azərbaycan Respublikası Prezident Administrasiyası rəhbərinin 2014-cü il 10 fevral tarixli 11 nömrəli Sərəncamı ilə Azərbaycan gənclərinin xaricdə təhsil almaları məqsədi ilə seçilmiş ali təhsil müəssisələrinin siyahısı təsdiq edilmişdir.[48] Buradan görünür ki, dövlət proqramı ümumi istiqamətlər verən və məxsusi qaydada müddəaların yerinə yetirilməsi vacib olan aktların qəbulunu tələb edir. Burada dövlət proqramı öz hüquqi əhəmiyyətinə görə ali dərəcəli və ali təsirlidir, ümumiləşdiricidir. Konstitusiya və qanunlar, həmçinin prezident fərmanları kimi özündən qaydaların qəbulunu, şaxələnməni tələb edir. Dövlət proqramları qanunvericiliyin tərkibini zənginləşdirir. Dövlət proqramları universal sahələrdə və məxsusi sahələrdə məhz universal və məxsusi əhəmiyyət kəsb edir.

Dövlət proqramının özünün mətnində əks olunmuş müddəalar da normativliyi yaradır. Məsələn, 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının 3.1 bəndində yazılır ki, *gənclərin xarici ölkələrin ali məktəblərində təhsil almalarının müəyyənləşdirilməsi mexanizmləri və təhsil alacaq gənclərin seçim meyarları şəffaflıq əsasında müəyyənləşdirilir. Bu məqsədlə xaricdə təhsilalma prosesi ilə bağlı ildə bir dəfə müvafiq dövlət orqanları və ölkə ictimaiyyəti qarşısında geniş hesabat verilir*. Buradan görünür ki, özündə məsuliyyəti, məcburiyyəti (vəzifələrin yerinə yetirilməsi baxımından imperativliyi) əks etdirən normativlik mövcuddur. Dövlət orqanlarının icra fəaliyyəti ilə bağlı tələblər müəyyən edilir. Digər bir bölmədə də yazılır ki, *maliyyələşdirmə prosesində*

[48] Azərbaycan Respublikası Dövlət Neft Fondu. Xaricdə təhsil üzrə Dövlət Proqramı. www.oilfund.az/az_AZ/layiheler/xaricde-tehsil-uzre-dovlet-programi.asp

*tələbələrin bütün xərcləri-viza məsələləri və qəbul edən ölkədə onların qeydiyyata alınması, təhsil haqqı, yaşayış, yemək, tədris ədəbiyyatı ilə təminat, tibbi sığorta, gediş-gəliş biletlərinin alınması təmin olunur*. Bu fikir də normativ xarakterlidir, qarşıda tələblər qoyur. Bununla yanaşı, digər bir normativ və imperativ sənəd olaraq, Qazaxıstanın hökumət qərarı ilə təsdiq olunmuş "Ucuz mənzil -2020" adlanan proqramın da normativ hüquqi qaydalar müəyyən etməsini qeyd etmək olar. Proqramın bu kimi istiqamətləri qeyd olunur: yerli icra hakimiyyəti orqanlarının növbədə dayananları üçün mənzillər; "Qazaxıstan mənzil tikinti əmanət bankı" ASC (Açıq Səhmdar Cəmiyyəti) xətti ilə əhalinin bütün kateqoriyaları üçün mənzillər; "İpoteka təşkilatı "Qazaxıstan ipoteka şirkəti" ASC xətti ilə mənzillər; "Fond daşınmaz əmlakı "Samruk-Kazın" ASC mənzil tikintisi və s. Proqramda mənzillərin şəhərlər və bölgələr üzrə 1 kv.-na düşən qiymətlər, həmçinin alış və ödəniş qaydaları müəyyən edilir.[49]

27 dekabr 2011-ci ildə qəbul olunan Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Prqramı müvafiq icra orqanları qarşısında öhdəlik yaradır. Birinci Fəsil normativ-hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə təkliflərin hazırlanması və qanunvericiliyin təkmilləşməsi üçün müvafiq dövlət qurumları qarşısında vəzifə və öhdəliklər müəyyən edir. Proqramın ikinci fəsli əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsini əsas götürür. Məsələn, işsizlərin əmək bazarında rəqabət qabiliyyətinin artırılması, onların yeni peşələrə yiyələnməsinə yönəlmiş kursların təşkili üçün məsuliyyətli icra orqanları müəyyən edilir.[50] Bu, həm

---

[49] Доступное жилье-2020. Государственная программа. Фонд недвижимости «Самрук-Казына» fnsk.kz/?=page&=21

[50] Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı.www.president.az/articles/4017

çərçivə sənədidir, həm də insan hüquqlarının təminatı üzrə universal bir konsepsiyadır.

Belə nəticələrə gəlmək olur ki, dövlət proqramları ümumi əsaslı universal və məxsusi olaraq istiqamət verən normativ-hüquqi sənədlərdir. Bu sənədlər özlərindən yeni sənədlərin meydana gəlməsini şərtləndirir. Sənədlərdən yeni qanunvericilik aktları (məsələn, qanunlar) qəbul olunur.

**Dövlət konsepsiyalarının normativ hüquqi əsasları.** Konsepsiya adlanan sənədlər də mahiyət etibarilə özündə normativ hüquqi müddəaları cəmləşdirir. Bu müddəalar həm də siyasi normativ xarakterli olur. Məsələn, 23 may 2007-ci il tarixli prezident sərəncamı ilə təsdiq olunan Azərbaycan Respublikasının milli təhlükəsizlik Konsepsiyasında Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri öz əksini tapır. Burada təhlükəsizliyin xarici siyasət və daxili siyasət vasitələri ilə təmin olunmasının əsasları qeyd olunur.[51] Konsepsiyanın nəqliyyat təhlükəsizliyi siyasəti bölməsində normativ müddəa olaraq yazılır ki, Azərbaycan Respublikası bu kimi vəzifələri həyata keçirir: nəqliyyatın və nəqliyyatda təhlükəsizliyin təmin edilməsi; nəqliyyat sistemində səfərbərlik hazırlığının təmin edilməsi; Avropa-Qafqaz-Asiya və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin fəaliyyətinin səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılması məqsədi ilə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi; və s. Burada dövlət qarşısında məsuliyyət və öhdəliklər də müəyyən olunur. Məsuliyyət və öhdəliklər hüquqi normativliyi meydana gətirir. Eləcə də Milli Kurikulum konsepsiyasında da sənədin müəyyən funksiyaların reallaşmasına xidmət etməsinin əsasları müddəalar şəkilində

---

[51] Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli sərəncamı ilə təsdiq edilmişdir.
www.mns.gov.az/img/3766779_5me02.%20Milli_Tehlukesizlik_Konsepsiyasi.pdf

qeyd olunur. Bu funksiyalar içərisində ümumi təhsilin pillələri, bu pillələrdə tədris olunan fənlər arasında əlaqələrin və ardıcıllığın təmin olunması; fənlərinin məzmununun cəmiyyətin tələbatına uyğun daim təkmilləşdirilməsi və yeniləşdirilməsi və s. qeyd olunur.

Dövlət konsepsiyaları universal və çərçivə konsepsiyalarına bölünür. Məsələn, 14 fevral 2014-cü il tarixində qəbul olunan "Azərbaycan Respublikasının mədəniyyət konsepsiyası" çərçivə konsepsiyasıdır.

Dövlət konsepsiyaları həm də özündə dövlət doktrinalarını və strategiyalarını cəmləşdirir. Onların yaranmasına səbəb olur.

**Strategiyaların normativ-hüquqi əsasları.** Strateji sənədlər törəmə funksiyasına malikdir və müxtəlif sahələr üzrə yeni sənədlərin qəbulunu özündə ehtiva edir. Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi Strategiyası dənizdə təhdidlərə qarşı zəruri və effektiv tədbirlərin həyata keçirilməsi məqsədilə müvafiq qurumların vəzifə və məsuliyyətini müəyyən edir.[52]

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında (Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmişdir) təhsil sisteminin başlıca vəzifələri normativ hüquqi əsaslarla göstərilmişdir və məsuliyyəti meydana gətirmişdir. Vəzifələr içərisində bunlar qeyd olunur: ölkənin modernləşməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla Azərbaycan Respublikasının beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək; sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və əlavə təhsili təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq və s.[53]

[52] Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi Strategiyası. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 11 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. www.president.az/articles/9290

[53] Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. www.president.az/articles/9779

Rusiyanın Sankt- Peterburq şəhərinin 2030-cu ilə qədərki dövrü əhatə edən İqtisadi və Sosial İnkişaf Strategiyasında normativ müddəa olaraq Sankt-Peterburq şəhərinin missiya və funksiyaları müəyyən edilir. İndiki dövrdə funksiyalar kimi bunlar müəyyən olunur:

-dünya səviyyəli tarixi-mədəni mərkəz;

-təhsil, elm və innovasiya mərkəzi (məsələn, Arktika regionunun mənimsənilməsinin öyrənilməsi üçün elmi mərkəz);

-mərkəzi şəhər;

-sənaye mərkəzi;

-biznes və turistik mərkəz;

-nəqliyyat-tranzit mərkəz[54]

Rusiya Federasiyası Prezidentinin 12 may 2009-cu il tarixli 537 nömrəli Fərmanı ilə təsdiq olunmuş Rusiya Federasiyasının 2020-ci illəri əhatə edən Milli təhlükəsizlik Strategiyasında (sənədin Rusiya Federasiyasının milli maraqları və strateji milli prioritetləri adlanan III bölməsində) yazılır ki, Rusiya Federasiyasının milli təhlükəsizliyinin əsas prioritetləri milli müdafiə, dövlət və ictimai təhlükəsizlikdən ibarətdir. Uzun müddətli perspektivdə ölkənin milli maraqlarına həmçinin Rusiya Federasiyasını çoxpolyuslu dünya şəraitində qarşılıqlı səmərəli tərəfdaşlıq və strateji sabitliyin qorunub saxlanılmasına istiqamətlənən fəaliyyətlə dünyanın nəhəng dövləti səviyyəsinə qaldırmaq siyasəti aiddir. Milli təhlükəsizliyin təmin olunması adlanan bölmədə isə yazılır ki, milli təhlükəsizliyin təmin olunmasının əsas məzmunu hüquqi və institutisional mexanizmlərin müdafiəsindən asılıdır, həmçinin ölkənin milli maraqlarına cavab verəcək səviyyədə dövlət və cəmiyyətin resurslarına bağlıdır. Ölkənin milli

[54] Стратегия экономического и социального развития Санкт-Петербурга на период до 2030 года. 6.1. Стратегические приоритеты России. spbstrategy2030.ru/?page_id=102

təhlükəsizlik səviyyəsi birbaşa milli təhlükəsizliyin təmin olunması sisteminin effektiv fəaliyyətindən və iqtisadi potensialdan asılıdır. Normativ müddəa kimi qeyd olunur ki, Rusiya Federasiyası rasional keyfiyyətlərdən və səmərələrdən çıxış edərək, eləcə də qeyri-hərbi tənzimləmə üsulu və vasitələrindən, ictimai diplomatiya və sülhüqoruma mexanizmlərindən, beynəlxalq hərbi əməkdaşlıqdan yararlanaraq milli müdafiəni təmin edir.[55]

**Doktrinaların normativ hüquqi əsasları.** Doktrinalar da normativ hüquqi əsaslıdır. Məsələn, Rusiya Federasiyasının Hərbi doktrinasında yazılır ki, Rusiya Federasiyası ona və (yaxud da) müttəfiqlərinə qarşı nüvə silahı və digər kütləvi qırğın silahları tətbiq olunarsa, nüvə silahından istifadə etmək hüquqlarını özündə saxlayır. Bu hüquqdan həm də o halda istifadə edir ki, Rusiyaya - onun dövlət kimi mövcudluğuna qarşı yönəlmiş adi silahlar tətbiq edilir. Nüvə silahından istifadə qərarı Rusiya Prezidenti tərəfindən qəbul olunur.[56] Sənəddə normativ müddəa kimi o da yazılır ki, Rusiya Federasiyası Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvlərindən birinə olan hücumu təşkilatın bütün üzvlərinə olan hücum kimi qəbul edir və Kollektiv Təhlükəsizlik Müqaviləsinə uyğun olaraq ölçülər görür. 2000-ci ilin sentyabr ayının 9-da Rusiya prezidentinin sərəncamı ilə qəbul olunmuş (dərc olunma tarixi isə 06 sentyabr 2010-cu ildir) Rusiya Federasiyasının İnformasiya təhlükəsizliyi Doktrinasında normativ müddəa olaraq yazılır ki, dövlət Rusiya Federasiyasının İnformasiya təhlükəsizliyinin təmin olunmasında öz funksiyalarının həyata keçirilməsi üçün bu kimi addımlar atır: Rusiya Federasiyasının informasiya təhlükəsizliyinə olan təhdidləri obyektiv və hərtərəfli analiz edir, proqnozlaşdırır və

[55] Стратегия национальной безопасности Российской Федерации до 2020 года. www.rg.ru/2009/05/19/strategia-dok.html

[56] Военная доктрина Российской Федерации. 5 февраля 2010 года. news.kremlin.ru/ref_notes/461

təhlükəsizliyin təmini üçün müvafiq tədbirlər görür; Rusiya Federasiyasının informasiya təhlükəsizliyinə olan təhdidlərin qarşısını kəsməyə, aşkarlamağa, neytrallaşdırmağa yönəlik kompleks ölçülər götürmək üçün dövlət hakimiyyətinin qanunverici və icra strukturlarının işini təşkil edir.[57]

**Fəaliyyət planlarının normativ hüquqi əsasları.** Digər konseptual dövlət sənədləri ilə yanaşı, fəaliyyət planları da normativ əsaslıdır. Məsələn, Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planında korrupsiyaya qarşı mübarizə üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə görüləcək işlər və nəticə indikatorları ilə əlaqədar bir çox dövlət dövlət qurumları qarşısında vəzifə və öhdəliklər müəyyən edilir.[58]

## Ümumiləşdirilmiş nəticələr:

-konsepsiyalar, dövlət proqramları, doktrinalar, strategiyalar, fəaliyyət planları (bundan sonra **strateji-konseptual sənədlər**) milli layihələr olmaqla, dövlətin hüquqi aktlarıdır, hüquqi normalardan ibarətdir;

-strateji-konseptual sənədlərin hüquqi bazasını həm də dövlətin qanunvericilik aktları təşkil edir. Bu sənədlər qanunvericilik aktları ilə qüvvəyə minir;

-strateji-konseptual sənədlər normayaradıcı funksiya kəsb edirlər, bu sənədlər normativ hüquqi aktlarla təsdiq olunur və yeni normativ hüquqi aktları meydana gətirirlər;

-strateji-konseptual sənədlər istiqamətvericidir, dövlətin daxildə və beynəlxalq əlaqələrdə ümumi və konkret siyasətini əhatə edir;

---

[57] Доктрина Информационной безопасности Российской Федерации. Опубликовано 06.09.2010. uipnz.ru/ndocs/2010/09/6/13152078

[58] Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı. www.president.az/articles/5713

-strateji-konseptual sənədlər sərhədlər, -vəzifələr və öhdəliklər baxımından,-müəyyən edir;

-strateji -konseptual sənədlər konstitusiyaya və beynəlxalq hüquq prinsiplərinə, prinsiplərin əks olunduğu beynəlxalq hüquq normalarına zidd ola bilməz;

-strateji-konseptual sənədlərin hüquqi mahiyyəti onların siyasi mahiyyəti ilə çulğaşır. Bu sənədlərdə hüquqla siyasət anlayışları daha çox vəhdətləşir və dövlət səviyyəsini əhatəedir;

-strateji-konseptual sənədlərin hüquqi təsdiqi və təsiri digər normativ hüquqi aktlarla təsdiq olunduqdan sonra meydana gəlir;

-strateji-konseptual sənədlər həm universal, həm də çərçivə sənədlərindən (aktlardan) ibarətdir;

-strateji-konseptual sənədlərin icra olunması üçün aidiyyatı dövlət qurumları və ictimai qurumlar səfərbər olunur;

-strateji- konseptual sənədlər dövlət qurumları arasındakı əlaqələr və münasibətlərdə vəhdət meydana gətirir;

-strateji-hüquqi sənədlər bir-birindən asılı məzmuna malik olur və bir-birini tamamlayır, sənədlərin iyerarxik əlaqələri qorunur;

-strateji-konseptual sənədlər ümumi məqsədlər və vəzifələr baxımından oxşardırlar və bir-birilərini tamamlayır;

-strateji-konseptual sənədlərdə ümumi və konkret siyasət istiqamətləri cəmləşir;

-strateji-konseptual sənədlərin oxşarlığı onların hədəflər müəyyən etməklərində əks olunur;

-strateji-konseptual sənədlərin oxşarlığı onların prioritetliyində öz əksini tapır;

-strateji-konseptual sənədlərin oxşarlığı onların icra olunması üçün tədbirlər planlarında əks olunur;

-strateji-konseptual sənədlərin oxşar mahiyyəti onların obyekt (predmet) və icraçı subyektlərində əks olunur;

-strateji-konseptual sənədlərdə icra mexanizmlərinin oxşarlıqları mövcuddur və ümumi müddəalar şəkilində istiqamətlər meydana gəlir;

-strateji-konseptual sənədlər subyektlər üçün funksiya və missiya təsdiqedici olurlar;

-strateji-konseptual sənədlər hüquqi bazanın təkmilləşdirilməsi üçün vəzifə və öhdəliklər müəyyən edir və s.

# Qrafiklər bölməsi




Qrafik-1
Allaha yaxın olmaq formulası-subyektiv mülahizələr, inanclar sxemi
Element axını –hərəkət
Yaxınlaşmaq
Siqnal artımı
Ulu Tanrı - təbiət, kainat -fövqtəbiət
Zamanın qısalması
Enerji artımı
Kainatın, təbiətin tarazlığı
Sürət artımı
Tarazlı həyat – tarazlı xasiyyət; tarazlı davranış –Allah qanununa əməl etmək
Xeyirxahlıq, müdriklik; rəhmlilik, bağışlamaq qabiliyyəti
Nəticə:
əməl; niyyət
Tarazlığa tabe olmaq
Saflıq
Zəruri hallarda maddi-mənəvi yardımlar etmək
Paklıq
Tarazlı qüvvə əsasında həyat
Təmizlik
Əməli salehlik



Qrafik-2
İqtisadiyyatın inkişaf etdirilməsinin əsaslarını əks etdirən sxem
Xidmət
Kənd
təsərrüfatı
Tələb
Təklif
İstehsalat–sənaye


Qrafik-3
İqtisadiyyatın inkişafında bankların iştirakını əks etdirən sxem – bankların funksiya və vəzifələri
Əhalinin gəlirlərinə və iş yerlərinə bank nəzarəti və bank təşkilatçılığı təmin olunur. Banklara bağlı həyat yaşanır
Bankların funksiya və vəzifələri –“bank həyatı”nın təmin olunması
Pul bazası harada-həyat orada prinsipi
Əhaliyə və təşkilatlara kreditlər yolu ilə məhsullar, əşyalar satırlar
Iqtisadiyyatda bank nəzarəti və iştiarkı geniş təmin olunur. “Banklı iqtisadiyyat” formalaşdırılır
Faizli kreditlər verirlər
Əhali bank kartları ilə sənaye və kənd təsərrüfatı məhsullarını əldə edir
Bank istehsalatda və xidmətdə sərmayəçi və sahibkar kimi iştirak edir
Istehsalat müəssisələri yaradırlar
Öz müştəriləri üçün iş yerləri yaradır və əhali gəlirlərindən depozitlər üçün istifadə edir
Kənd təsərrüfatı bankaları yaradılır və onlar məhsul istehsalında iştirak edirlər
Vergilərin tutulmasını təmin edirlər
Əhali bank sığortalı həyat yaşayır.
əhalinin əmək haqqına liberal nəzarət həyata keçirir
Sosial əhəmiyyətli banklar təşkil olunur
Daşınar və daşınmaz əmlak banklar tərəfindən sığortalanır
Bankların sistemli fəaliyyəti əhalinin həyat fəaliyyəti ilə uyğunlaşdırılır
Məişət həyatına bank müşahidəsi təmin olunur
əhalinin pul gəlirləri banklarla bağlı olur
Əhali üçün təhsil, elm sahəsində fondlar yaradır
Yeni doğulan uşaqlar üçün fondlar yaradır
Pensiya təminatı məsələlərini həll edir


Qrafik-4
Azərbaycanda yeni dövlət quruluşunun struktur əsaslarını əks etdirən sxem
Dövlət rəhbəri
Ümumxalq Məclisi
Qanunverici hakimiyyət
İcra hakimiyyəti
Məhkəmə hakimiyyəti
Ümumxalq Məhkəməsi
Hakimiyyətin piramidal quruluşu
Ümumxalq nəzarəti hakimiyyəti
Yerli özünüidarəetmə qurumları-bələdiyyələr və yerli məclislər


Qrafik-5
Ümumxalq Məclisinin (“Ümumxalq Söz Azadlığı Mərkəzi”nin) səlahiyyətlərini əks etdirən sxem
Xalqın ali ictimai-siyasi toplantısı-söz azadlığı mərkəzi
Ümumxalq Məclisi
Xalq, dövlət rəhbəri və hakimiyyət arasında əlaqələndirici və vəhdətyaradıcı bir qurum-dövlətin və xalqın bütövlüyünü təcəssüm etdirən ictimai-siyasi qurum
Əsas səlahiyyətləri
Dövlət rəhbərinin ali ictimai-siyasi toplantısı
Qanunvericilik səlahiyyətinə malik deyil; ictimai-siyasi problemlərin ali səviyyədə müzakirəsi ilə məşğul olur
Dövl?t r?hb?rinin andiçm? v? tacqoyma m?rk?zi
İdarə heyəti (bürosu) dövlət hakimiyyəti və ictimaiyyət nümayəndələrindən təşkil olunur
Xalqın taleyüklü məsələlərinin müzakirəsi ilə məşğul olur; müzakirələrdə tövsiyə xarakterli qərarlar qəbul olunur
Dövlətin baza daxili və xarici siyasətinə münasibət bildirir
Qərarlar açıq və birbaşa səsvermə ilə qəbul olunur. Qəbul etdiyi qərarların hüquqi sənəd forması parlamentdə müəyyən olunur, dövlət rəhbəri tərəfindən qüvvəyə minir
Konkret səlahiyətləri-baxdığı məsələlər
Məclisdə birləşmələr, qruplar təşkil olunmur
Müzakirələr açıq formada, tərəf tutmadan və çəkişmə prinsipi ilə həyata keçirilir
referendum-dövlət rəhbərinin təqdimatı əsasında; konstitusiya dəyişikliyi və yeni konstitusiyanın qəbulu; dövlət rəhbərinə etimad-parlamentin və konstitusiya məhkəməsinin tələbləri əsasında; hakimiyyət rəhbərlərinə etimad-dövlət rəhbərinin təqdimatı ilə; müharibə və sülh siyasətinə münasibət-dövlət rəhbərinin təqdimatı ilə; hakimiyyətin istefası-dövlət rəhbərinin təqdimatı ilə; parlamentin buraxılması-dövlət rəhbərinin təqdimatı ilə; ombudsmanın seçilməsinə və təyinatına münasibət; konstitusiya məhkəməsinin sədrinin təyinatına münasibət; strateji-konseptual sənədlərə münasibət; xarici və daxili siyasətin gələcək strateji-konseptual istiqamətlərinin müzakirəsi; hakimiyyətin fəaliyyətinə münasibət-birbaşa, yəni təqdimatsız; dövlət rəhbərinin fəaliyyətinə münasibət; maliyyə və iqtisadiyyat böhranlarından çıxış yollarının müzakirəsi; ali orden və dövlət ali mükafatlarının verilməsinə münasibət və s.
Ölk?nin ?sas ictimai-siyasi t?şkilatları (hökum?t v? qeyri-hökum?t) t?msil olunur
Iştirakçılıq mandatla müəyyən olunur – iştirakçılar iclas səlahiyyəti müddətində
Ildə dörd dəfə çağırılır
Fövqəlada iclaslar çağırır
Müazakirələrdə obyektivlik əsas prinsipdir

**Qrafik-6** **Hüquqi aktların xarakterini (formasını, növünü) təsnif edən sxem**



## NƏTİCƏ:

İdeyaların mütləq, qəti sonu yoxdur. Onun törəməsi inkişafa bağlıdır. İdeyalar o halda pozitiv olur ki, başlıca məqsəd enerjiyaradıcı əsaslarla strukturlaşmaya xidmət göstərmiş olur. Lakin strukturlaşmanın mahiyyəti də pozitivliyə söykənməlidir və enerji mənbəyi rolunu ifadə etməlidir. Strukturlaşma prosesləri öz-özlüyündə yenilikləri yaratmaq prosesləridir. İdeyalar yeni-yeni ideyalardan ortaya çıxır və ümumiləşdirici əhəmiyyət kəsb edir. Hər sahənin öz ideyası vardır. Bu, əsasən sahəyə yanaşma tendensiyalarından asılıdır. Pozitiv ideyalar insanlarda müsbət, faydalı davranışları meydana gətirir. Sahələr üzrə yeni ideyalar həmin sahələrdə ideal inkişafın əsaslarını formalaşdırır. İdeal inkişaf da öz növbəsində real mövcudluğa söykənir.

İnkişaf, sabitlik, sülh fikirləri elə ideyalardır. Bu sahələr vəhdət təşkil edir. Bir sahə digəri üçün şərtləndirici rolu oynayır. Hər üç sahənin vəhdəti öz-özlüyündə inkişafı təmin edir. İnkişaf dəyərləri qoruyur, dəyərlərdən meydana gəlir. İdeyalar məcmusu elə özlüyündə inkişaf kriteriyalarının məcmusunu daşıyır.

İdeyaların reallaşması ideallığın müəyyən formada təcəssüm olunmasıdır. Məsələn, beşinci Moğol imperatoru (Babur, Humayın, Əkbər və Cahangirdən sonra) Shahab-id-din Muhammed Shah Cahan (Şah Cahan (1592-1666)[59] - "dünya ağası" mənasını verir) üçüncü arvadı olmuş Mumtaz Mahalın (1593-1631. Tam adı Arcumand Banu Bequm) məhəbbət və gözəllik şərəfinə ağ mərmərdən tikdirdiyi Tac Mahal (1631-ci ildə tikintisinə başlanılıb-1653-cü ildə tamamlanıb. Hind-islam arxitekturasına uyğun inşa olunub) mavzoleyi reallıqda təcəssüm olunan ideallığın əsas nümunələrindən biridir. Mərkəzi hissəsi ağ mərmərdən olan türbədən ibarətdir. Daxili və xarici interyeri baxımından dünyanın ən gözəl simmetrik tikintisindən biridir.

[59] The Maker of The Tac. Emperor Shah Jahan.www.tajmahal.gov.in/shah_jahan.html

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT:

**Azərbaycanda yaşayan azsaylı xalqların adət və ənənələrinin təbliğində kitabxanaların rolu: metodik vəsait/tərt.ed.S.Quliyeva; itis.red. və bur.məs.K.Tahirov; red.G.Səfərəliyeva; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.-Bakı, 2012.-45.s. səh.12. www.anl.az/down/Azsayli_xalqlar.pdf;**

**Azərbaycan Respublikasının 2015-ci ilin dövlət və icmal büdcələri üzrə layihələrin təqdimatı.www.maliyye.gov.az/sites/default/files/2015_teqdimat_%20(3).pdf;**

**"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişaf Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 27 fevral.2014. www.economy.gov.az/ index.php?option=com_content&view=article&id=2094:dp-reg-2014-2018&catid=116:2014;**

**Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişaf Proqramı. www.economy.gov.az/index.php?option=com_content&view=article&id=2097:dovlet-programı-2014-2018&catid;**

**2007-2015-ci illərdə Azərbaycan Gənclərinin Xarici Ölkələrdə Təhsili üzrə Dövlət Proqramı. xaricdetehsil.edu.gov.az/c-dphaqqinda/universitetler/;**

**2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel tarixli 2090**

**saylı Sərəncamı ilə təsdiq edilmişdir. xaricdetehsil.edu.gov.az/uploads/files/xariciolkeler.pdf**;

**2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 yanvar tarixli Sərəncamı il təsdiq olunmuşdur. www.economy.gov.az/index.php?option=com_content&view=article&id=1913:dp-2014-2016&catid=114:2014-20:;**

**2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli 3043 nömrəli Sərəncamı ilə təsdiq olunmuşdur. www.economy.gov.az/index.php?option=com_content&view=article&id=249:state-programme-on-poverty-reduc;**

**"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın 01.10.2014-cü il tarixinə icra vəziyyəti barədə Arayış. www.oilfund.az/uploads/tehsil%20proqrami%20arayish.pdf;**

**Azərbaycan Respublikası Dövlət Neft Fondu. Xaricdə təhsil üzrə Dövlət Proqramı. www.oilfund.az/az_AZ/layiheler/xaricde-tehsil-uzre-dovlet-programi.asp;**

**Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı.www.president.az/articles/4017;**

**“Azərbaycan 2020: Gələcəyə baxış” inkişaf konsepsiyası. 2012-ci il 29 dekabr tarixli Prezident Fərmanı ilə təsdiq olunmuşdur. www.president.az/files/future_az.pd;**

**Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu). Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixli, 233 nömrəli qərarı ilə təsdiq edilmişdir. portal.edu.az/index.php?r=article/item&id=194&mid=5&lang=az;**

**Azərbaycan Respublikasının Milli Təhlükəsizlik konsepsiyası. Azərbaycan Respublikasının Prezidentinin 23 may 2007-ci il tarixli, 2198 nömrəli Sərəncamı. www.migration.gov.az/images/pdf/026fa4b410a33801f3dd49643726cf2a.pdf;**

**Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli sərəncamı ilə təsdiq edilmişdir. www.mns.gov.az/img/3766779_5me02.%20Milli_Tehlukesizlik_Konsepsiyasi.pdf;**

**“Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 14 fevral 2014-cü il tarixli Sərəncamı. president.az.articles/11022;**

**Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi Strategiyası. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 11 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. www.president.az/articles/9290;**

**Azərbaycan Respublikasının Hərbi doktrinası. Azərbaycan Respublikası Milli Məclisinin 2010-cu il 8 iyun tarixli, 1029-IIIQR nömrəli Qərarı ilə təsdiq edilmişdir.www.mod.gov.az/doktrina.htm;**

**Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. www.president.az/articles/9779;**

**Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı. www.president.az/articles/5713;**

**"Açıq Hökümətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı". Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. www.president.az/articles/5712;**

**Dünya bazarında neftin qiyməti. 18.11.2014. İqtisadiyyat. news.milli.az/economy/309206.html;**

**Digər dinlərdə orucluq. www.zeka.az/1858-ddgzhr-ddnlzhrdzh-oruc.html;**

**Eboladan ölənlərin sayı 7 minə yaxınlaşdı. 29.11.2014. www.news.lent.az/news/185901;**

**Government Programs. know.about.com/Government_Programs;**

**List of US Federal Government Funding Programs. Published on AidPage by IDILOGIC on Jun 24,2005. funding-programs.idilogic.aidpage.com;**

**Government Programme. FİNNİSH GOVERNMENT.valtioneuvosto.fi/hallitus/hallitusohjelma/en.jsp;**

**Qatar"s $62B Budget Sets Government Spending Record. Published: April 2, 2014. www.qatarus.com/2014/04/02/ qatars-62b-budget-sets-government-spending-record/;**

**Qatar announces largest budget in its history. By Ebrahim Omar İn Doha. 2014-04-07.al-shorfa.com.en_GB/articles/meii/features/2014/04/07/feature-02;**

**İran Economy Profile 2014. İndex Mundi.www.indexmundi.com/iran/economy_profile.html;**

**OPEC. Annual Statistical Bulletin. 2013. www.opec.org/opec_web/static_files_project/media/downloads/publications/ASB2013.pdf.;**

**Centres for Disease Control and Prevention. Ebola (Ebola Virus Disease). Cases of Ebola Diagnosed in the United States.www.cdc.gov/vhf/ebola/outbreaks/2014-west-africa/united-states-imported-case.html;**

**The Maker of The Tac. Emperor Shah Jahan.www.tajmahal.gov.in/shah_jahan.html;**

**Биография Оскара Нимейера. www.ria.ru/spravka/20121206/913608568.html;**

**Военная доктрина Российской Федерации. 5 февраля 2010 года. news.kremlin.ru/ref_notes/461;**

**Государственная программа. forexaw.com/TERMs/Economic_terms_and_concepts/Economic_and_legal_terminology/l1491_Государственная_п;**

**Государственные программы. Экономический словарь. abc.informbureau.com/html/ ainoaadnoaaiiua_idiadaiiu.html;**

**Государственная программа по оказанию содействия добровольному переселению в Российскую Федерацию соотечественников, проживающих за рубежом. Утвержденной Указом Президента Российской Федерации от 22 июня 2006 года №637. embrus-az.com/jbase.html;**

**Доступное жилье-2020. Государственная программа. Фонд недвижимости «Самрук-Казына» fnsk.kz/?=page&=21;**

**Доктрина. Словари и энциклопедии на Академике. dic.academic.ru/searchall.php?Sword= доктрина+&from=ru&to=xx&stype=0;**

**Доктрина Монро. Энциклопедический словарь экономики и права. dic.academic.ru/dic.nsf/ dic_economic_law/3905/DOKTRINA;**

**Доктрина Информационной безопасности Российской Федерации. Опубликовано 06.09.2010. uipnz.ru/ndocs/2010/09/6/13152078;**

**Цели Программы и прогноз развития сельского хозяства на 2008-2012 годы. www.mcx.ru/documents/document/v7_show/1350.145.htm;**

**Стратегия экономического и социального развития Санкт-Петербурга на период до 2030 года. Spbstrategy2030.ru;**

**Стратегия экономического и социального развития Санкт-Петербурга на период до 2030 года. 6.1. Стратегические приоритеты России. spbstrategy2030.ru/?page_id=102;**

**Стратегия национальной безопасности Российской Федерации до 2020 года. www.rg.ru/2009/05/19/strategia-dok.html;**

**Столица Бразилии-город Бразилиа. 21.04.2010. www.ria.ru/spravka/20100421/224586380.html**;

**Структура доходов федерального бюджета в 2014 году. info.minfinru/fbdohod.php**

**ELŞƏN MİSİR OĞLU NƏSİBOV**

# İNKİŞAF VƏ SÜLH İDEYALARI

**V KİTAB**

*«Elm və Təhsil» nəşriyyat-poliqrafiya müəssisəsi*